RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 68 (10088) 22 aprel 2026-cı il ÇƏRŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Bakı qlobal diplomatiyanın yeni paytaxtıdır

### Azərbaycanın növbəti bir il ərzində UNESCAP-a sədrliyi də bunun təsdiqidir

Ölkəmizin beynəlxalq platformalardakı fəallığı sistemli xarakter daşıyır. 2024-2026-cı illər üzrə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) sədrlik, Türk Dövlətləri Təşkilatında aparıcı rol, Qoşulmama Hərəkatına rəhbərlik dövründə "peyvənd millətçiliyi"nə qarşı göstərilən qətiyyətli mövqe Azərbaycanın beynəlxalq aləmdəki çəkisini və nüfuzunu daha da artırıb. Həmçinin, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi terrorizmlə mübarizə və hüququn aliliyi sahəsindəki fəaliyyətimiz diplomatiya tariximizin şanlı səhifələridir. Ölkəmiz 2014-cü ildə Avropa Şurası Nazirlər Komitəsinə altıaylıq sədrlik dövründə də Avropanın hüquqi və humanitar məkanında mühüm gündəlik formalaşdırdı.

Azərbaycanın qlobal nüfuzunun ən parlaq səhifələrindən biri COP29-a evsahibliyi və orada əldə edilən tarixi nəticələrdir. Bakı razılaşmaları sayəsində iqlim maliyyəsi sahəsində inqilabi addımların atılması və ildə ən azı 300 milyard dollar vəsaitin səfərbər olunması öhdəliyi Azərbaycanın bəşəri problemlərin həllində əsas aktor olduğunu bir daha sübut etdi.

Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tam bərpa etməsi təkcə ölkəmiz üçün deyil, bütün bölgə üçün yeni imkanlar açıb. Ermənistanla sülh gündəliyi və normallaşma prosesində əldə olunan irəliləyişlər, Orta dəhlizin strateji əhəmiyyətinin artması və Zəngəzur dəhlizinin (TRIPP) vəd etdiyi perspektivlər Cənubi Qafqazı qlobal ticarətin mərkəzinə çevirir. Eyni zamanda Azərbaycanın regional sülh gündəliyinin onun beynəlxalq diplomatiyadakı üfüqlərini də birbaşa genişləndirməsi danılmaz gerçəklikdir.

BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının 82-ci sessiyasının iştirakçılarına müraciətində Prezident İlham Əliyev bu mühüm məqamı belə vurğulayıb: "Münaqişənin başa çatması Azərbaycanın beynəlxalq səylərinin genişləndirilməsi üçün də yeni imkanları yaratmışdır. Azərbaycanın Türk Dövlətləri Təşkilatında və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyi, onun D8 - İqtisadi Əməkdaşlıq üzrə Təşkilata, Mərkəzi Asiyada dövlət başçılarının məşvərətçi görüşlərinə qəbul olunması və COP29 tədbirinə uğurlu evsahibliyi etməsi beynəlxalq ictimaiyyətin Azərbaycanın xarici siyasətinə artan etimadının təzahürüdür".

Onu da diqqətə çatdıraq ki, ölkəmiz gələn ay Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) evsahibliyi edəcək. Azərbaycanın qlobal liderliyini daha da möhkəmləndirəcək bu forum məzmununa və əhatə dairəsinə görə BMT-nin İqlim Dəyişikliyi üzrə Tərəflər Konfransından (COP) sonra ikinci ən böyük və strateji əhəmiyyətli qlobal platforma hesab olunur.

5

## "Şimal-Cənub" marşrutu bütün tərəflərə fayda gətirə bilər

### Əgər xətdə işlər tam yekunlaşarsa

Azərbaycan qonşu ölkələrdən fərqli olaraq, "Şimal-Cənub" marşrutrunun fəaliyyətini genişləndirmək üçün üzərinə düşən öhdəlikləri vaxtında və yüksək səviyyədə yerinə yetirir. Bu günə kimi ölkəmizə şimaldan daxil olan yüklərin tranzitinin asanladırılması üçün dəmir və avtomobil yollarının təkmilləşdirilməsi istiqamətində çox işlər görüb. Lakin görülən işlər də var. Bu məqsədlə "Azərbaycan Dəmir Yolları" (ADY) QSC "Şimal-Cənub" dəhlizində irimiqyaslı modernləşdirilmə layihəsinə başlayır - Biləcəri-Yalama dəmir yolu xəttinin enerji təchizatı, siqnalizasiya və rabitə sistemlərinin müasirləşdirilməsi üçün layihələndirmə və tikinti-quraşdırma işlərinə start verilir.




Bununla bağlı Azərbaycan hökuməti "Azərbaycan dəmir yollarının enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması (Biləcəri-Yalama) layihəsi" çərçivəsində maliyyə resurslarının təmin edilməsi məqsədilə Asiya İnkişaf Bankına (AİB) müraciət edib. Həmin müraciət əsasında ayrılacaq vəsaitin müəyyən hissəsinin qeyd olunan müqavilə üzrə ödənişlərin həyata keçirilməsi üçün istifadə edilməsi nəzərdə tutulur.

6

## Bakı qlobal urbanizasiya gündəminin mərkəzində olacaq

### WUF13 şəhərlərin gələcək inkişafı ilə bağlı mühüm müzakirə platformalarından birinə çevriləcək

Dünya Şəhərsalma Forumunun 13-cü sessiyasının məhz Bakıda keçirilməsi təsadüfi deyil. Bu evsahibliyi Azərbaycanın şəhərsalma sahəsində həm tarixi, həm müasir potensialının qlobal miqyasda təqdimatı deməkdir. Tarixən Şərqlə Qərb arasında körpü rolunu oynamış Azərbaycan bu gün də geosiyasi baxımdan strateji mövqeyini qoruyur. İpək yolu üzərində yerləşən qədim şəhərlərimiz ticarət, mədəniyyət və sənətkarlıq mərkəzləri kimi formalaşaraq urbanistik inkişafın erkən nümunələrini yaratmışdır.

Bu tarixi reallıq müasir Bakının simasında öz əksini tapır. XIX əsrdən başlayaraq, sürətlə sənayeləşən şəhər Şərq və Qərb memarlıq ənənələrinin sintezində formalaşaraq özünəməxsus urban model yaradıb. Azərbaycanın şəhərsalma modeli yalnız müasir inkişaf göstəriciləri ilə deyil, həm də zəngin memarlıq irsi ilə seçilir. Ölkə ərazisində qorunan qalalar, karvansaralar, məscidlər, türbələr və s. milli memarlıq ənənələrinin davamlılığını nümayiş etdirir. Bu irsin ən parlaq nümunələri arasında İçərişəhər, Şirvanşahlar Sarayı Kompleksi, Qız qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı kimi UNESCO-nun irs siyahısına daxil edilmiş abidələr xüsusi yer tutur. Bu nümunələr Azərbaycanın şəhərsalma mədəniyyətinin dünya miqyasında qəbul olunduğunu göstərir. Orta əsr memarlıq məktəbinin zirvələrindən olan Əcəmi Naxçıvaninin yaradıcılığı isə bu ənənələrin intellektual təməlini formalaşdırır.




8

## Antalya Diplomatiya Forumu türk dövlətləri arasında əməkdaşlığın yeni mərhələyə keçidinə təkan verir

Türk dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi bu gün artıq seçim deyil, geosiyasi reallıqların tələb etdiyi strateji zərurətdir.




Antalya Diplomatiya Forumu bu baxımdan türk dünyasının ortaq maraqlarını daha sistemli şəkildə müzakirə etməyə, yeni əməkdaşlıq mexanizmlərini formalaşdırmağa imkan yaradır. Bu platforma dövlətlər arasında etimad mühitinin möhkəmlənməsinə xidmət edir. Forum çərçivəsində iqtisadi inteqrasiya məsələləri xüsusi diqqət mərkəzindədir. Nəqliyyat dəhlizlərinin şaxələndirilməsi, logistika imkanlarının genişləndirilməsi və ticarət əlaqələrinin gücləndirilməsi türk dövlətlərinin iqtisadi gücünü artıran əsas amillərdən biridir. Bu istiqamətdə Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən layihələr forum müzakirələri ilə daha da zənginləşir. Xüsusilə Orta dəhliz layihəsi türk dövlətlərini Avropa və Asiya bazarlarına bağlayan strateji xətt kimi çıxış edir və bu layihənin inkişafı regionun iqtisadi xəritəsini dəyişmək potensialına malikdir. Bu kimi təşəbbüslər türk dünyasının qlobal iqtisadi sistemdə rolunu daha da gücləndirir.

5

## Ağ günlərinə qovuşan Ağdam

Ağdamın bugünkü siması dövlətimizin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi inkişaf siyasətinin ən aydın nümunələrindən biridir. Onilliklər ərzində viran qoyulan küçələr, dağıdılmış yaşayış məhəllələri, yerlə yeksan edilmiş binalar indi müasir şəhərsalma prinsipləri əsasında yenidən qurulur. Yeni salınan geniş küçələr, abad parklar, sosial obyektlər və yaşayış kompleksləri Ağdamın gələcəkdə regionun ən nümunəvi şəhərlərindən birinə çevriləcəyini göstərir.



Rayonun quruculuğu zamanı ilk mərhələdə yol infrastrukturu əsas prioritetlərdən biri oldu. Ağdamı digər bölgələrlə birləşdirən magistral yollar yenidən salındı, kəndlərə və yaşayış məntəqələrinə aparan daxili yollar çəkildi. Elektrik xətləri, su təchizatı sistemləri, qaz şəbəkəsi və rabitə infrastrukturu yenidən quruldu. Bu layihələr olmadan yaşayışın bərpası mümkün deyildi. Dövlət qısa müddət ərzində Ağdamda sıfırdan yeni mühəndis-kommunikasiya sistemi formalaşdırdı.

7

## Avropada həyəcan təbili

Bu yaxınlarda Prezident İlham Əliyev “Uşaq hüquqları haqqında” Azərbaycan Respublikasının Qanununu təsdiq edib. Yeni qanunun qəbulunda məqsəd mövcud qanunvericiliyin müasir çağırışlar nəzərə alınmaqla təkmilləşdirilməsi, uşaq mənafelərinin daha effektiv qorunması, sosial təminat mexanizmlərinin gücləndirilməsi və beynəlxalq konvensiyaların tələblərinə uyğunlaşdırılmasıdır. “Uşaq hüquqları haqqında” yeni qanun ölkədə uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların hüquq və azadlıqlarını, həmin hüquq və azadlıqların həyata keçirilməsi sahəsində dövlət təminatlarını və dövlət nəzarətinin əsaslarını müəyyən edir.

10





## Azərbaycandan Ermənistana neft məhsullarının növbəti partiyası yola salınıb

Dünən Ermənistana 16 vaqon həcmində (974 ton) dizel yanacağı göndərilib. AZƏRTAC xəbər verir ki, ümumilikdə indiyədək Azərbaycandan Ermənistana 7610 ton dizel yanacağı, 979 ton Aİ-92 markalı benzin və 2955 ton Aİ-95 markalı benzin yola salınıb.

Qeyd edək ki, enerji resurslarının ixracı regionda iqtisadi əməkdaşlığın genişlənməsi və qarşılıqlı ticarət əlaqələrinin inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir.

# Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036 (Cild I); 2024, № 5 (I kitab), maddə 529, № 9, maddə 998; 2025, № 4 (I kitab), maddə 333, № 7, maddə 646, № 8, maddə 761) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına ipoteka kreditinin, o cümlədən güzəştli ipoteka kreditinin verilməsi Qaydası"na aşağıdakı məzmunda 3.2.5-1-ci yarımbənd əlavə edilsin:

"3.2.5-1. ən azı 3 il hakimlik stajı olan Azərbaycan Respublikası məhkəmələri hakimləri;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 aprel 2026-cı il*

# "Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli 433 nömrəli Qərarı ilə təsdiq edilmiş "Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların öhdəlik daşıyan şəxslərə verilməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 112** **Bakı şəhəri, 21 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Dövlət rüsumu haqqında", "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 240-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 29 iyul tarixli 456 nömrəli Fərmanının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır**:

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 oktyabr tarixli 433 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 10, maddə 2148 (Cild I); 2024, № 5 (II kitab), maddə 627; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 19 mart tarixli 89 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Kommersiya hüquqi şəxslərin təsisçiləri (iştirakçıları), nizamnamə kapitalındakı payları və qiymətli kağızların mülkiyyətçiləri barədə məlumatların öhdəlik daşıyan şəxslərə verilməsi Qaydası"nın 4.1.3.4-cü abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 4.1.4-cü yarımbənd əlavə edilsin:

"4.1.4 ƏL/TMM Qanununun 3.2-ci maddəsinə uyğun olaraq, kazino oyunlarının təşkilatçısı və operatoru tərəfindən həmin Qanunun 4-8-ci maddələrinin tələbləri müştəri üç min manat məbləğində və ya daha artıq məbləğdə maliyyə əməliyyatları həyata keçirdiyi üçün tətbiq edildikdə.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli Qərarında dəyişiklik edilməsi və çağrı mərkəzi mövcud olmayan dövlət orqanlarında (qurumlarında) çağrı xidmətlərinin təşkili barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 113** **Bakı şəhəri, 21 aprel 2026-cı il**

"Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 4 aprel tarixli 3199 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı" üzrə Tədbirlər Planı"nın 4.10-cu bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 239 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1.1. adına və ikinci abzasına "Dövlət orqanlarında" sözlərindən sonra "(qurumlarında)" sözü əlavə edilsin;

1.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları" üzrə:

1.2.1. adına "Dövlət orqanlarında" sözlərindən sonra "(qurumlarında)" sözü əlavə edilsin;

1.2.2. mətn üzrə ismin müvafiq hallarında "dövlət orqanı" sözlərindən sonra ismin müvafiq hallarında "(qurumu)" sözü əlavə edilsin;

1.2.3. mətn üzrə ismin müvafiq hallarında "dövlət orqanları" sözlərindən sonra ismin müvafiq hallarında "(qurumları)" sözü əlavə edilsin;

1.2.4. mətn üzrə ismin müvafiq hallarında "orqan" sözündən sonra ismin müvafiq hallarında "(qurum)" sözü əlavə edilsin;

1.2.5. 1.4.1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.4.1. **dövlət orqanı (qurumu)** - mərkəzi və yerli icra hakimiyyəti orqanları, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, dövlət adından yaradılan publik hüquqi şəxslər;";

1.2.6. aşağıdakı məzmunda 1.4.4-1-ci yarımbənd əlavə edilsin:

"1.4.4-1. **uzaqdan cavablandırma** - təmsilçinin Çağrı Mərkəzinin xidmət zalından kənarda canlı rejimdə xidmət göstərməsi;";

1.2.7. 2.6-cı bənd aşağıdakı redaksiyada verilsin:

"2.6. Çağrı Mərkəzi canlı rejimdə müraciətlərin cavablandırılmasını çoxkanallı avadanlıqlardan istifadə edilməklə dövlət orqanları (qurumları) və onların tabeliyindəki orqan (qurum) üzrə vahid nömrə ilə, vahid xidmət zalında (təmsilçi yerlərinin sayı 20 nəfərdən çox olduğu hallar istisna olmaqla), fövqəladə hallarda istifadə olunan xidmətlər (və ya qanunvericilikdə nəzərdə tutulan hallar) üzrə fasiləsiz (24/7), digər xidmətlər üzrə iş günləri saat 09:00-dan 18:00-dək fasiləsiz olaraq həyata keçirir. Təmsilçi yerləri, müraciətlərin konfidensiallığı və sayı, məlumatların məxfiliyi, habelə əlilliyi olan əməkdaşlar nəzərə alınaraq daxil olan zənglərin uzaqdan cavablandırılması həyata keçirilə bilər. Zənglərin uzaqdan cavablandırılması bu Qaydaların tələbləri nəzərə alınmaqla və müvafiq texniki avadanlıqlar təmin edilməklə həyata keçirilir. Dövlət orqanları (qurumları) öz fəaliyyət xüsusiyyətlərindən asılı olaraq daha artıq iş vaxtı müəyyən edilməsi məsələsini nəzərdən keçirirlər. Təmsilçilərin həftəlik canlı rejimdə xidmət vaxtı 36 saatdan çox olmamalıdır.";

1.2.8. aşağıdakı məzmunda 2.11-1-ci bənd əlavə edilsin:

"2.11-1. Çağrı Mərkəzinə ölkə ərazisində sabit telefon (məftilli) telekommunikasiya şəbəkələrindən zənglərin ödənişsiz qaydada edilməsi təmin edilir.";

1.2.9. aşağıdakı məzmunda 12-ci hissə əlavə edilsin:

**"12. Uzaqdan cavablandırma üzrə tələblər**

12.1. Uzaqdan cavablandırma zamanı təmsilçi kompüter, zəruri proqram təminatı, qanunvericilik bazası, müraciət edənlər barədə asan və tez məlumat almaq imkanı olan məlumat bazası, səsboğucu funksiyaları olan qulaqlıq və mikrofon, hüquqi aktlar, metodiki göstərişlər, məlumat kitabçaları və digər zəruri vasitələrlə təmin edilməlidir.

12.2. Uzaqdan cavablandırma zamanı avadanlıq və proqram təminatı bu Qaydaların 11.3-cü bəndinin tələblərinə uyğun olmalıdır.".

2. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 25 fevral tarixli 50 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarında çağrı mərkəzlərinin fəaliyyətinin təşkili Qaydaları"nın 2.11-1-ci bəndinin icrasını təmin etmək məqsədilə müvafiq telekommunikasiya operatorları ilə birgə zəruri tədbirlər görsün.

3. Çağrı Mərkəzi mövcud olmayan:

3.1. mərkəzi və yerli icra hakimiyyəti orqanları çağrı xidmətlərinin "108" Çağrı Mərkəzində təşkili məqsədilə müvafiq məlumatları (sənədləri) 3 ay müddətində Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə təqdim etsinlər və qoşulma ilə bağlı digər zəruri tədbirlər görsünlər;

3.2. dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslər, o cümlədən dövlət adından yaradılan publik hüquqi şəxslər öz vəsaitləri hesabına (fəaliyyətlərindən əldə olunan gəlirlər nəzərə alınmaqla) 5 ay müddətində çağrı mərkəzlərini yaratsınlar və ya müqavilə əsasında çağrı xidmətlərinin göstərilməsini təşkil etsinlər.

4. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi:

4.1. Çağrı Mərkəzi mövcud olmayan mərkəzi və yerli icra hakimiyyəti orqanlarının çağrı xidmətlərinin "108" Çağrı Mərkəzi vasitəsilə göstərilməsini təmin etsin;

4.2. bu Qərarın 4.1-ci bəndinin icrasını təmin etmək məqsədilə "108" Çağrı Mərkəzinin maddi-texniki təminatı üçün zəruri olan maliyyə vəsaiti ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Qərarın 4-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə zəruri maliyyə vəsaitinin ayrılmasını təmin etsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Elektron notariat" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 110** **Bakı şəhəri, 20 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Mənzil Məcəlləsində, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Notariat haqqında", "İcra haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "İpoteka haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 iyul tarixli 250-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 1 avqust tarixli 462 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Elektron notariat" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 12 oktyabr tarixli 307 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 10, maddə 1176 (Cild I); 2024, № 1, maddə 119, № 2, maddə 241) aşağıdakı dəyişikliklər edilsin:

1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.".

2. Həmin Qərarla təsdiq edilmiş "Elektron notariat" informasiya sistemi haqqında Əsasnamə"nin 12.3.16-cı yarımbəndinə "məlumatlar" sözündən sonra ", "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş hallarda daşınmaz əmlak və rəsmi reyestrdə qeydiyyata alınan daşınar əmlak üzərində hüquqların rəsmiləşdirilməsi üçün protokol və notarius vasitəsilə rəsmiləşdirilən alqı-satqı müqaviləsi əsasında satılmalı olan əmlak barədə icra məmurunun qərarı" sözləri əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Qazpaylayıcı sistem operatoru tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi Qaydası"nın təsdiq edilməsi və "Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 215 nömrəli Qərarının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 111** **Bakı şəhəri, 20 aprel 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Qaz təchizatı haqqında" Azərbaycan Respublikasının 2025-ci il 8 iyul tarixli 233-VIIQ nömrəli Qanununun tətbiqi və bununla əlaqədar bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 avqust tarixli 487 nömrəli Fərmanının 2.1.2.5-ci abzasının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Qazpaylayıcı sistem operatoru tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi Qaydası" təsdiq edilsin *(əlavə olunur)*.

2. "Qaz paylayıcısı tərəfindən qaz qurğularında, qaz xətlərində və tüstü bacalarında, habelə havalandırma və havadəyişmə xətlərində müayinənin keçirilməsi qaydası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 iyun tarixli 215 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 6, maddə 875 (Cild I); 2024, № 3, maddə 305) ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

# Latviya Prezidenti Edqars Rinkeviçs Azərbaycana rəsmi səfərə gəlib

Latviya Respublikasının Prezidenti Edqars Rinkeviçs aprelin 21-də Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.



Latviya Prezidenti Edqars Rinkeviçsi Azərbaycanın Baş nazirinin birinci müavini Yaqub Eyyubov, xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər qarşıladılar.

# Konstitusiya Məhkəməsi Plenumunun iclasında Azərbaycan Prokurorluğunun sorğusu əsasında konstitusiya işinə baxılıb

Fərhad Abdullayevin sədrliyi ilə Konstitusiya Məhkəməsi Plenumunun növbəti iclası keçirilib.

Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, məhkəmə iclasında Azərbaycan Respublikası Prokurorluğunun sorğusu əsasında Konstitusiyanın 76-cı maddəsinin I hissəsi baxımından Cinayət Məcəlləsinin 321-ci maddəsinin "Qeyd" hissəsinin həmin Məcəllənin 321.1-ci maddəsi, İnzibati Xətalar Məcəlləsinin 606.3-cü maddəsi və 606-cı maddəsinin "Qeyd" hissəsinin 2-ci bəndi, habelə "Hərbi vəzifə və hərbi xidmət haqqında" Qanunun 45-ci maddəsi ilə əlaqəli şəkildə şərh edilməsinə dair konstitusiya işinə baxılıb. Konstitusiya Məhkəməsinin Plenumu iş üzrə hakim X.Vəliyevin məruzəsini, maraqlı subyektlər Azərbaycan Respublikası Prokurorluğunun sorğusunu və Milli Məclis Aparatının mülahizəsini, Ali Məhkəmə, Daxili İşlər Nazirliyi, Bakı Apellyasiya Məhkəməsi, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzi və Vəkillər Kollegiyası tərəfindən təqdim olunmuş mütəxəssis mülahizələrini, ekspert Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin Cinayət hüququ və kriminologiya kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Ş.Səmədovanın rəyini və iş materiallarını araşdırıb müzakirə edərək qərar qəbul edib.

Qərarda deyilir ki, Konstitusiyanın 76-cı maddəsinin I hissəsi və 80-ci maddəsinin hüquqi təyinatından, o cümlədən hüquqi müəyyənlik və qanunçuluq prinsiplərindən, Konstitusiya Məhkəməsi Plenumunun bu Qərarının təsviri-əsaslandırıcı hissəsində ifadə olunmuş hüquqi mövqelərdən irəli gələrək Cinayət Məcəlləsinin 321-ci maddəsinin cinayət tərkibinin aydın və birmənalı şəkildə müəyyənləşdirilməsi istiqamətində təkmilləşdirilməsi Milli Məclisə tövsiyə edilsin.

Qərar dərc edildiyi gündən qüvvəyə minir, qətidir, heç bir orqan və ya şəxs tərəfindən ləğv oluna, dəyişdirilə, yaxud rəsmi təfsir edilə bilməz.

# Ali Məclisin yaz sessiyasının növbəti iclasında iki məsələ müzakirəyə çıxarılıb

Aprelin 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin birinci müavini Bəxtiyar Məmmədovun sədrliyi ilə yeddinci çağırış Ali Məclisin yaz sessiyasının növbəti iclası keçirilib. Bu barədə AZƏRTAC-a Ali Məclisin Mətbuat xidmətindən məlumat verilib.

Ali Məclis sədrinin birinci müavini iclasın gündəliyinə 2 məsələnin müzakirəsinin daxil edildiyini bildirib. Gündəlik təsdiq olunduqdan sonra birinci məsələ - üçüncü oxunuşda olan "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin müzakirəsi zamanı Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev qanun layihəsi barədə məlumat verib.

Müzakirə olunan məsələ ilə əlaqədar deputatlar fikirlərini bildirdikdən sonra qanun səsə qoyularaq qəbul olunub.

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov qeyd edib ki, növbəti məsələ "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə etimad məsələsinin həll edilməsi hüququnun əlavə təminatları haqqında" Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin ikinci oxunuşda müzakirəsidir. Məsələ ilə bağlı Bəxtiyar Məmmədov vurğulayıb ki, qanun layihəsi Ali Məclisin aprelin 17-də keçirilən plenar iclasında birinci oxunuşda qəbul olunub. Qanun layihəsinin ikinci oxunuşda müzakirəsi ilə əlaqədar Hüquq siyasəti komitəsinin sədri məlumat verib, komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul olunub. Bununla da Ali Məclisin iclası başa çatıb.

Qeyd edək ki, Ali Məclisdə təcrübədə olan Naxçıvan Dövlət Universitetinin tələbələri də plenar iclasda iştirak edib, iclasın gedişini izləyərək qanunvericilik prosesinin praktiki mərhələləri ilə tanış olublar.

## Milli Məclisin iclasında

# Parlament diplomatiyası ölkəmizin xarici siyasətinə layiqli töhfələr verir

**Aprelin 21-də Milli Məclisin növbəti plenar iclası keçirilib. Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova onun başçılığı ilə nümayəndə heyətinin aprelin 14-dən 17-dək Türkiyənin İstanbul şəhərinə etdiyi işgüzar səfər barədə məlumat verib.**

Spiker diqqətə çatdırıb ki, səfərdə məqsəd Parlamentlərarası İttifaqın 152-ci Assambleyasında və Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin 5-ci Konfransında iştirak etmək idi. Qeyd olunub ki, Parlamentlərarası İttifaqın 152-ci Assambleyasında 126 ölkədən 1500 nəfərdən çox nümayəndə, o cümlədən 720 nəfər parlament üzvü iştirak edirdi. Onlardan 80 nəfəri parlament sədri, 52 nəfəri isə sədr müavini idi.

Assambleyanın iclası "Gənc nəsil üçün ümidlərin artırılması, sülhün qorunması və ədalətin təmin edilməsi" mövzusuna həsr olunmuşdu. Tədbirdə parlamentlərin bu istiqamətdə fəaliyyətinin gücləndirilməsinə yönələn təşəbbüslər və əməkdaşlığın genişləndirilməsi imkanları nəzərdən keçirilib.

Sahibə Qafarova deyib ki, Assambleyanın iclasında çıxış edərək bəşəriyyəti narahat edən bir sıra qlobal problemlərə diqqət çəkib. Bildirib ki, bu problemlərin həllində parlament üzvləri birgə və məsuliyyətlə hərəkət etməlidirlər. Onlar sülhü təşviq etməli, ədaləti qorumalı və gələcək nəsillərin maraqlarının qərarlarda əks olunmasını təmin etməlidirlər.

Milli Məclisin Sədri Assambleyadakı çıxışında, həmçinin ölkəmizdə gənclər siyasəti sahəsində həyata keçirilən tədbirlər və əldə olunan nailiyyətlər barəsində iclas iştirakçılarına geniş məlumat verdiyini diqqətə çatdırıb.

Spiker Sahibə Qafarova deyib ki, aprelin 17-də Assambleya çərçivəsində ümumi müzakirələrə Azərbaycan parlamentinin rəhbəri kimi o sədrlik edib.

Assambleya çərçivəsində keçirilən 41-ci Qadın Parlamentarilər Forumunda Milli Məclisin Sədri çıxış edərək qadın parlament sədrlərinin 2025-ci ildə keçirilmiş 15-ci Zirvə Toplantısının hesabatını təqdim edib. O, çıxışında qeyd edib ki, parlament üzvləri mövcud problemlərin həllində fəal iştirak etməlidirlər, çünki bu gün dünyada sülhün təmin olunması üçün dialoqun və inklüzivliyin gücünə ehtiyac duyulur.

Spiker bildirib ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Parlamentlərarası İttifaqın iclasında iştirak edən parlament sədrləri ilə görüşüb. Görüşdə qeyd edilib ki, parlamentlər arasında əməkdaşlığın dərinləşdirilməsi qlobal çağırışların həllində önəmli rol oynayır.

Parlamentlərarası İttifaqın 152-ci Assambleyası çərçivəsində Türk Dövlətləri Parlament Assambleyasının üzvü olan ölkələrin parlament sədrlərinin birinci qeyri-rəsmi görüşü keçirilib. Bu barədə məlumat verən spiker deyib ki, çıxışında qardaş ölkələrimiz arasında əməkdaşlıq əlaqələrinin həm ikitərəfli, həm də çoxtərəfli formatda uğurla və dinamik inkişaf etdiyini bildirib. Azərbaycan türk dünyasının inteqrasiyası və yüksəlməsi naminə ardıcıl fəaliyyət göstərir. Milli Məclis bundan sonra da TÜRKPA-nın davamlı inkişafını ardıcıl surətdə dəstəkləyəcək.

Səfər çərçivəsində Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin beşinci, əslində yubiley konfransı da keçirilib. Spiker qeyd edib ki, tədbirdə 34 ölkədən 43 nümayəndə heyəti, 9 beynəlxalq təşkilatın təmsilçiləri, ümumən 205 nəfər nümayəndə iştirak edib.

Milli Məclisin Sədri Sahibə Qafarova konfransa sədrlik edib və tədbirin açılışında çıxış edib. Çıxışında bir sıra məsələlərə toxunan spiker Parlament Şəbəkəsinin qısa müddət ərzində keçdiyi böyük inkişaf yoluna nəzər salıb, Azərbaycanın sədrliyi ilə görülən işlərdən danışıb. Milli Məclisin Sədri konfransın əsas mövzusuna uyğun olaraq ölkəmizin evsahibliyi ilə keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun XIII Sessiyası haqqında da məlumat verib. Həmçinin beynəlxalq aləmdə mövcud olan vəziyyət, bu gün bəşəriyyətin qarşısında dayanan çağırışlar və digər məsələlərə toxunub.

Qeyd olunub ki, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin beşinci Konfransında Şəbəkənin mənzil-qərargahının yaradılması və onun Bakı şəhərində yerləşdirilməsi barədə qərar qəbul olunub. Spiker diqqətə çatdırıb ki, bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin xarici siyasət konsepsiyasına uyğun olaraq parlament diplomatiyamızın çox böyük bir uğurudur. Eyni zamanda həmin qərar Parlament Şəbəkəsinin institusional inkişafı yolunda mühüm addımdır.

Milli Məclisin Sədri, İstanbula işgüzar səfər çərçivəsində 10 rəsmi və 3 qeyri-rəsmi görüş keçirib. Parlamentlərarası İttifaqın Prezidenti və baş katibi, həmçinin Belçika, Gürcüstan, Rusiya, Özbəkistan, Ermənistan, Pakistan, Birləşmiş Ərəb Əmirlikləri, Oman, Əlcəzair, Mərakeş, Dominikan parlamentlərinin sədrləri ilə görüşlərdə parlament əməkdaşlığının gücləndirilməsi yolları nəzərdən keçirilib, qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə edilib. Azərbaycan Milli Məclisi ilə Mərakeş Krallığı Parlamentinin Müşavirlər Palatası arasında Anlaşma Memorandumu da imzalanıb.

Spiker Sahibə Qafarova İstanbul şəhərinə işgüzar səfərin uğurlu olduğunu bildirib və nümayəndə heyətinin hər bir üzvünə öz minnətdarlığını ifadə edib.

Sonra iclasda gündəmdə olan bir sıra məsələlər ətrafında müzakirələr aparılıb. Deputatlar Tural Gəncəliyev, Zaur Şükürov, Elçin Mirzəbəyli, Hikmət Məmmədov, Sahib Alıyev, Bəhruz Məhərrəmov, Rizvan Nəbiyev, Vüqar Bayramov, Azay Quliyev, Elman Nəsirov, Erkin Qədirli çıxış edərək öz fikirlərini bölüşüblər. Millət vəkilləri Belçika və Niderlandın Nümayəndələr Palatalarının 2026-cı il aprelin 16-da Azərbaycana qarşı qəbul etdikləri qərəzli, qeyri-obyektiv və reallıqdan uzaq olan, ikili standartları nümayiş etdirən qətnamələri qətiyyətlə pislədiklərini söyləyiblər. Qeyd olunub ki, Azərbaycan Milli Məclisi bu məsələyə öz münasibətini bildirərək, ölkəmizin suveren ərazisinə təhrif edilmiş formada istinad edən, saxta iddialar və əsassız ittihamlar üzərində qurulmuş bu birtərəfli və qərəzli sənədləri kəskin şəkildə qınadığını və onları qətiyyətlə rədd etdiyini vurğulayıb.

Çıxışlarda bildirilib ki, Belçika və Niderland parlamentlərində qəbul edilmiş qətnamələr Azərbaycan-Ermənistan sülh prosesinə ciddi şəkildə xələl gətirən, ölkəmizə qarşı yönəlmiş qərəzli, ədalətsiz sənədlərdir. Hüquqi əsaslara və regiondakı real vəziyyətə söykənməyən bu qətnamələr siyasi manipulyasiya nümunəsi olmaqla yanaşı, beynəlxalq hüququn prinsiplərinə selektiv və riyakar yanaşmanın, siyasi aqressiyanın növbəti təzahürüdür.

Həmçinin qeyd olunub ki, həmin qətnamələrdə regionda müşahidə olunan müsbət proseslər, o cümlədən Azərbaycan tərəfindən atılan humanist addımlar, Ermənistana qarşı məhdudiyyətlərin aradan qaldırılması, Azərbaycandan keçməklə bu ölkəyə göndərilən humanitar yardımlar, bizim Ermənistana göndərdiyimiz neft məhsulları barədə heç bir məlumatın verilməməsi ölkəmizə qarşı olan qərəzli münasibətin daha bir göstəricisidir.

Müzakirələr zamanı Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin irəli sürdüyü təşəbbüslər nəticəsində regionda yeni reallıqların yarandığı, sabitliyin qorunduğu, sülh sazişi istiqamətində ardıcıl addımların atıldığı bildirilib. Bunları nəzərə alaraq, kənardan edilən əsassız və qərəzli müdaxilələrin destruktiv məqsədlərə xidmət etdiyi söylənilib. Deputatlar bu günlərdə keçirilən 5-ci Antalya Diplomatiya Forumunda Azərbaycan Prezidentinin iştirakının, keçirdiyi görüşlərin böyük maraq və rəğbətlə qarşılandığını vurğulayıblar. Bu tədbirin regional və qlobal məsələlərin müzakirəsində önəmli rol oynayan bir platforma olduğunu qeyd ediblər.

Deputatlar Milli Məclisin Sədri Sahibə Qafarovanın rəhbərliyi ilə parlament nümayəndə heyətinin Parlamentlərarası İttifaqın 152-ci Assambleyasında və Qoşulmama Hərəkatı Parlament






Şəbəkəsinin 5-ci Konfransında iştirak etmək üçün Türkiyəyə səfərini, səfər çərçivəsində görülən işləri, keçirilən görüşləri yüksək qiymətləndiriblər. Bu səfərin uğurlu və məhsuldar olduğunu qeyd edərək, ölkə Prezidenti tərəfindən müəyyənləşdirilən strategiyaya uyğun olaraq parlament diplomatiyasının inkişaf etdiyini və ölkənin inkişafına töhfə verdiyini söyləyiblər. Azərbaycan Prezidentinin sülh quruculuğu siyasətində parlamentin fəal iştirak etdiyini vurğulayıblar.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova plenar iclasda 8 məsələnin müzakirəyə çıxarıldığını söyləyib. O, gündəliyin birinci məsələsinin Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci ildə fəaliyyəti haqqında hesabatın olduğunu bildirib. Spiker qeyd edib ki, Hesablama Palatasının hesabatlarının Milli Məclisdə dinlənilməsi ölkəmizdə maliyyə nəzarəti sisteminin mühüm tərkib hissəsini təşkil edir. Hesabatda öz əksini tapan rəy və mülahizələr büdcə siyasətinin formalaşdırılması və dəqiqləşdirilməsi ilə bağlı səmərəli qərarların qəbuluna, maliyyə intizamının möhkəmləndirilməsinə kömək göstərir.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov palatanın 2025-ci ildə fəaliyyəti haqqında hesabatı təqdim edib. Palata sədri Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci ildə fəaliyyətinin yekunlarına dair hesabatın təqdim edilməsi ilə bağlı tələblərin Lima Bəyannaməsində, eyni zamanda "Hesablama Palatası haqqında" qanunda və Milli Məclisin Daxili Nizamnaməsində təsbit edildiyini söyləyib. O, palatanın qanunla müəyyən edilmiş 23 vəzifəsi barədə məlumatın hesabatda dolğun şəkildə şərh olunduğunu qeyd edərək, 4 istiqamətdə görülmüş işlər barədə söhbət açıb.

Vüqar Gülməmmədov son ili 2025-ci ilə təsadüf edən strateji planın 5 illik icrasına dair əsas göstəricilərin hesabata daxil edildiyini deyərək, məqsədin son 5 ildə ölkənin iqtisadi inkişafı və vətəndaşların rifah səviyyəsi üçün əhəmiyyətli hesab olunan sahələrdə keçirilən dövlət auditinin hesabatlılığını təmin etmək olduğunu söyləyib. O, qeyd edib ki, 2021-2025-ci illər üzrə strateji planın icrası beynəlxalq təcrübəyə uyğun olaraq illik əməliyyat planları vasitəsilə həyata keçirilib, bu illər ərzində 5 əməliyyat planı tərtib edilib. Bildirilib ki, strateji planın qüvvədə olduğu əksər illər üzrə əməliyyat planlarının icrası təxminən 90 faizdən, Monitorinq Çərçivəsinin göstəricilərinin ümumi icrası 80 faizdən çox olub. Müvafiq istiqamətə ayrılmış büdcənin icra səviyyəsi isə 80 faizdən bir qədər çox olub. Strateji planda müəyyən edilmiş 2 yekun və 9 aralıq nəticə üzrə əhəmiyyətli irəliləyiş əldə edilib, hədəflərin əksəriyyətinə nail olunub.

Sonra palata sədri hesabat ilində görülmüş işləri və onların nəticəliliyi barədə məlumatları kənar dövlət maliyyə nəzarəti aspektindən təqdim edib. Nəzərə çatdırılıb ki, 2025-ci ildə audit və analitik fəaliyyət formasında 48 nəzarət tədbirinin keçirilməsi ilə bağlı qərar qəbul olunub, bunlardan birinin nəticələrinin rəsmiləşdirilməsi növbəti ilə keçirilib. Audit portfelinin 47,9 faizində audit və ya analitik fəaliyyət ilk dəfə və ya fərqli mövzu üzərindən olmaqla keçirilib. Auditlərin əhatə dairəsinin əsas hissəsini icmal büdcənin müxtəlif elementləri təşkil edib. Müxtəlif illər üzrə dövlət büdcəsinin 6,7 milyard manatı, 2023-cü il üzrə Dövlət Neft Fondunun, 2023-2024-cü illər üzrə İcbari Tibbi Sığorta Fondunun büdcələri tam şəkildə, 2023-2025-ci illər üzrə Naxçıvan Muxtar Respublikasının büdcəsinin 101,3 milyon manatı, eləcə də qeyri-büdcə vəsaitlərindən 130,1 milyon manat dövlət auditi ilə əhatə edilib. 2025-ci ilin iş planının tərtibi zamanı müvafiq icra hakimiyyəti orqanının təklifləri, Milli Məclisin deputatları tərəfindən səsləndirilən fikirlər, COP29, mediada işıqlandırılan məlumatlar, palatanın rəsmi internet səhifəsindəki "Audit təklif et" bölməsi vasitəsilə daxil olmuş vətəndaş müraciətləri və digər məsələlər diqqətdə saxlanılıb. Bununla yanaşı, auditlərdə işğaldan azad olunmuş ərazilərin bərpası və yenidən qurulması işlərinə, müxtəlif sahələr üzrə aktual mövzulara, o cümlədən ölkəmizdə keçirilən beynəlxalq tədbirlərə münasibət bildirilib. Qeyd olunub ki, hesabat dövründə 3 audit məxfilik rejimində keçirilib.

Palata sədri bildirib ki, 2025-ci ilin iş planına əsasən, 43 audit keçirilib. 6 auditdə informasiya sistemlərinin auditinin bəzi elementlərindən istifadə olunub. Bu nəzarət tədbirləri ilə aşkarlanmış nöqsanların təsnifatı hesabatda ətraflı təsvir edilib, təsnifləşdirmə uyğunluq, maliyyə və səmərəlilik aspektindən həyata keçirilib. Nöqsan təsnifatı üzrə təhlillərin nəticələri göstərir ki, say ifadəsində büdcə qanunvericiliyi, dövlət satınalmaları və dövlət investisiyaları sahəsində pozuntu nisbəti ciddi dəyişməyib.

Büdcə qanunvericiliyi üzrə nöqsanlara dair bildirilib ki, 36 nəzarət tədbirində büdcə vəsaitlərinin idarəedilməsi üzrə nöqsanlar aşkarlanıb. Hesablama Palatasının da tövsiyələri nəzərə alınmaqla müvafiq icra orqanları tərəfindən fiskal qanunvericiliyin davamlı təkmilləşdirilməsi və rəqəmsal həllərin tətbiqi ilə cari nəzarətin gücləndirilməsi bu halların 2025-ci ildən başlayaraq nisbətən azaldığını müşahidə etməyə imkan verir.

Qeyd olunub ki, 2025-ci ilin iş planı üzrə 32 auditdə dövlət satınalmalarını tənzimləyən hüquqi aktların tələblərinin pozulması hallarına rast gəlinib. Təqdim edilmiş məlumata əsasən, 2025-ci ildə 10,8 milyard manat məbləğində 19 min satınalma həyata keçirilib. Ümumilikdə, 2025-ci ilin auditləri müxtəlif illər ilə 3560 satınalmanı və 3,8 milyard manatı əhatə edib. Bildirilib ki, 2024-cü il yanvarın 1-dən "Dövlət satınalmaları haqqında" yeni qanunun qüvvəyə minməsi bu sahədə dövlət siyasətini həyata keçirən qurumun cari nəzarətinin formalaşmasına səbəb olub. Son illərdə dövlət satınalmaları sahəsində şəffaflığın artırılması və inzibatçılığın gücləndirilməsi sahəsində bir sıra islahatlar həyata keçirilib, satınalma mədəniyyəti formalaşmağa başlayıb. Həmçinin, elektron satınalmaların həcmində də əhəmiyyətli dəyişikliklərin olduğu söylənilib.

Vüqar Gülməmmədov qeyd edib ki, yüksək xüsusi çəki ilə fərqlənən digər nöqsan qrupu əsaslı xərclərdir. Bu sahə ilə bağlı nöqsanlara 15 nəzarət tədbirində rast gəlinib. 12 sifarişçi üzrə 42 layihə və 132 müqavilənin auditi həyata keçirilib. Palata sədri deyib ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya"sına uyğun olaraq dövlət investisiya layihələrinin idarə edilməsində səmərəliliyin yüksəldilməsi məqsədilə yeni qaydanın qəbul edilməsi, dövlət investisiya layihələrinin icrasına monitorinq sisteminin yaradılması və cari ildən tətbiqi dövlət investisiyalarının səmərəliliyinin artmasına səbəb olacaq.

Hesabatda pozuntuların məbləğ ifadəsində əsas göstəricilərinin də əks olunduğunu deyən palata sədri nəzərə çatdırıb ki, 2025-ci ilin iş planı çərçivəsində KDMN tədbirləri ilə ümumilikdə 1554 milyon manat məbləğində nöqsan aşkarlanıb. Bu məbləğin 37,6 faizi və ya 584,8 milyon manatı uyğunsuzluq məbləğidir. Ümumi nöqsanın 40,3 faizi və ya 626,3 milyon manatı maliyyə təhriflərindən ibarətdir. 22,1 faizi və ya 342,9 milyon manatı isə səmərəsiz xərclərdən ibarət olub.

Eyni zamanda qeyd edilib ki, hesabat dövründə keçirilmiş auditlərdə bir neçə dövlət proqramının icrası vəziyyəti ilə bağlı məqamlara da baxılıb. Müəyyən edilib ki, bir sıra dövlət qurumları öz əsasnamələri ilə müəyyənləşdirilən vəzifələri dövlət proqramının tədbirlər planına daxil edib, tədbirlər müəyyən edilən zaman çərçivəsində və ya ümumiyyətlə icra edilməyib, bəzi hallarda isə aşağı keyfiyyətlə icra edilib, proqramın icrasında gecikmələrə yol verilib.

Bildirilib ki, başa çatdırılmış maliyyə və uyğunluq auditləri üzrə aşkarlanmış nöqsanlar və onların yayılma dərəcəsindən asılı olaraq, verilmiş rəylər üç növdə olub. Rəylərin 76 faizini müsbət və şərti müsbət rəylər təşkil edib. Hesablama Palatası, həmçinin aşkarlanmış nöqsanların aradan qaldırılması üçün birbaşa audit obyektinə tövsiyələr təqdim edir.

2025-ci ilin iş planı çərçivəsində nəzarət tədbirlərinin yekunlaşması ilə bağlı 47 kollegiya qərarı qəbul edilib, 303 tədbir müəyyən olunub. Aparılan təhlillər 2 və daha çox sayda audit keçirilmiş obyektlərin 75 faizində Hesablama Palatasının əvvəlki təklif və tövsiyələrinin nəzərə alınması ilə müvafiq obyektlərin maliyyə fəaliyyətlərində intizamın nisbətən gücləndiyini, nöqsanların növlərinin və saylarının, eləcə də onların maliyyə yükünün davamlı şəkildə azaldığını, dövlət vəsaitlərinə qənaət edilməsi hallarının artdığını göstərir.

Sonra Hesablama Palatasının sədri dövlət maliyyəsinin idarəedilməsində, o cümlədən büdcə prosesində iştirakla bağlı görülən işlərdən danışıb. O deyib ki, 2025-ci ildə dövlət büdcəsinin və büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələri və icrası üzrə Hesablama Palatası tərəfindən 6 rəy hazırlanaraq aidiyyəti üzrə təqdim edilib. Rəylərin tərtibi zamanı yerli qanunvericilik, beynəlxalq standartlar, nüfuzlu fiskal diaqnostika alətlərinin tələbləri diqqətdə saxlanılıb, dövlət maliyyəsi üçün risklər və uyğunsuzluqlar göstərilməklə onların aradan qaldırılması yollarını ehtiva edən tövsiyələr yer alıb.

Palata sədri rəqəmsal audit sistemi barədə, habelə 2026-2030-cu illəri əhatə edən strateji plana uyğun olaraq 2026-cı il üçün müəyyənləşdirilən əsas vəzifələr haqqında da məlumatları təqdim edib. O, Hesablama Palatasının ölkə Prezidentinin tapşırıqlarını rəhbər tutaraq, qanunvericiliklə müəyyən edilmiş vəzifələrin tam və effektiv icrası istiqamətində səylərini davam etdirəcəyini söyləyib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov Hesablama Palatasının 2025-ci ildə fəaliyyəti haqqında hesabatı barədə komitənin rəyini açıqlayaraq, sənədin qanunvericiliklə müəyyən edilmiş qaydada və müddətdə, beynəlxalq audit standartlarına və prinsplərinə uyğun olaraq Milli Məclisə təqdim edildiyini deyib. Komitə sədri vurğulayıb ki, büdcə şəffaflığı və hesabatlılığı, dövlət maliyyəsinin idarə edilməsi sahəsində institusional islahatların yeni çağırışlara uyğun olaraq aparılması büdcə nəzarəti sahəsində Prezident İlham Əliyev tərəfindən müəyyən edilmiş dövlət siyasətidir. Ali maliyyə nəzarəti orqanı olaraq Hesablama Palatasının fəaliyyəti də məhz bu siyasətin reallaşdırılmasına xidmət edir. Qeyd olunub ki, Hesablama Palatası qanunverici orqana hesabat verən kənar dövlət maliyyə nəzarəti qurumu olmaqla, parlamentarizmin ayrılmaz tərkib hissəsidir.

Bildirilib ki, Milli Məclis dövlət büdcəsi layihələrinə baxarkən palatanın rəy və tövsiyələrini nəzərə alır. Parlamentin büdcə nəzarəti sahəsində mandatının tam həyata keçirilməsi palatanın fəaliyyətindən, palatanın effektiv maliyyə nəzarəti isə Milli Məclisin büdcə nəzarəti üzrə mandatının reallaşdırılmasından asılıdır. Hesabatda palatanın fəaliyyət nəticələri ilə yanaşı, büdcə vəsaitlərindən istifadə, dövlət satınalmalarının və dövlət investisiya proqramlarının həyata keçirilməsi sahəsində mövcud vəziyyətin əks olunduğu söylənilib. Qeyd olunub ki, parlamentdə mart ayında Nazirlər Kabinetinin ötən ildəki fəaliyyətinə dair hesabat dinlənilib, növbəti ayda isə 2025-cü ilin dövlət büdcəsinin icrası müzakirə olunacaq. Beləliklə, hər üç hesabat arasında sıx əlaqə var və onlar bir-birini tamamlayaraq dövlət maliyyəsinə sistemli nəzarət etmək üçün imkan yaradır.

Azər Əmiraslanov qeyd edib ki, hesabatın təhlilinə əsasən, palata 2025-ci ildə qanunvericiliklə müəyyən edilmiş funksiyalarını yerinə yetirmiş, audit əhatəsini genişləndirmiş və büdcə prosesində institusional rolunu qoruyub saxlamışdır.

Azər Əmiraslanov vurğulayıb ki, Hesablama Palatasının 2025-ci ildəki fəaliyyəti dövlət maliyyə nəzarətinin gücləndirilməsinə, büdcə prosesində şəffaflığın və hesabatlılığın artırılmasına, eləcə də dövlət vəsaitlərinin daha səmərəli istifadəsinə mühüm töhfə verir. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi təqdim edilən hesabatla bağlı müsbət rəyini ifadə etməklə, onun Milli Məclis tərəfindən nəzərə alınmasını məqsədəuyğun hesab edir.

Hesabatla bağlı müzakirələrdə çıxış edən parlamentin komitə sədri Zahid Oruc, Siyavuş Novruzov, Hicran Hüseynova, Sadiq Qurbanov, deputatlar Vüqar Bayramov, Razi Nurullayev, Əli Məsimli, Bəhruz Məhərrəmov, Pərvanə Vəliyeva, Rövşən Muradov, Müşfiq Cəfərov, Aydın Hüseynov, Qüdrət Həsənquliyev fikirlərini, qeyd və təkliflərini bildiriblər.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək, büdcədənkənar dövlət fondlarının büdcələrinin layihələrinə və icrasına rəylərin verilməsi ilə bağlı görülən işlərə toxunub, palatanın auditin strateji tərəfdaşlıq və dəyəryaratma komponentlərini özündə birləşdirən müasir modelinə doğru irəlilədiyini deyib. O, qarşıdakı dövr üçün qəbul edilmiş 2026-2030-cu illəri əhatə edən strateji planın əsas qayəsinin dövlət auditində daha çox yüksək texnologiyalardan istifadə edilməsi olduğunu söyləyib.

İclasda Milli Məclisin Sədri Sahibə Qafarova profil komitənin Hesablama Palatasının hesabatına müsbət rəy verdiyini bildirib.

Azərbaycan Respublikası Hesablama Palatasının 2025-ci ildə fəaliyyəti haqqında hesabatı səsə qoyularaq nəzərə alınıb.

İclasda Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri üçüncü oxunuşda qəbul olunub.

Daha sonra Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Dövlət icra məmurları haqqında", "İcra haqqında" və "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Bildirilib ki, layihədə qanunvericiliyin tələblərinə və normayaratma texnikasının qaydalarına uyğun olaraq "Dövlət icra məmurları haqqında", "İcra haqqında" və "Daşınar əmlakın yüklülüyü haqqında" qanunlarda bəzi ifadələrin dəqiqləşdirilməsi, müvafiq normaların uyğunlaşdırılması və bir sıra texniki xarakterli dəyişikliklərin edilməsi nəzərdə tutulur.

Məsələ ilə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin müsbət rəyi səsləndiriləndən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

İclasda Azərbaycan Respublikasının Əmək Məcəlləsində və "Narkoloji xidmət və nəzarət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində və "Terrorçuluğa qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə və Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Təhsil haqqında" və "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələri ikinci oxunuşda qəbul olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Gender bərabərliyi Azərbaycanda dövlət siyasətinin ən vacib istiqamətlərindən biridir



Aprelin 21-də Özbəkistan Respublikası Ali Məclisi Senatının təşkilatçılığı ilə "Mərkəzi Asiya Qadınları: Prioritet vəzifələr və birgə fəaliyyət" mövzusunda Mərkəzi Asiya dövlətlərinin qadın liderləri dialoqunun onlayn konfransı keçirilib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, konfransda çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova bu konfransın Mərkəzi Asiyada qadınların rolunun gücləndirilməsi və əməkdaşlığın inkişaf etdirilməsinə xidmət göstərdiyini bildirib. Onun sözlərinə görə, Mərkəzi Asiya dövlətlərinin qadın liderləri dialoqu platforması nisbətən qısa müddət ərzində regional qarşılıqlı fəaliyyətin tələb olunan və effektiv formatı kimi özünü təsdiq edib. Bu dialoq etimadın möhkəmlənməsinə, dövlətlərarası və parlamentlərarası əlaqələrin inkişafına, habelə qadınların ictimai-siyasi və sosial-iqtisadi həyatda rolunun genişləndirilməsi ilə bağlı aktual məsələlərin həllində əlaqələndirilmiş yanaşmaların formalaşmasına töhfə verir. Qeyd olunub ki, bugünkü görüş bu mühüm təşəbbüsün davamlılığını təmin etməklə yanaşı, həm də parlamentlərarası əməkdaşlığın daha da dərinləşdirilməsi və qarşıda duran vəzifələrin həlli üçün birgə yanaşmaların hazırlanmasına sadiqliyi təsdiqləyir.

Çıxışında bu gün Mərkəzi Asiyanın inkişaf və regional əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində davamlı dinamika nümayiş etdirdiyini və bu proseslərdə qadınların rolunun nəzərəçarpacaq dərəcədə gücləndiyini söyləyən spiker Sahibə Qafarova, bu kontekstdə qadınların ictimai-siyasi həyatda iştirakının genişləndirilməsi və qadın liderliyinin gücləndirilməsi məsələlərinin regional və regionlararası gündəliyin tərkib hissəsi olduğunu vurğulayıb. O, Azərbaycanın da bu gündəlikdə fəal iştirak etdiyini diqqətə çatdırıb.

Konfransda Azərbaycanın qadın hüquqlarının təşviqində əldə etdiyi uğurlardan bəhs edən Milli Məclisin Sədri deyib ki, ölkəmizdə qadınlar cəmiyyətin ayrılmaz hissəsidir və onun inkişafına həlledici təsir göstərir. Qeyd olunub ki, qadınların siyasi, sosial, iqtisadi və mədəni həyata böyük töhfəsi ölkəmizdə qadın hüquqlarına yanaşmanın mahiyyətini əks etdirir.

Spiker Sahibə Qafarova bildirib ki, bu gün qadın hüquqlarının təmin edilməsi və gender bərabərliyi Azərbaycan Respublikasının dövlət siyasətinin ən vacib istiqamətlərindən biridir. Azərbaycan qadınlarının fəaliyyətin bütün sahələrində aktiv iştirak etdiyi, qanunverici və icra hakimiyyətində, məhkəmə sistemində, diplomatik xidmətdə, elm və təhsil sahələrində yüksək vəzifələr tutduğunu qeyd edən Sahibə Qafarova xüsusilə, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanın Əliyevanın həyata keçirdiyi genişmiqyaslı ictimai və siyasi fəaliyyətin qadınların cəmiyyətimizin və ölkəmizin inkişafına verdiyi dəyərli töhfənin təcəssümü olduğunu vurğulayıb.

Çıxışda həmçinin məlumat verilib ki, Azərbaycanda qadın hüquq və azadlıqlarının təmin edilməsi, gender bərabərliyinin təşviqi üçün dövlət və parlament səviyyəsində ardıcıl tədbirlər həyata keçirilir, qanunvericilik bazası təkmilləşdirilir və müvafiq qanunlar qəbul edilir. Son 5 ildə parlamentdə gender bərabərliyi, ailə, qadın və uşaq hüquqlarının müdafiəsi məsələlərinə həsr olunmuş 57 qanun layihəsinə baxılıb və 20 ictimai dinləmə keçirilib. Eyni zamanda Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq konvensiyalardan irəli gələn öhdəliklər qanunvericilik aktlarına daxil edilib. Spiker Sahibə Qafarovanın sözlərinə görə, bu sahədə Milli Fəaliyyət Planları, prezident fərmanları, dövlət proqramları qadınların hüquq və imkanlarının genişləndirilməsi sahəsində mühüm nəticələr verən kompleks yanaşmanı nəzərdə tutur.

Ölkəmizin bu sahədə beynəlxalq əməkdaşlığa da xüsusi diqqət yetirdiyini söyləyən Milli Məclisin Sədri bildirib ki, Azərbaycan gender bərabərliyi sahəsində fəaliyyət göstərən müxtəlif parlamentlərarası təşkilatların və onların orqanlarının işində fəal iştirak edir, qabaqcıl təcrübə mübadiləsinə və aktual vəzifələrin həlli üçün əlaqələndirilmiş yanaşmaların hazırlanmasına töhfə verir. O, qadın parlamentarilərin təmsil olunduğu beynəlxalq təşkilatlar və tədbirlər barədə də konfrans iştirakçılarını məlumatlandırıb.

Spiker Sahibə Qafarova Azərbaycanın qadın hüquqları sahəsində regional əməkdaşlığa da böyük əhəmiyyət verdiyini qeyd edərək, Mərkəzi Asiya qadınlarının dialoqunun parlament diplomatiyasının və qadın liderliyinin necə etimad, təcrübə mübadiləsi və birgə təşəbbüslər məkanı formalaşdıra biləcəyinin nümunəsi olduğunu söyləyib. Onun sözlərinə görə, Azərbaycan bu proseslərdə fəal iştirak etməyə, öz təcrübəsini bölüşməyə və qadınların siyasətdə, iqtisadiyyatda və cəmiyyətdə rolunun artırılmasına yönəlmiş proqramları dəstəkləməyə hazırdır. Milli Məclisin Sədri deyib ki, Mərkəzi Asiya dövlətlərinin qadın liderləri dialoqu çərçivəsində gələcək əməkdaşlığın prioritet istiqamətləri müəyyən edilərkən, bu sahədə parlamentlərarası qarşılıqlı fəaliyyətin gücləndirilməsinə yönəlmiş birgə təşəbbüslərin və layihələrin həyata keçirilməsi məqsədəuyğun görünür. O, bu baxımdan, gender siyasəti məsələləri üzrə ekspert və işçi qrupları formatında, parlamentlərin müvafiq komitələrinin cəlb edilməsi ilə qarşılıqlı fəaliyyətin inkişaf etdirilməsinin mümkün olduğunu deyib və əlavə edib ki, bu təşəbbüslərin həyata keçirilməsi əməkdaşlığımıza əlavə təkan verəcək və onun praktiki yönümlü olmasını təmin edəcək. Spiker inamını bildirib ki, bugünkü konfrans region qadınlarının həyatında əməkdaşlığın möhkəmləndirilməsi, təcrübə mübadiləsi və real dəyişikliklərin təşviqi yolunda növbəti addım olacaq.

Konfransda Özbəkistan Respublikası Ali Məclisinin Senatının Sədri Tənzilə Narbayeva, BMT Baş katibinin Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi və Mərkəzi Asiya üçün Preventiv Diplomatiya üzrə BMT Regional Mərkəzinin rəhbəri Kaha İmnadze, Türkmənistan Məclisinin Sədri Dünyagözəl Qulmanova, Qırğızıstan Joqorku Keneşinin Sədr müavini Jıldız Taalaybek qızı, Tacikistan Respublikası Ali Məclisi Nümayəndələr Palatasının Sədr müavini Mövsuma Muini, Qazaxıstan Respublikası Parlamenti Senatının Qanunvericilik və məhkəmə-hüquq islahatı komitəsinin sədri Snejanna İmaşeva və digərləri çıxış edərək, qadın liderlərin rolunun gücləndirilməsi istiqamətində milli təcrübələr və ölkələrində bu sahədə görülən işlər haqqında məlumat verib, müzakirə olunan mövzu haqqında fikir və təkliflərini səsləndiriblər.

*"Azərbaycan"*

# Azərbaycan və İrlandiya parlamentləri arasında daha sıx əlaqələrin qurulması üçün imkanlar mövcuddur

Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan İrlandiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Toni MakKormakın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, söhbət zamanı özünün İrlandiyaya səfəri və keçirdiyi görüşləri, o cümlədən, ötən ilin iyul ayında İrlandiya parlamentinin spikeri Verona Mörfi ilə görüşünü məmnunluqla xatırlayan spiker Sahibə Qafarova bu cür təmaslar zamanı parlamentlərimiz arasında əlaqələrin inkişaf etdirilməsi ilə bağlı razılığa gəlindiyini söyləyib. O, bu səfərin də parlamentlərarası əlaqələrin daha da inkişafına təkan verəcəyinə inamını ifadə edib. Tərəflər həmçinin beynəlxalq parlament təşkilatlarında birgə fəaliyyətin əhəmiyyətini qeyd ediblər.

Səfərə dəvətə və göstərilən yüksəksəviyyəli qonaqpərvərliyə görə təşəkkürünü bildirən Toni MakKormak spiker Verona Mörfinin salamlarını Milli Məclis Sədrinə çatdırıb. Qeyd olunub ki, parlamentlərimiz arasında daha sıx əlaqələrin qurulması üçün imkanlar mövcuddur. O, bu cür səfər və təmasların da bu məqsədə xidmət etdiyini söyləyib.

Milli Məclisin Sədri qonaqlara həmçinin, Azərbaycanın demokratik inkişafı və əldə olunan nailiyyətlər, o cümlədən, qanunverici orqanın işi, parlamentin beynəlxalq fəaliyyəti haqqında məlumat verib. Vurğulanıb ki, Azərbaycanın müstəqil xarici siyasəti parlamentin də bu sahədə fəaliyyəti üçün əlverişli imkanlar yaradır. Ölkəmizdə çoxsaylı beynəlxalq tədbirlərin keçirildiyini bildirən spiker Sahibə Qafarova deyib ki, bu kimi beynəlxalq tədbirlərdə Azərbaycan özünün dünyaya baxışlarını da təqdim edir.

Söhbət zamanı Azərbaycan-Ermənistan normallaşma və sülh prosesi haqqında da fikir mübadiləsi aparılıb, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər nəzərdən keçirilib.

*"Azərbaycan"*

# Daxili İşlər Nazirliyində kollegiya iclası keçirilib

Aprelin 21-də Daxili İşlər Nazirliyində onlayn formatda kollegiya iclası keçirilib.




Mülkiyyət əleyhinə olan cinayətlərin qarşısının alınması və açılması, mühafizə-siqnalizasiya vasitələrinin tətbiqi sahəsində həyata keçirilən tədbirlər və bayır xidmətinin təşkilinin vəziyyətinə həsr olunmuş iclası giriş sözü ilə açan daxili işlər naziri, general-polkovnik Vilayət Eyvazov bildirib ki, ictimai asayişin və təhlükəsizliyin qorunması sahəsində fəaliyyət digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı əlaqədə 2026-cı ilin birinci rübündə də məqsədyönlü şəkildə davam etdirilib. Cinayətlərin qarşısının alınması, açılması, istintaqı, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində həyata keçirilən kompleks tədbirlər müsbət nəticələr verib, kriminogen durum nəzarətdə saxlanılıb.

Qeyd olunub ki, cari ilin 3 ayında əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə qeydə alınmış 7738 cinayətin 85,9 faizinin açılması təmin olunub. Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış cinayətlərin 90,1 faizi açılıb. 2025-ci ilin eyni dövrü ilə müqayisədə cinayətlərin dinamikasında 4,9 faiz azalma baş verib. Qeyri-aşkar şəraitdə baş verən cinayətlərin, mülkiyyət əleyhinə olanların, o cümlədən oğurluqların açılması yaxşılaşıb, qəsdən adam öldürmə və ona cəhdlərin, cibgirliklərin, quldurluqların, avtonəqliyyat vasitəsini qaçırmaların açılması tam təmin olunub. Qeyri-leqal dövriyyədən 2 ton 310 kiloqram, ötən ilin analoji dövrü ilə müqayisədə isə 648 kiloqram çox narkotik vasitə çıxarılıb.

Ağır, xüsusilə ağır və qrup halında cinayətlərin, şəxsiyyət əleyhinə olanların, adam öldürməyə cəhdlərin, mülkiyyət əleyhinə olanların, onlardan oğurluqların, dələduzluqların, soyğunçuluqların, quldurluqların, avtonəqliyyat vasitəsini qaçırmaların, informasiya texnologiyalarından istifadə edilməklə törədilənlərin, əvvəllər məhkum olunmuşlar, yetkinlik yaşına çatmayanlar tərəfindən və ailə münaqişəsi zəminində törədilən cinayətlərin sayı azalıb, eyni zamanda yol-nəqliyyat hadisələrinin sayı 15 fakt, qəzalarda ölənlərin sayı 9 nəfər, xəsarət alanların sayı 44 nəfər az olub.

Daha sonra gündəlikdəki məsələlərlə bağlı nazirliyin Baş idarə, idarə və ərazi polis orqanlarının rəislərinin görülmüş işlər, əldə olunmuş nəticələr, mövcud nöqsan və çatışmazlıqlar və onların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlər barədə çıxışları dinlənilib.

İclasa yekun vuran daxili işlər naziri V.Eyvazov gündəlikdəki məsələlər üzrə görülən işlərin bütövlükdə qənaətbəxş olduğunu, bəzi ərazi orqanlarının fəaliyyətində müəyyən nöqsan və çatışmazlıqların mövcudluğunu qeyd edərək onların aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsini, xüsusən yetkinlik yaşına çatmayanların hüquqazidd əməllərdən çəkindirilməsi üçün profilaktik işin gücləndirilməsini, onların sosial şəbəkələrin zərərli təsirlərindən qorunması məqsədilə aidiyyəti dövlət qurumları və vətəndaş cəmiyyəti institutları ilə birgə maarifləndirmə tədbirlərinin daha məqsədyönlü şəkildə davam etdirilməsini tələb edib. Eyni zamanda əməliyyat-xidməti fəaliyyətin bir sıra vacib istiqamətləri və aktual məsələləri üzrə konkret tapşırıq və tövsiyələrini verib.

*"Azərbaycan"*

# İrlandiya nümayəndə heyəti ilə görüş

Aprelin 21-də Milli Məclisin İrlandiya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupu üzvlərinin İrlandiya parlamentinin Azərbaycanla dostluq qrupunun üzvləri ilə görüşü olub.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Azərbaycan-İrlandiya parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Erkin Qədirli qonaqların ölkəmizə ilk səfərindən məmnunluğunu ifadə edib. O bildirib ki, dövlətlərimiz arasında mövcud münasibətlər fonunda parlamentlərarası əlaqələr də dinamik şəkildə inkişaf edir. Qeyd olunub ki, hər iki ölkənin parlamentarilərinin qarşılıqlı səfərləri siyasi dialoqun dərinləşməsinə və əlaqələrimizin möhkəmlənməsinə mühüm töhfə verir.

Öz növbəsində, İrlandiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Toni MakKormak tərəflər arasında keçirilmiş onlayn görüşü xatırlayaraq, bu kimi təmasların intensivliyinin münasibətlərin inkişafına müsbət təsir göstərdiyini vurğulayıb. O, gələcəkdə parlamentlərarası əməkdaşlığın daha da dərinləşəcəyinə, qarşılıqlı səfərlərin intensiv xarakter alacağına və müxtəlif sahələr üzrə təcrübə mübadiləsinin genişlənəcəyinə əminliyini ifadə edib.

Görüşdə iştirak edən İrlandiya ilə parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun üzvü Sevinc Fətəliyeva, İrlandiya Parlamentinin Mübarək Cümə Sazişi Komissiyasının sədri, Azərbaycan ilə parlamentlərarası dostluq qrupunun üzvü Kormak Devlin, Azərbaycanın Dublindəki fəxri konsulu Terri Leyden çıxış edərək parlamentlərarası münasibətlərin mövcud vəziyyəti və inkişaf perspektivləri barədə fikirlərini bölüşüblər, turizm, ticarət, təhsil sahələrində əməkdaşlığın genişləndirilməsi imkanlarından bəhs ediblər.

*"Azərbaycan"*

# İrlandiya parlament nümayəndə heyəti Bakıda Zəfər abidəsini ziyarət edib

Ölkəmizdə səfərdə olan İrlandiya-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Toni Mak Kormakın başçılıq etdiyi İrlandiya parlament nümayəndə heyəti aprelin 21-də Bakıda Zəfər parkında olub.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, nümayəndə heyətinin üzvləri Zəfər parkını ziyarət edərək Zəfər abidəsi önünə güllər qoyublar. Qonaqlara Azərbaycan xalqının Vətən müharibəsində qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə məlumat verilib.

Qonaqları Azərbaycan-İrlandiya parlamentlərarası əlaqələr üzrə İşçi qrupunun rəhbəri Erkin Qədirli müşayiət edib.

*"Azərbaycan"*



# Azərbaycanın xarici siyasətinin uğurları

## Bakı qlobal diplomatiyanın yeni paytaxtıdır



**Azərbaycanın müasir xarici siyasət strategiyası Prezident İlham Əliyevin uzaqgörən və milli maraqlara söykənən rəhbərliyi sayəsində keyfiyyətcə yeni və daha mütərəqqi bir mərhələyə yüksəlib.**

Bu gün Azərbaycan yalnız regionun aparıcı dövləti deyil, həm də qlobal miqyasda sülhün, multikulturalizmin və dayanıqlı inkişafın əsas strateji mərkəzlərindən biri kimi qəbul edilir. Rəsmi Bakı Cənubi Qafqazda başlatdığı sülh erası ilə həm də ədalətə və beynəlxalq hüquqa söykənən yeni dünya nizamının formalaşmasına əhəmiyyətli töhfələr verir.

Ölkəmiz müxtəlif coğrafiyaları, sivilizasiyaları və ideologiyaları ortaq bir məqsəd ətrafında birləşdirən diplomatik qovşaq statusunu beynəlxalq qurumlara rəhbərlik etdiyi dönəmlərdə daha da möhkəmləndirir. Təsadüfi deyil ki, Bakı bu gün beynəlxalq siyasətin formalaşdırıldığı və strateji qərarların qəbul olunduğu qlobal paytaxt rolunu oynayır.

Azərbaycanın növbəti bir il ərzində BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasına (UNESCAP) sədrliyi də ölkəmizə beynəlxalq etimadın göstəricisidir.

## Azərbaycanın növbəti bir il ərzində UNESCAP-a sədrliyi də bunun təsdiqidir

### Dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə sadiqlik

Azərbaycan diplomatiyası cari il aprelin 20-də növbəti tarixi uğuruna imza atdı. Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovun Banqkokda keçirilən BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının 82-ci sessiyasının sədri seçilməsi ölkəmizə olan ali qlobal etimadı özündə əks etdirdi. Növbəti bir il ərzində Azərbaycan bu mötəbər platformaya rəhbərlik edərək, regionun iqtisadi və sosial inkişaf strategiyasını istiqamətləndirəcək.

Prezident İlham Əliyev sessiyanın iştirakçılarına ünvanladığı müraciətdə vurğulayıb ki, BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyası dayanıqlı inkişafın irəliləməsi, eləcə də regional bağlantıların, ticarətin və iqtisadi əməkdaşlığın asanlaşdırılmasında olduqca mühüm rol oynayan BMT-nin ən geniş və təsirli regional platformalarından biri olaraq qalır: "Biz xüsusən də multilateralizmin gücləndirilməsinə ehtiyac duyulduğu vaxtda bu mühüm işə töhfə verməkdən məmnunuq".

Dövlətimizin rəhbəri qeyd edib ki, bu görüş artan qlobal qeyri-müəyyənlik dövründə baş tutur: "Yüksələn geosiyasi gərginlik və genişlənən münaqişələr beynəlxalq sülh və təhlükəsizliyin həssaslığını, o cümlədən onilliklər ərzində əldə olunmuş inkişaf nailiyyətlərinin kövrəkliyini üzə çıxarır. Bu xüsusda Azərbaycan dövlətlərin suverenliyi və ərazi bütövlüyü prinsiplərinə özünün sarsılmaz sadiqliyini bir daha vurğulayır".

BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasına sədrliyin Azərbaycana həvalə olunması ölkəmizə göstərilən yüksək etimadın, Azərbaycanın beynəlxalq müstəvidə artan nüfuzunun qlobal və regional proseslərdə fəal iştirakının bariz təzahürüdür.

XİN başçısı Ceyhun Bayramov sessiyanın sədri qismində çıxış edərək Azərbaycanın inklüziv inkişaf, rəqəmsal transformasiya, "yaşıl enerji", regional əlaqəlilik və çoxtərəfli əməkdaşlıq sahələrində prioritetlərini təqdim edib.

Nəqliyyat, ticarət və logistika əlaqələri inklüziv inkişafın mühüm vasitəsi kimi qiymətləndirilib. Azərbaycanın Avropa və Asiyanın kəsişməsində yerləşən strateji mövqeyi vurğulanaraq Orta dəhlizin regional əməkdaşlıq və dayanıqlılıqda roluna diqqət çəkilib.

C.Bayramovun çıxışında bölgəmizdə sülh quruculuğu səylərinin, Cənub-Cənub əməkdaşlığı və çoxtərəfli diplomatiyanın önəmi qeyd olunub.

### COP29-dan AQEM-ə

Ölkəmizin beynəlxalq platformalardakı fəallığı sistemli xarakter daşıyır. 2024-2026-cı illər üzrə Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) sədrlik, Türk Dövlətləri Təşkilatında aparıcı rol, Qoşulmama Hərəkatına rəhbərlik dövründə "peyvənd millətçiliyi"nə qarşı göstərilən qətiyyətli mövqe Azərbaycanın beynəlxalq aləmdəki çəkisini və nüfuzunu daha da artırıb. Həmçinin, BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi terrorizmlə mübarizə və hüququn aliliyi sahəsindəki fəaliyyətimiz diplomatiya tariximizin şanlı səhifələridir. Ölkəmiz 2014-cü ildə Avropa Şurası Nazirlər Komitəsinə altıaylıq sədrlik dövründə də Avropanın hüquqi və humanitar məkanında mühüm gündəlik formalaşdırdı.

Azərbaycanın qlobal nüfuzunun ən parlaq səhifələrindən biri COP29-a evsahibliyi və orada əldə edilən tarixi nəticələrdir. Bakı razılaşmaları sayəsində iqlim maliyyəsi sahəsində inqilabi addımların atılması və ildə ən azı 300 milyard dollar vəsaitin səfərbər olunması öhdəliyi Azərbaycanın bəşəri problemlərin həllində əsas aktor olduğunu bir daha sübut etdi.

Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü tam bərpa etməsi təkcə ölkəmiz üçün deyil, bütün bölgə üçün yeni imkanlar açıb. Ermənistanla sülh gündəliyi və normallaşma prosesində əldə olunan irəliləyişlər, Orta dəhlizin strateji əhəmiyyətinin artması və Zəngəzur dəhlizinin (TRIPP) vəd etdiyi perspektivlər Cənubi Qafqazı qlobal ticarətin mərkəzinə çevirir. Eyni zamanda Azərbaycanın regional sülh gündəliyinin onun beynəlxalq diplomatiyadakı üfüqlərini də birbaşa genişləndirməsi danılmaz gerçəklikdir.

BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının 82-ci sessiyasının iştirakçılarına müraciətində Prezident İlham Əliyev bu mühüm məqamı belə vurğulayıb: "Münaqişənin başa çatması Azərbaycanın beynəlxalq səylərinin genişləndirilməsi üçün də yeni imkanları yaratmışdır. Azərbaycanın Türk Dövlətləri Təşkilatında və Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə sədrliyi, onun D8 - İqtisadi Əməkdaşlıq üzrə Təşkilata, Mərkəzi Asiyada dövlət başçılarının məşvərətçi görüşlərinə qəbul olunması və COP29 tədbirinə uğurlu evsahibliyi etməsi beynəlxalq ictimaiyyətin Azərbaycanın xarici siyasətinə artan etimadının təzahürüdür".

Onu da diqqətə çatdıraq ki, ölkəmiz gələn ay Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) evsahibliyi edəcək. Azərbaycanın qlobal liderliyini daha da möhkəmləndirəcək bu forum məzmununa və əhatə dairəsinə görə BMT-nin İqlim Dəyişikliyi üzrə Tərəflər Konfransından (COP) sonra ikinci ən böyük və strateji əhəmiyyətli qlobal platforma hesab olunur.

Bütün bu nailiyyətlər təsadüfi deyil, Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən və hərtərəfli siyasətinin məntiqi bəhrəsidir. Bu gün Azərbaycan beynəlxalq müstəvidə təkcə öz maraqlarını qoruyan dövlət deyil, həm də sülh yaradan, dialoqa səsləyən və qlobal çağırışlara töhfə verən lider ölkə kimi tanınır. Bakının formalaşdırdığı bu yeni əməkdaşlıq fəlsəfəsi Cənubi Qafqazdan başlayaraq daha geniş bir coğrafiya üçün siyasi sabitlik, iqtisadi rifah və mədəni inteqrasiya vəd edir. Nüfuzlu beynəlxalq təşkilatlara sədrlik və mühüm qlobal tədbirlərə evsahibliyi Azərbaycanın diplomatik gücünün və dünya birliyinin ölkəmizə olan sarsılmaz etimadının ən böyük təsdiqidir. Azərbaycanın müəyyənləşdirdiyi bu tərəqqi yolu bəşəriyyətin daha təhlükəsiz və dayanıqlı gələcəyinə xidmət edir.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

## UNESCAP-a sədrlik Azərbaycana göstərilən növbəti qlobal etimaddır

Azərbaycanın BMT-nin Asiya və Sakit okean üzrə İqtisadi və Sosial Komissiyasının (UNESCAP) 82-ci sessiyasına sədr seçilməsi ölkəmizin beynəlxalq müstəvidə artan nüfuzunun və ona olan yüksək etimadın bariz göstəricisidir. Bu mühüm hadisəni bir neçə əsas istiqamət üzrə şərh etmək olar. UNESCAP-a sədrliyin Azərbaycana həvalə olunması ölkəmizin dayanıqlı inkişaf, inklüzivlik və çoxvektorlu əməkdaşlıq gündəliyinə verdiyi töhfələrin beynəlxalq səviyyədə yüksək qiymətləndirilməsini təsdiq edir. Bu həm də Azərbaycanın beynəlxalq arenada etibarlı tərəfdaş kimi qəbul edildiyini göstərir.

Milli Məclisin deputatı Pərvanə Vəliyeva qəzetimizə açıqlamasında bildirib ki, ölkəmiz, eyni zamanda Türk Dövlətləri Təşkilatına, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirəyə (AQEM) sədrlik edir. Bundan əvvəl isə Azərbaycan COP29 kimi mötəbər qlobal tədbirə evsahibliyi etməklə öz xarici siyasətinin uğurlarını nümayiş etdirib. Məhz COP29 bu günədək keçirilmiş COP-lar tarixində ən uğurlulardan biri olaraq, iqlim diplomatiyasında dönüş yarada bilib. "Qoşulmama Hərəkatı Gənclər Təşkilatının mənzil-qərargahının Bakıda yerləşməsi, onun Parlament Şəbəkəsinin qurulması, Azərbaycanın 140-dan çox ölkəyə humanitar və texniki yardım göstərməsi də bu etimadın tərkib hissəsidir. Parlament Şəbəkəsi üzrə qərargah da Bakıda yerləşəcək".



Deputat qeyd edib ki, UNESCAP-ın 82-ci sessiyasında Azərbaycan tərəfindən irəli sürülmüş və qəbul olunmuş "Bakı-Banqkok Bəyannaməsi" sosial inkişafın təşviqi istiqamətində regional əməkdaşlığa yeni dinamika gətirəcək. Bu, Azərbaycanın qlobal problemlərin həllində praktiki həllər təklif edən bir ölkə imicini gücləndirir. "Azərbaycanın Orta dəhliz vasitəsilə Asiya və Avropanı birləşdirən mühüm nəqliyyat və rəqəmsal qovşağa çevrilməsi onun regionun iqtisadi arxitekturasında vacibliyini artırır. Eyni zamanda Ermənistanla sülh gündəliyinin irəli aparılması və suverenliyin tam bərpası, Cənubi Qafqazda yaranmış yeni reallıqların beynəlxalq birlik tərəfindən qəbulu Azərbaycanın regional sabitləşdirici roluna olan inamı daha da dərinləşdirir", - deyə o əlavə edib.

P.Vəliyeva vurğulayıb ki, gələn ay Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun (WUF13) 13-cü sessiyası da Azərbaycanın bu sahədəki təcrübəsinə olan beynəlxalq marağın göstəricisidir. Bu kontekstdə dayanıqlı inkişaf sahəsində ölkəmizin həyata keçirdiyi unikal layihələr, şəhərsalma təcrübələri də BMT-in 11-ci Dayanıqlı İnkişaf Məqsədi ilə üst-üstə düşür.

UNESCAP-a sədrlik Azərbaycanın həm iqtisadi gücünü, həm də diplomatik çevikliyini birləşdirərək qlobal idarəetmədə öz sözünü deyən nüfuzlu bir dövlətə çevrildiyini təsdiqləyir.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

## Tofiq MUSAYEV: "Azərbaycan Afrika ölkələrinin TŞ-də təmsilçiliyinin artırılması fikrini dəstəkləyir"



"Azərbaycan BMT-yə üzv dövlətlər arasında Afrika ölkələrinin Təhlükəsizlik Şurasında (TŞ) təmsilçiliyinin artırılması fikrini dəstəkləyir".

AZƏRTAC-ın məlumatına görə, bu sözləri BMT Təhlükəsizlik Şurasının üzvlüyünün genişləndirilməsi və ədalətli təmsilçilik məsələləri üzrə hökumətlərarası danışıqlar çərçivəsində BMT Təhlükəsizlik Şurasının islahatı üzrə Afrika modelinin müzakirəsi zamanı Azərbaycanın BMT yanında daimi nümayəndəsi Tofiq Musayev deyib.

O bildirib ki, Azərbaycan Afrika ölkələri ilə sülh və təhlükəsizlik, davamlı inkişaf və humanitar əməkdaşlıq daxil olmaqla müxtəlif sahələrdə dialoq və tərəfdaşlığını gücləndirib.

"Biz Afrika modelində əks olunan mövqeyi bölüşürük və hesab edirik ki, Təhlükəsizlik Şurası milli siyasi gündəlikləri irəli aparmaq üçün istifadə edilməməli və beynəlxalq sülh və təhlükəsizliyə təhdid yaratmayan məsələlərə qarışmamalıdır. Bundan əlavə, vurğulamaq vacibdir ki, təmsilçiliyin artırılması ilə yanaşı, islahatların əsas məqsədi şuranın ümumi effektivliyini, hesabatlılığını və şəffaflığını artırmaq olmalıdır. Bu, şuranın müasir çağırışlara qəti və legitim şəkildə cavab verməsini və qərarlarının tam və ardıcıl icrası vasitəsilə beynəlxalq təhlükəsizlik arxitekturasında mərkəzi rolunu qorumasını təmin etməlidir", - deyə o qeyd edib.

Bildirib ki, veto məsələsi Təhlükəsizlik Şurası islahatlarının əsas elementlərindən biri olaraq qalır. "Bu kontekstdə vetonun Şuranın mandatını yerinə yetirmə effektivliyinə təsirini qiymətləndirmək və hər hansı dəyişikliklərin yarada biləcəyi riskləri, balanssızlıqları və bərabərlik baxımından nəticələrini araşdırmaq üçün diqqətli, dərin və müqayisəli təhlilə ehtiyac olduğunu bir daha vurğulayırıq. Biz həmçinin Afrika modelində yer alan və Təhlükəsizlik Şurasının iş metodlarının təkmilləşdirilməsinə və Baş Assambleya ilə münasibətlərinin gücləndirilməsinə yönəlmiş praktiki təklifləri alqışlayırıq. Afrikanın mövqeyi ilə razıyıq ki, Təhlükəsizlik Şurası və Baş Assambleya öz mandatları çərçivəsində daha sıx əməkdaşlıq etməli, qarşılıqlı məsuliyyət sahələrinə müdaxilə etmədən əməkdaşlıq və harmonik münasibətlər qurmalıdır", - deyə Tofiq Musayev vurğulayıb.

## Antalya Diplomatiya Forumu türk dövlətləri arasında əməkdaşlığın yeni mərhələyə keçidinə təkan verir

Antalya Diplomatiya Forumu müasir beynəlxalq münasibətlər sistemində baş verən sürətli transformasiyalar fonunda türk dövlətləri arasında strateji əməkdaşlığın dərinləşməsi və yeni inteqrasiya formatlarının formalaşması baxımından xüsusi əhəmiyyət kəsb edir. Forum təkcə qlobal gündəliyin əsas məsələlərinin müzakirə olunduğu platforma deyil, eyni zamanda regional güc mərkəzləri arasında dialoqun gücləndirilməsi üçün mühüm diplomatik məkandır.



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Kocaeli Heydər Əliyev Mədəniyyət mərkəzinin sədri Bilal Dündar bildirib.

Onun sözlərinə görə, türk dövlətləri arasında əməkdaşlığın gücləndirilməsi bu gün artıq seçim deyil, geosiyasi reallıqların tələb etdiyi strateji zərurətdir.

"Antalya Diplomatiya Forumu bu baxımdan türk dünyasının ortaq maraqlarını daha sistemli şəkildə müzakirə etməyə, yeni əməkdaşlıq mexanizmlərini formalaşdırmağa imkan yaradır. Bu platforma dövlətlər arasında etimad mühitinin möhkəmlənməsinə xidmət edir. Forum çərçivəsində iqtisadi inteqrasiya məsələləri xüsusi diqqət mərkəzindədir. Nəqliyyat dəhlizlərinin şaxələndirilməsi, logistika imkanlarının genişləndirilməsi və ticarət əlaqələrinin gücləndirilməsi türk dövlətlərinin iqtisadi gücünü artıran əsas amillərdən biridir. Bu istiqamətdə Türk Dövlətləri Təşkilatı çərçivəsində həyata keçirilən layihələr forum müzakirələri ilə daha da zənginləşir. Xüsusilə Orta dəhliz layihəsi türk dövlətlərini Avropa və Asiya bazarlarına bağlayan strateji xətt kimi çıxış edir və bu layihənin inkişafı regionun iqtisadi xəritəsini dəyişmək potensialına malikdir. Bu kimi təşəbbüslər türk dünyasının qlobal iqtisadi sistemdə rolunu daha da gücləndirir", - deyə o bildirib.

Bilal Dündar əlavə edib ki, enerji təhlükəsizliyi məsələləri də forumun əsas prioritet istiqamətlərindəndir: "Xəzər regionu və Mərkəzi Asiyanın enerji resurslarının səmərəli idarə olunması, yeni boru kəmərləri və alternativ enerji layihələri türk dövlətlərinin strateji əməkdaşlığında mühüm yer tutur. Bu sahədə koordinasiyalı siyasət regional sabitlik və davamlı inkişaf üçün əsas şərtlərdəndir. Humanitar və mədəni əməkdaşlıq türk dünyasının birliyinin ideoloji əsasını təşkil edir. Ortaq dil, tarix və mədəniyyət bizi birləşdirən ən güclü amildir. Bu dəyərlərin qorunması və gələcək nəsillərə ötürülməsi üçün mədəniyyət mərkəzləri, ictimai təşkilatlar və təhsil müəssisələri birgə fəaliyyət göstərməlidir".

Onun sözlərinə görə, mədəni diplomatiya türk dövlətləri arasında qarşılıqlı anlayışın və xalqlar arasında yaxınlığın gücləndirilməsində mühüm rol oynayır. Bu istiqamətdə həyata keçirilən layihələr təkcə dövlətlərarası münasibətləri deyil, həm də cəmiyyətlərarası əlaqələri möhkəmləndirir.

Bilal Dündar əlavə edib ki, gənclər siyasəti və təhsil əməkdaşlığı da türk dünyasının gələcək inkişafında əsas istiqamətlərdən biridir.

"Birgə universitet proqramları, tələbə mübadilələri və elmi-tədqiqat layihələri ortaq intellektual mühitin formalaşmasına töhfə verir. Gənclərin türk dünyası ideyası ətrafında birləşməsi gələcək inteqrasiyanın əsas təminatıdır. Eyni zamanda o qeyd edib ki, rəqəmsal transformasiya və texnoloji əməkdaşlıq da yeni dövrün əsas çağırışlarındandır. Süni intellekt, rəqəmsal iqtisadiyyat və innovasiya sahələrində ortaq layihələrin həyata keçirilməsi türk dövlətlərinin qlobal rəqabət qabiliyyətini artırır", - deyə Bilal Dündar əlavə edib.

## Azərbaycan Türkiyə ilə birlikdə sülh və sabitliyin təmin olunmasına yönəlmiş mövqeyini bir daha ortaya qoydu

"Azərbaycan Prezidenti İlham Əliyevin 5-ci Antalya Diplomatiya Forumunun açılış mərasimində iştirak etməsi və tədbir çərçivəsində keçirdiyi görüşlər olduqca önəmli idi və ölkənin xarici siyasət strategiyasının ildən-ilə inkişaf etdiyini göstərdi. Bütün bunlar həmçinin Azərbaycanın regional diplomatiyada aktiv rolunu və Türkiyə ilə strateji müttəfiqliyini əks etdirir".

Bu sözləri AZƏRTAC-a açıqlamasında türk jurnalist Zəki Gümüş söyləyib.

O bildirib ki, Azərbaycan və Türkiyə arasındakı dostluq və qardaşlıq münasibətləri bütün dünyaya məlumdur. Prezident İlham Əliyevin bu foruma əhəmiyyət verərək iştirak etməsi tədbirə əlavə güc və önəm qazandırdı. O, hər zaman olduğu kimi bu platformada da Türkiyənin yanında olduğunu açıq şəkildə nümayiş etdirdi.

"Bölgədə baş verən gərginliklər fonunda Azərbaycan özünü məsuliyyətli və böyük dövlət kimi göstərərək tərəfsiz mövqeyini qorudu və diplomatik təcrübəsini ortaya qoydu. Bu yanaşma Prezident İlham Əliyevin siyasi və diplomatik təcrübəsinin göstəricisi kimi qiymətləndirilir. Ümumilikdə Azərbaycan bu forumda həm aktiv iştirakı, həm də regional sabitliyə verdiyi töhfə ilə önəmli rol oynadı və Türkiyə ilə birlikdə sülh və sabitliyin təmin olunmasına yönəlmiş mövqeyini bir daha ortaya qoydu", - deyə Zəki Gümüş əlavə edib.

# Sülhün aydınlığında kölgə axtaranlar

## Niderland və Belçika parlamentlərinin qərəzli addımları və ermənipərəst ritorikası revanşist təfəkkürün son çırpıntılarıdır

**Cənubi Qafqazda sülh və sabitliyin təməllərinin atıldığı, bölgədə yeni əməkdaşlıq üfüqlərinin yarandığı tarixi bir mərhələdə minlərlə kilometr uzaqlıqda gərginlik ssenariləri yazanlar var. Niderland və Belçika parlamentlərinin nümayəndələr palataları yenə Azərbaycan əleyhinə qətnamələrlə gündəmə gəliblər.**



Aprelin 16-da Niderland parlamentinin nümayəndələr palatası deputat Don Sederin təklifi ilə Azərbaycana və onun vətəndaşlarına qarşı cinayətlər törətməkdə təqsirli bilinərək həbs edilən erməni terrorçularının azadlığı və qondarma "erməni soyqırımı"nın tanınması haqqında sənədlə hökumətə müraciət edib. Elə həmin gün Belçika parlamentinin nümayəndələr palatası deputat Mişel de Maqdanın oxşar məzmunlu sənədini qəbul edib. Sənəddə Azərbaycanı könüllü tərk etmiş Qarabağdakı ermənilərin geri qaytarılması tələb olunur.

Rəsmi Bakı təxribat xarakterli addımlara çox sərt reaksiya verib. Belçika və Niderlandın Azərbaycandakı səfirləri Xarici İşlər Nazirliyinə (XİN) çağırılaraq sülh prosesini sarsıtmaq məqsədi daşıyan növbəti məsuliyyətsiz sənədlərə qarşı kəskin etiraz ifadə edilib. Qətnamə sənədlərinin tamamilə yalan və əsassız qiymətləndirmələrə uyğun olaraq hazırlandığı, Azərbaycan əleyhinə qərəzi nümayiş etdirdiyi vurğulanıb.

Azərbaycan Milli Məclisi də saxta iddialar və əsassız ittihamlar üzərində qurulmuş birtərəfli və qərəzli sənədləri kəskin şəkildə qınayıb və qətiyyətlə rədd edib. Qeyd olunub ki, bu təşəbbüslər Azərbaycan-Ermənistan sülh prosesinə, hər iki ölkənin birgə səyləri ilə regionda sülh və əməkdaşlıq mühitinin formalaşmasına yönəlmiş addımlara zərbə vurmaq məqsədi daşıyır. Ənənəvi anti-Azərbaycan, islamofob dairələrin qeyri-sağlam və irqçi təxəyyülündən irəli gələn bu sənədlər beynəlxalq hüququn kobud şəkildə pozulması, regionda davam edən və həssas mərhələdən keçən sülh prosesinə qarşı açıq təxribatdır.

Niderland və Belçika qanunverici orqanlarında ölkəmizə qarşı qərəzli münasibət ilk deyil. Buna bənzər təşəbbüslər dəfələrlə qeydə alınıb və artıq davamlı hal alıb. Bu, onu sübut edir ki, bəzi siyasi dairələr üçün beynəlxalq hüquq yox, lobbi maraqları daha üstündür. Azərbaycanın ərazi bütövlüyünü rəsmi səviyyədə tanıyan bu dövlətlərin paralel olaraq "humanitar qayğılar" adı altında separatçılığa və cinayətkarlığa bəraət qazandırmaq cəhdləri Avropa diplomatiyasındakı dərin ziddiyyətləri ifşa edir. Əslində, beynəlxalq normalar çərçivəsində hər iki dövlət Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Parodoks ondadır ki, rəsmi müstəvidə dövlət sərhədlərimiz tanınsa da, daxili proseslərə münasibətdə səsləndirilən bəyanatlarda fərqli və birtərəfli yanaşmalar müşahidə olunur. Niderland və Belçika parlamentlərinin Azərbaycan əleyhinə qəbul etdiyi son sənədlər məhz bu ikitərəfli oyunun növbəti pərdəsidir.

Bakıda həbsdə olan ermənilər hərbi əsir deyil. Onlar Azərbaycan qanunvericiliyi və beynəlxalq hüquq normaları çərçivəsində konkret terror aktları, işgəncə və separatçılıqda ittiham olunan və məhkəmə tərəfindən cəzalandırılan şəxslərdir. Çoxsaylı cinayətlər törətmiş şəxslərin azad edilməsi tələbi hüquqi prosesə siyasi müdaxilə və separatçılığa bəraət qazandırmaq cəhdidir.

Ərazilərimizi könüllü tərk etmiş ermənilərin geri qayıtması məsələsi də gündəmdən qalxmış, hətta rəsmi İrəvanın tamamilə qapatdığı mövzudur. Belə məqamda ermənidən daha çox erməni olanların könüllü köç faktını görməzdən gəlməsi və absurd tələbi Bakıya təzyiq rıçağı yaratmaq məqsədi daşıyır. Azərbaycan 30 il işğala məruz qalanda, əraziləri viran ediləndə, 1 milyon qaçqın və məcburi köçkünün hüquqları pozulanda bu parlamentlərin susqunluğu indiki aktivlikləri ilə kəskin təzad yaradır.

Digər məqam odur ki, Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması üçün diplomatik səylərin artdığı bir vaxtda Avropadan gələn pozucu çağırışlar revanşist qüvvələri ruhlandırır və regionda gərginliyi artırır. Bu cür təşəbbüslər Ermənistandakı revanşistlərdə "beynəlxalq dəstək" illüziyası yaradaraq, onları sülh prosesini boykot etməyə sövq edir.

Niderland parlamentinin uydurulmuş "erməni soyqırımı"na müraciət etməsi məsələni siyasi müstəvidən çıxararaq ideoloji müstəviyə daşıyır. Bu, Türkiyə və Azərbaycana qarşı vahid təzyiq paketi formalaşdırmaq təşəbbüsüdür. Tarixi hadisələrin parlamentlər səviyyəsində siyasiləşdirilməsi müasir dövrün ən təhlükəli "yumşaq güc" alətlərindən biridir və siyasi şantaj xarakteri daşıyır.

Sənədlərdə Azərbaycan və Ermənistan sərhədindəki vəziyyətin hərbi baxımdan "riskli" dəyərləndirilməsi və bu "arqumentin" Avropa İttifaqının Ermənistandakı missiyasının fəaliyyət müddətinin uzadılması üçün əsas seçilməsi də siyasi manipulyasiyadan xəbər verir. 2024-cü ildən bu yana sərhəddə hər hansı ciddi hərbi insidentin baş verməməsi ən dinc dövrlərdən biri kimi xarakterizə olunur. Hətta Ermənistan rəsmiləri də bir çox halda sərhəddə vəziyyətin sabitliyini və eskalasiya riskinin olmadığını ictimaiyyətə bəyan ediblər. Parlamentarilərin "riskli vəziyyət" iddiası isə Ermənistanın rəsmi mövqeyi ilə də ziddiyyət təşkil edir. Bu da ondan xəbər verir ki, bəzi dairələr Aİ missiyasının fəaliyyət müddətini uzatmaq üçün süni ehtiyac yaratmağa çalışırlar.

Qərəzli sənədlərin Azərbaycan və Ermənistan parlament sədrlərinin görüşündən sonra qəbul edilməsi regiondakı real dialoqa kölgə salmaq və tərəfləri yenidən qarşıdurma ritorikasına sövq etmək cəhdidir. Belçika tərəfinin sənədində Vaşinqton görüşlərinin və sülh sazişinin paraflanmasının qeyd edilməməsi qərəzli qətnamə müəlliflərinin gərginliyin saxlanmasında maraqlı olduqlarını göstərir.

Bu yanaşma təkcə Azərbaycana yox, Cənubi Qafqazın gələcək sülh memarlığına qarşı sabotajdır. Lakin reallıqdan qopuq, hüquqdan uzaq və qərəzlə yoğrulmuş bu addımlar Cənubi Qafqazda yaranan yeni status-kvonu qəbul edə bilməyən köhnə təfəkkürün son çırpıntılarıdır. Niderland və Belçika parlamentlərinin qəbul etdiyi sənədlər elə özlərinin arxivlərində kağız parçası kimi qalacaq. Qərəzli addımlar həqiqəti dəyişmir. Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, beynəlxalq ədaləti yoluna qoyub. Qərəzli dairələr anlamalıdırlar ki, Bakı ilə təzyiq dilində danışmaq cəhdləri hər zaman uğursuzluğa məhkumdur. Cənubi Qafqazın gələcəyi regiondan kənar güclərin tələbləri ilə deyil, Bakı və İrəvanda atılan addımlarla formalaşır.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

# Ermənistanda seçki gərginliyi: ritorika sərtləşir

## Paşinyan seçki proqramını revanşist qüvvələrə qarşı mübarizə platformasına çevirib

**Ermənistan Baş naziri Nikol Paşinyan hakim "Vətəndaş Müqaviləsi" Partiyasının seçki proqramını açıqlayıb. Baş nazir vurğulayıb ki, proqramın ideoloji əsası "Real Ermənistan" ideologiyası və ölkənin iqtisadi, institusional transformasiya doktrinasıdır. Proqramda Ermənistan-Azərbaycan sülh prosesinə də yer verilib. Qeyd olunub ki, Ermənistan və region üçün sülh yolu ilə inkişaf dövrünün açılması hökumətin 2021-ci il seçkilərində üzərinə götürdüyü ən böyük missiya idi. Baş nazir bu missiyanın yerinə yetirildiyini, Azərbaycanla sülhün bərqərar olduğunu, Ermənistan üçün inkişaf dövrünün açıldığını deyib.**



Paşinyan cəmiyyətə açıq müraciət edib ki, iyunun 7-də keçiriləcək parlament seçkilərindən sonra onların əsas vəzifəsi sülhü qoruyub saxlamaqdır: "Çünki sülh yenidir, körpədir, hələ də həssasdır, gündəlik qayğımıza ehtiyacı var. İyunun 7-də seçki məntəqəsinə gedin və "Vətəndaş Müqaviləsi" Partiyasına səs verərək sülhü qoruyun". Hökumət başçısı həmçinin 2026-2031-ci illər üçün əsas görüləcək işləri də ictimaiyyətə təqdim edib.

Ermənistanın siyasi xəttində baş verən fundamental dəyişiklik özünü açıq şəkildə büruzə verir. Paşinyanın "Real Ermənistan" ideologiyası İrəvanın onilliklər boyu davam edən utopik və qondarma iddiallardan imtina edərək, beynəlxalq səviyyədə tanınmış mövcud sərhədləri daxilində inkişaf niyyətini simvolizə edir. O, bu doktrina ilə cəmiyyətə çatdırır ki, ölkənin gələcəyi ərazi iddialarında deyil, daxili islahatlarda və iqtisadi tərəqqidədir. Sülh prosesinin 2021-ci il vədlərinin yerinə yetirilməsi kimi qələmə verilməsi isə hakim partiyanın seçki platformasını "müharibəni bitirən və sabitlik gətirən qüvvə" imici üzərində qurmaq strategiyasıdır. Paşinyan haqlı olaraq sülhü tam möhkəmlənməmiş, kövrək bir nailiyyət kimi təqdim edir. Baş nazir sülhü kövrək adlandırmaqla erməni ictimaiyyətinin müharibə qorxusuna xitab edir, hakim partiyanı sülhün yeganə təminatçısı kimi göstərir.

Baş nazir müxalifətin mövqeyini sərt şəkildə tənqid edərək bildirib ki, bəzi siyasi qüvvələrin ölkənin sərhədlərini genişləndirmək çağırışları Ermənistanı yeni müharibə riskinə sürükləyə bilər. O vurğulayıb ki, Qarabağla bağlı simvol və xəritələrin gündəmə gətirilməsi təhlükəli yanaşmanın davamıdır və ölkə bu cür siyasətin ağır nəticələrini artıq yaşayıb: "Seçkilərdə "üçbaşlı müharibə partiyası"nın uğur qazanması bunun doğuracağı nəticələrlə birlikdə "Qarabağ hərəkatı"nın davamı deməkdir". Baş nazir "üçbaşlı müharibə partiyası" dedikdə Ermənistanın sabiq prezidenti Robert Koçaryanın rəhbəri olduğu "Ermənistan" bloku, rusiyalı oliqarx Samvel Karapetyanın "Güclü Ermənistan" və Qagik Çarukyanın "Çiçəklənən Ermənistan" partiyalarını nəzərdə tutur. Paşinyan açıq mesaj verir ki, köhnə ideologiyaya qayıdış Ermənistan üçün dövlətçiliyin itirilməsi və yeni fəlakətli müharibə deməkdir.

Nikol Paşinyan Qarabağ ermənilərinin geridönüşü məsələsinin müzakirə predmeti olmadığını vurğulayıb və əlavə edib ki, onlar Ermənistanda məskunlaşmalıdırlar. Qarabağda yaşamış ermənilərin geri qayıtması məsələsinin birdəfəlik qapadılması və onların Ermənistanda inteqrasiyası çağırışı keçmiş münaqişənin bütün siyasi qalıqlarından qurtulmaq cəhdidir. Paşinyan Azərbaycanla gələcəkdə yarana biləcək potensial gərginlik nöqtələrini sıfırlamağa, ən əsası isə bu mövzunun müxalifət tərəfindən siyasi alət kimi istifadə edilməsinin qarşısını almağa çalışır.

Hökumət başçısı həmçinin hesab edir ki, yeni konstitusiyanın preambulasında Müstəqillik Bəyannaməsinə istinad olmamalıdır. Konstitusiya dəyişikliyi məsələsi sülhün hüquqi fundamentallığı baxımından ən kritik məqam kimi təqdim olunur. Baş nazir xalqı inandırmağa çalışır ki, yeni konstitusiyadan Müstəqillik Bəyannaməsinə istinadın çıxarılması təkcə Azərbaycanın tələbi deyil, həm də "Real Ermənistan" layihəsinin hüquqi təməlidir. Paşinyan açıq şəkildə etiraf edir ki, dövlətin əsas sənədində qonşu dövlətə qarşı ərazi iddiasının qalması faktiki olaraq müharibə vəziyyətinin davamıdır. Bu dəyişikliyi referendum yolu ilə etmək istəyi isə məsuliyyəti xalqla bölüşmək, sülh seçimini kollektiv qərara çevirmək taktikasıdır.

Ermənistanın Baş naziri Türkiyə və Azərbaycanla münasibətlərin daha da inkişaf etdirilməsinin böyük əhəmiyyət daşıdığını söyləyib. Paşinyan "Vətəndaş Müqaviləsi" Partiyasının bu yolu davam etdirəcəyini deyib. Ermənistanın regional təcriddən xilasının yeganə çıxış yolu qonşularla normal münasibət qurmaqdır. Xüsusən Türkiyə və Azərbaycanla əlaqələrin inkişafı İrəvan üçün iqtisadi blokadanın yarılması, regional nəqliyyat və logistika layihələrində iştirak imkanı deməkdir. Hakim partiyanın bu yolu prioritet seçməsi Ermənistanın xarici siyasət vektorunun hərbi qarşıdurmadan regional əməkdaşlığa doğru dəyişdiyini rəsmən bəyan edir.

Hakim partiyanın seçki proqramı ilə revanşist qüvvələrin yanaşması arasındakı fərq realizm ilə xəyalpərəstlik arasındakı qarşıdurmanı əks etdirir. "Real Ermənistan" konsepsiyası ölkənin beynəlxalq səviyyədə tanınmış ərazisini əsas götürür. Paşinyanın proqramının "daha yaxşı" hesab edilən tərəfi odur ki, o, cəmiyyətə növbəti məğlubiyyət və ya dövlətçiliyin itirilməsi riskini deyil, mövcud olanı qorumağı və inkişaf etdirməyi vəd edir. Paşinyan iqtisadi tərəqqini qonşularla kommunikasiyaların açılmasında görür. Revanşist qüvvələrin xətti isə qonşu dövlətlərlə düşmənçiliyin davam etdirilməsini nəzərdə tutur. Resursları kasad olan bir dövlətin hərbi revanş barədə düşünməsi intihar kimi qiymətləndirilir. Revanşistlər hələ də köhnə təhlükəsizlik zəmanətlərinə arxalanmağı təklif edərkən, Paşinyanın proqramı sülh müqaviləsini təhlükəsizlik sənədi kimi təqdim edir. Beynəlxalq ictimaiyyət, ABŞ və Avropa İttifaqı da Paşinyanın sülh təşəbbüsünü dəstəkləyir.

Ermənistan cəmiyyəti 2020-ci il müharibəsindən sonra ciddi travma və qorxu yaşayır. O baxımdan revanşistlərin yenidən müharibə və ya "sərhədlərin genişləndirilməsi" çağırışları geniş kütlələr üçün cəlbedici görünmür. Paşinyanın proqramı isə sülh və rifah vəd etməklə ermənilərin sabitlik ehtiyacına daha çox xitab edir. Bu baxımdan ekspertlər iyun seçkilərində hakim partiyanın şansını daha yüksək qiymətləndirirlər.

*İ.QOCAYEV,*
*"Azərbaycan"*

# BMT-nin hesabatı: Maliyyələşdirmə kəsiri Davamlı İnkişaf Məqsədlərinə nail olmağa əngəl törədir

**Artan münaqişələr, iqlim böhranı və inkişaf maliyyələşdirməsinin azalması ən kasıb və həssas ölkələrə təzyiqi artırır, həmçinin Davamlı İnkişaf Məqsədlərinə (DİM) nail olmağı daha da ləngidir.**

AZƏRTAC BMT-yə istinadla xəbər verir ki, təşkilatın yeni "Davamlı inkişaf üçün maliyyələşdirmə - 2026" hesabatına görə, dörd il əvvəl baş verən COVID-19 pandemiyasının, artan geosiyasi gərginliyin və iqlim təsirlərinin güclənməsinin təzyiqi altında 2030-cu ilədək Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üzrə irəliləyiş dayanıb və hətta bəzi hallarda bu proses geri dönüb. Hesabata görə, inkişaf maliyyələşdirilməsi kritik bir dövrdə ciddi təzyiq altındadır: inkişaf etməkdə olan ölkələrin dörddəbir hissəsində adambaşına düşən gəlir pandemiyadan əvvəlki səviyyələrdən aşağı olaraq qalır və təxminən 3,4 milyard insan səhiyyə və ya təhsilə nisbətən borcların ödənilməsinə daha çox pul xərcləndiyi ölkələrdə yaşayır.

Rəsmi inkişaf yardımı kəskin şəkildə aşağı düşüb, xarici investisiyaların azalması davam edir və bir çox ölkə əsas xidmətləri maliyyələşdirmək üçün kifayət qədər vergi gəliri toplamaqda çətinlik çəkir.

Eyni zamanda qlobal ticarət gərginliyi və artan tariflər az inkişaf etmiş ölkələrə iqtisadi təzyiqi daha da artırır.

Bədbin proqnozlara baxmayaraq, hesabatda dayanıqlılıq əlamətləri də qeyd olunur. Qlobal iqtisadi artım 2025-ci ildə gözləntiləri aşıb, inkişaf etməkdə olan ölkələr arasında ticarət ("Cənub-Cənub" adlanan ticarət) son iki onillikdə əhəmiyyətli dərəcədə genişlənib və bərpaolunan enerjiyə investisiya 2024-cü ildə rekord həddə - 2,2 trilyon dollara çatıb ki, bu da qazıntı yanacaqlarından iki dəfə çoxdur.

Bununla yanaşı, müəlliflər qeyd edirlər ki, təcili tədbirlər görülməzsə, bu irəliləyiş davamlı olmayacaq. Onlar inkişaf etməkdə olan ölkələrdə illik maliyyələşdirmə çatışmazlığının dörd trilyon dollara çatdığını təxmin edirlər. Hesabatda əvvəlki trayektoriyaya qayıtmağın ən real və yeganə yolu kimi Sevilya Öhdəliklərinin (inkişaf üçün maliyyələşdirmənin genişləndirilməsi üzrə 2025-ci il qlobal razılaşması) sürətlə həyata keçirilməsinə çağırılır.

Əsas prioritetlərə investisiyaların artırılması, çoxtərəfli əməkdaşlığın gücləndirilməsi, inkişaf etməkdə olan ölkələrin rolunu artırmaq üçün beynəlxalq maliyyə sisteminin modernləşdirilməsi və gələcək şoklara qarşı dayanıqlığın gücləndirilməsi daxildir.

Hesabat müəllifləri xəbərdarlıq edirlər ki, yenilənmiş qlobal əməkdaşlıq və siyasi iradə olmazsa, Davamlı İnkişaf Məqsədlərinə çatmaq və daha ədalətli bir gələcək qurmaq mümkün deyil.

BMT-nin Baş katibi Antonio Quterreş bildirib ki, Yaxın Şərqdəki münaqişə inkişaf risklərini artırır. O vurğulayıb: "Biz müharibənin yanacaq, gübrə və qida qiymətlərinə, eləcə də ticarətə, nəqliyyata və turizmə təsirini real vaxt rejimində görürük".

Baş katibin sözlərinə görə, enerji qiymətlərinin qalxması, iqtisadi artımın yavaşlaması və valyutaların dəyərdən düşməsi inkişaf etməkdə olan ölkələrin borc yükünü daha da artırır. O, hazırda dörd trilyon dollarla qiymətləndirilən maliyyələşdirmə boşluğunun azaldılması üçün üç əsas istiqaməti qeyd edib.

Birincisi, "maliyyə mexanizmlərinin işini sürətləndirmək" - çoxtərəfli inkişaf banklarının potensialını ortaya çıxarmaq və yeni dövlət-özəl maliyyə təşəbbüsləri yaratmaq təklif olunur. İkinci istiqamət borcun idarə edilməsi sistemində, o cümlədən borcun azaldılması mexanizmlərində islahat aparılması və kredit reytinqi sisteminin yenidən nəzərdən keçirilməsidir. Üçüncüsü, Baş katib beynəlxalq maliyyə arxitekturasının qlobal iqtisadiyyatın mövcud strukturunu əks etdirməsi üçün bu sistemdə islahatların zəruriliyində israr edir.

# "Şimal-Cənub" marşrutu bütün tərəflərə fayda gətirə bilər

## Əgər xətdə işlər tam yekunlaşarsa

**Azərbaycan dünya logistika sistemindəki yerini genişləndirmək üçün nəqliyyat infrastrukturunu təkmilləşdirməkdə davam edir. Məlum olduğu kimi, Orta dəhlizin mühüm seqmenti olan Trans-Xəzər marşrutunun çəkilməsinin təşəbbüskarı da ölkəmiz olmuşdur. Bunun sayəsində Azərbaycan qlobal əhəmiyyətli nəqliyyat marşrutu sayılan Orta dəhlizdə ən önəmli ölkə statusuna malikdir.**



Azərbaycan həmçinin "Şimal-Cənub" nəqliyyat marşrutunun fəaliyyətinin genişləndirilməsi istiqamətində mühüm addımlar atan ilk ölkədir. Bu marşrutun üç qolu var. Birincisi, Xəzər dənizinin Mərkəzi Asiya yaxasından - Qazaxıstan və Türkmənistan ərazisindən keçərək İrana daxil olur. İkincisi, Xəzər dənizindən İranın Ənzəli limanına qədər uzanır. Üçüncüsü isə Azərbaycan ərazisindən keçir. Bunlardan ən əhəmiyyətlisi marşrutun Azərbaycan üzərindən keçən qoludur. Belə ki, şimaldan gələn qatarlar ölkəmiz üzərindən Avropaya gedə bilir. Bununla yanaşı, ölkəmizin ərazisindən keçən yüklər Fars körfəzi vasitəsilə dünya bazarına çıxarılır. Hazırda bu istiqamətdə əsas problem İran ərazisindəki Astara-Rəşt dəmir yolu xəttinin çəkilməsidir.

Azərbaycan qonşu ölkələrdən fərqli olaraq, "Şimal-Cənub" marşrutrunun fəaliyyətini genişləndirmək üçün üzərinə düşən öhdəlikləri vaxtında və yüksək səviyyədə yerinə yetirir. Bu günə kimi ölkəmizə şimaldan daxil olan yüklərin tranzitinin asanlaşdırılması üçün dəmir və avtomobil yollarının təkmilləşdirilməsi istiqamətində çox işlər görüb. Lakin görülən işlər də var. Bu məqsədlə "Azərbaycan Dəmir Yolları" (ADY) QSC "Şimal-Cənub" dəhlizində irimiqyaslı modernləşdirilmə layihəsinə başlayır - Biləcəri-Yalama dəmir yolu xəttinin enerji təchizatı, siqnalizasiya və rabitə sistemlərinin müasirləşdirilməsi üçün layihələndirmə və tikinti-quraşdırma işlərinə start verilir.

Bununla bağlı Azərbaycan hökuməti "Azərbaycan dəmir yollarının enerji təchizatı, işarəvermə və rabitə sistemlərinin yenidən qurulması (Biləcəri-Yalama) layihəsi" çərçivəsində maliyyə resurslarının təmin edilməsi məqsədilə Asiya İnkişaf Bankına (AİB) müraciət edib. Həmin müraciət əsasında ayrılacaq vəsaitin müəyyən hissəsinin qeyd olunan müqavilə üzrə ödənişlərin həyata keçirilməsi üçün istifadə edilməsi nəzərdə tutulur.

Beynəlxalq yükdaşımalar sahəsində fəaliyyət göstərən Azərbaycanın şimal-cənub və şərq-qərb dəmir yolu dəhlizlərinin əsas elementlərini təşkil edən Biləcəri-Yalama və Bakı-Böyük Kəsik dəmir yolu sahələri boyunca 25 kV-luq dəyişən cərəyanlı enerji təchizatı siqnal və rabitə sistemlərinin modernləşdirilməsini icra edən genişmiqyaslı proqramın ayrılmaz hissəsidir. Bu proqram daxilində reallaşdırılan birinci layihə regional yükdaşımaları dəstəkləyən "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizində mühüm əlaqələndirici funksiyanı yerinə yetirən Biləcəri-Yalama dəmir yolu sahəsini əhatə edir. Bu hissə təqribən 192 km uzunluğunda ikixətli dəmir yolu xəttindən və 15 stansiyadan ibarətdir. Layihələndirmə mərhələsi daxil olmaqla layihələndirmə və tikinti işlərinin təxminən 42 ay ərzində başa çatdırılması planlaşdırılır.

Onu da vurğulayaq ki, Biləcəri (Biləcəri stansiyası istisna edilməklə) - Yalama dəmir yolu sahəsi həm sərnişin, həm də yükdaşımalarını təmin edən, 1520 mm rels izinə malik ikixətli ənənəvi dəmir yolu xəttidir. Həmin dəmir yolu xəttinin və onunla əlaqədar infrastrukturun bərpası yaxın vaxtlarda tamamlanıb. Dəhliz enerji təchizatı, siqnal və rabitə sistemləri ilə təmin olunsa da, mövcud sistemlər mənəvi və fiziki cəhətdən köhnəlib və onların beynəlxalq standartlara uyğun müasir avadanlıqlarla əvəzlənməsinə zərurət yaranıb. Layihənin başlıca hədəfi bu marşrutda təhlükəsizlik səviyyəsini yüksəltmək, istismar sürətini və məhsuldarlığı artırmaq, həmçinin dəmir yolu xidmətlərinin etibarlılığını və əlçatanlığını təmin etməkdir. Görüləcək işlər çərçivəsində əsas dəmir yolu xəttinin minimum 50 km-lik hissəsində kontakt şəbəkəsinin, siqnal sistemlərinin təchizatı və quraşdırılması, habelə minimum 5 stansiyanın rabitə sistemlərinin təchizatı və montajı nəzərdə tutulub.

AİB Biləcəri-Yalama dəmir yolu xəttinin elektrikləşdirilməsi, siqnal və telekommunikasiya layihəsi üçün 325 milyon dollar ayırmağı nəzərdən keçirir. Bankın Direktorlar Şurası tərəfindən bu kreditin 2027-ci il iyunun 17-də təsdiq olunacağı gözlənilir. Qeyd edək ki, layihə AİB, Asiya İnfrastruktur İnvestisiya Bankı (AIIB) və Azərbaycan hökuməti tərəfindən maliyyələşdiriləcək. Onu da vurğulayaq ki, bu xətt "Şimal-Cənub" dəmir yolu dəhlizinin bir hissəsidir və ADY QSC-nin beynəlxalq yük daşımalarına xidmət edir. İxracların əksəriyyəti Bakı-Böyük Kəsik və Biləcəri-Yalama marşrutu ilə həyata keçirilir.

Dünyanın ən uzun nəqliyyat marşrutu Trans-Sibir dəmir yolu xəttidir. 9 min kilometrdən uzun olan bu marşrutun çəkilməsinə milyardlarla dollar investisiya qoyulsa da, o, Rusiya-Ukrayna müharibəsi üzündən beynəlxalq marşrut kimi fəaliyyət göstərə bilmir. Müharibə səbəbindən Rusiyanın Avropaya olan birbaşa qapısı bağlanıb. O üzdən şimal qonşumuz altertnativ marşrutların yaradılmasına çalışır. Hazırda Rusiyanın dünya bazarına çıxışının təmin ediləcəyi ən etibarlı yoll "Şimal-Cənub" marşritudir. Azərbaycan-Rusiya İşgüzar Şurasının iclasında Rusiya Baş nazirinin müavini Aleksey Overçukun "Şimal-Cənub" marşrutunun fəaliyyətinə xüsusi diqqət yetirməsi də bununla bağlıdır.

Aleksey Overçuk Rusiya ilə Azərbaycanın nəqliyyat sahəsində qarşılıqlı fəaliyyət göstərdiyini, Azərbaycanın unikal coğrafi mövqeyə malik olduğunu, rəsmi Bakının ölkəni nəqliyyat qovşağına çevirmək üçün əhəmiyyətli addımlar atdığını bildirərək demişdir: "Azərbaycanın unikal coğrafi mövqeyi var və biz onun həqiqətən əsl nəqliyyat qovşağına, həm şərqdən qərbə, həm də şimaldan cənuba yolların birləşdiyi əsl Avrasiya yolayrıcına çevirmək üçün Azərbaycan Prezidenti, hörmətli İlham Əliyev tərəfindən nə qədər işlərin görüldüyünü görürük".

"Şimal-Cənub" nəqliyyat marşrutunun aktiv hala gəlməsində əsas problem İranla bağlıdır. İllər öncə planlaşdırılmış Astara-Rəşt dəmir yolu xəttində tikinti işlərinə hələ də başlanmayıb. Həmin dəmir yolu sahəsinin tikilməsi marşrutun Fars körfəzinə çıxışını təmin etməlidir. Bununla bağlı Aleksey Overçuk demişdir: ""Bu layihə İranın limanlarını Rusiyanın Baltik və Azov dənizi limanları ilə birləşdirən genişləndirilmiş "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin mühüm elementi hesab olunur. Müharibə başlamazdan əvvəl dəmir yolu üçün torpaq sahələrinin alınması aktiv şəkildə həyata keçirilirdi və mart ayına qədər bu prosesin böyük hissəsi tamamlanmışdı. Rusiya şirkətləri artıq topoqrafik-geodeziya işlərinə başlamış, tikinti üçün zəruri geodeziya şəbəkəsini qurmuşdu. Faktiki tikinti işlərinə start verilmişdi. Şərait imkan verən kimi bu işlər bərpa olunacaq".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*



**“Böyük qayıdış” proqramı sürətlə icra olunur**



# Ağ günlərinə qovuşan Ağdam

Ağdam bu gün Azərbaycanın ən böyük dirçəliş layihələrindən birinin mərkəzində dayanır. Uzun illər müharibənin, işğalın və dağıntının ağır nəticələrini yaşamış bu şəhər indi yenidən həyat qazanır. Vaxtilə xarabalıqları ilə dünyanın diqqətini çəkən, "ruhlar şəhəri" kimi tanınan Ağdam artıq yeni dövrə qədəm qoyub. Burada aparılan bərpa və yenidənqurma işləri təkcə tikinti layihəsi deyil, eyni zamanda tarixi ədalətin bərpası, milli iradənin təcəssümü və gələcək inkişafa yönəlmiş böyük dövlət strategiyasıdır.



2020-ci ildə qazanılan tarixi qələbə Ağdamın da taleyini dəyişdi. Rayon hərbi əməliyyat aparılmadan Azərbaycana qaytarıldı və bununla da şəhərin yeni həyat mərhələsi başladı. Azadlıqdan dərhal sonra əraziyə mütəxəssislər cəlb edildi, minalardan təmizləmə işlərinə start verildi, şəhərin baş planı hazırlandı və geniş tikinti proqramı icraya yönəldildi. 2021-ci ilin may ayında Ağdam şəhərinin təməli qoyuldu. Həmin tarixdən etibarən burada görülən işlərin miqyası göstərdi ki, Azərbaycan bu torpaqları yalnız geri qaytarmaqla kifayətlənmir, eyni zamanda onları müasir inkişaf mərkəzinə çevirmək niyyətindədir.

Ağdamın bugünkü siması dövlətimizin işğaldan azad edilmiş ərazilərlə bağlı müəyyən etdiyi inkişaf siyasətinin ən aydın nümunələrindən biridir. Onilliklər ərzində viran qoyulan küçələr, dağıdılmış yaşayış məhəllələri, yerlə yeksan edilmiş binalar indi müasir şəhərsalma prinsipləri əsasında yenidən qurulur. Yeni salınan geniş küçələr, abad parklar, sosial obyektlər və yaşayış kompleksləri Ağdamın gələcəkdə regionun ən nümunəvi şəhərlərindən birinə çevriləcəyini göstərir.

Rayonun quruculuğu zamanı ilk mərhələdə yol infrastrukturu əsas prioritetlərdən biri oldu. Ağdamı digər bölgələrlə birləşdirən magistral yollar yenidən salındı, kəndlərə və yaşayış məntəqələrinə aparan daxili yollar çəkildi. Elektrik xətləri, su təchizatı sistemləri, qaz şəbəkəsi və rabitə infrastrukturu yenidən quruldu. Bu layihələr olmadan yaşayışın bərpası mümkün deyildi. Dövlət qısa müddət ərzində Ağdamda sıfırdan yeni mühəndis-kommunikasiya sistemi formalaşdırdı.

Şəhərin yenidən qurulmasında müasir urbanizasiya prinsiplərinə xüsusi diqqət yetirilir. Ağdam yalnız əvvəlki vəziyyətinə qaytarılmır, daha funksional, daha rahat və təhlükəsiz şəhər kimi formalaşdırılır. Burada "ağıllı şəhər" yanaşmasının elementləri tətbiq olunur. Rəqəmsal idarəetmə sistemləri, enerjiyə qənaət edən texnologiyalar, ekoloji cəhətdən təmiz nəqliyyat həlləri, geniş yaşıllıq zolaqları və piyada məkanları şəhərin gələcək simasını müəyyənləşdirir. Bu yanaşma göstərir ki, Ağdam keçmişin xatirəsi kimi deyil, gələcəyin şəhəri kimi qurulur.

Yeni yaşayış massivləri müasir standartlara uyğun inşa olunur. Binalar dayanıqlılıq normalarına cavab verir, həyətlər abadlaşdırılır, tibb məntəqələri, idman meydançaları və ictimai xidmət obyektləri tikilir. Şəhərə qayıdan insanların yalnız mənzillə təmin olunması deyil, rahat və keyfiyyətli həyat sürməsi əsas məqsəd kimi götürülüb. Bu səbəbdən yaşayış sahələri ilə yanaşı, sosial mühitin formalaşdırılması da diqqət mərkəzindədir.

Təhsil infrastrukturu Ağdamın dirçəlişində xüsusi yer tutur. Şəhərdə yeni məktəb binaları tikilir, müasir laboratoriyalar və kitabxanalar yaradılır. Gənc nəslin doğma torpaqda keyfiyyətli təhsil alması gələcək inkişafın əsas təminatlarından biridir. Bununla yanaşı, peşə təhsili və texniki hazırlıq mərkəzlərinin yaradılması da nəzərdə tutulur. Məqsəd yalnız yaşayışın bərpası deyil, eyni zamanda bacarıqlı kadrların formalaşdırılmasıdır.

Səhiyyə xidmətlərinin yenidən qurulması istiqamətində də mühüm addımlar atılır. Müasir xəstəxana və poliklinikaların tikintisi, təcili tibbi yardım sisteminin təşkili, kəndlərdə ilkin tibbi xidmət məntəqələrinin yaradılması insanların təhlükəsiz və rahat yaşamı üçün vacib şərtdir. Dövlət bu məsələyə xüsusi həssaslıqla yanaşır, çünki doğma yurda qayıdan ailələrin dayanıqlı məskunlaşması üçün sosial təminat əsas amildir.

Ağdamın iqtisadi potensialı da genişdir. Tarixən kənd təsərrüfatı, ticarət və sənaye baxımından mühüm mövqedə olan rayonun yenidən regionun aparıcı mərkəzlərindən birinə çevrilməsi planlaşdırılır. Burada sənaye zonalarının yaradılması, logistika imkanlarının artırılması, emal müəssisələrinin qurulması, kiçik və orta sahibkarlığın dəstəklənməsi nəzərdə tutulur. Mütəxəssislər hesab edirlər ki, Ağdam gələcəkdə ölkənin əsas iqtisadi lokomotivlərindən birinə çevrilə bilər.

Kənd təsərrüfatı sahəsində də böyük perspektivlər mövcuddur. Ağdamın münbit torpaqları taxılçılıq, üzümçülük, heyvandarlıq və bağçılıq üçün əlverişlidir. Suvarma sistemlərinin yenidən qurulması ilə rayonun aqrar imkanları daha da genişlənəcək. Fermer təsərrüfatlarının yaradılması, kooperativ modelinin təşviqi və aqrotexniki xidmətlərin göstərilməsi əhalinin rifahına müsbət təsir edəcək.

Mədəni irsin qorunması Ağdamın yenidən doğuluşunun mühüm hissəsidir. İşğal dövründə dağıdılmış məscidlər, tarixi binalar, mədəniyyət ocaqları və qəbiristanlıqlar tədricən bərpa olunur. Şəhərin tarixi kimliyi müasir memarlıqla vəhdətdə qorunur. Ağdam təkcə yeni binalardan ibarət şəhər olmayacaq, həm də keçmişini unutmayan, yaddaşını yaşadan mədəni mərkəz kimi inkişaf edəcək. Bu istiqamətdə muzeylərin, sərgi salonlarının, konsert məkanlarının yaradılması da planlaşdırılır.

Ağdamın coğrafi mövqeyi də onun gələcəyinə böyük üstünlük verir. Qarabağın mərkəzində yerləşən şəhər nəqliyyat və logistika baxımından strateji əhəmiyyət daşıyır. Yeni yollar və dəmir yolu xətləri Ağdamı ölkənin digər hissələri ilə daha sıx bağlayacaq. Bu isə ticarət dövriyyəsinin artmasına, investisiyaların cəlbinə və yeni iş yerlərinin açılmasına səbəb olacaq. Bütün bu işlər dövlətimizin gücünü və siyasi iradəsini nümayiş etdirir.

Bərpa prosesinin ən mühüm istiqamətlərindən biri keçmiş məcburi köçkünlərin doğma torpaqlarına qayıdışıdır. Otuz ilə yaxın müddətdə yurd həsrəti yaşayan insanlar artıq mərhələli şəkildə öz evlərinə dönürlər. Uzun fasilədən sonra doğma yurdlarına qovuşan insanların sayı gündən-günə artır. Hazırda 7891 ailə, 31880 nəfər keçmiş məcburi köçkün öz doğma torpaqlarında yaşayır. Məskunlaşma prosesi 9 şəhər, 3 qəsəbə, 29 kəndi əhatə edir. 2026-cı ilin sonunadək "Böyük qayıdış" proqramının birinci mərhələsinin tamamlanması ilə 140 min nəfərin, başqa sözlə, 34500 ailənin öz yurdlarına qayıtması planlaşdırılır. Əzəli torpaqlarına qovuşan insanların mühüm bir qismi Ağdamın payına düşür.

Dünən Ağdam şəhəri daha 332 sakininə (92 ailə) qucaq açıb. Şəhərdə artıq 405 ailə və ya 1502 nəfər yaşayır. Bu, sadəcə, statistik rəqəm deyil. Bu, dağıdılmış ailə xatirələrinin bərpası, uşaqlıq küçələrinin yenidən canlanması, keçmiş məcburi köçkünlərin ata-baba yurduna qovuşmaq sevincidir. Ağdama köç edən sakinlərin emosiyaları da bunu təsdiqləyir. Uzun illər müxtəlif bölgələrdə məskunlaşmış ailələr doğma şəhərə dönərkən həm sevinir, həm də kövrəlirlər. Onlar illərlə xatirələrində yaşatdıqları torpaqlara indi gerçəkdə qayıdırlar. Bir çoxu üçün bu dönüş həyatlarının ən böyük arzusu idi. İnsanlar bildirirlər ki, bu günləri görəcəklərinə inanırdılar və indi həmin inam reallığa çevrilib. Yeni mənzillərə yerləşən ailələr yaradılan şəraitdən razıdırlar, dövlət qayğısını yüksək qiymətləndirirlər.

Bu gün Ağdama hər qayıdan ailə ilə şəhərin həyat ritmi bir qədər də sürətlənir. Bir zamanlar səssiz qalan küçələrdə indi uşaqların səsi eşidilir, həyətlərdə həyat canlanır, insanlar sabaha inamla baxırlar. Ağdamın dirçəlişi təkcə bir rayonun bərpası deyil, bu həm də milli ləyaqətin, ədalətin və zəfərin təntənəsidir.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Leyla Əliyevanın təşəbbüsü ilə icra edilən "Gənc arıçı" layihəsinin növbəti ünvanı Yevlax olacaq

Gənc ailələrin məşğulluğu və ekoloji sahibkarlığın təşviqi məqsədilə həyata keçirilən "Gənc arıçı" layihəsi bu dəfə Yevlaxda icra olunacaq. Layihə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə 2021-ci ildən etibarən ölkəmizin müxtəlif bölgələrində uğurla reallaşdırılır.




AZƏRTAC xəbər verir ki, layihəyə cəlb olunacaq 20 gənc ailə əvvəlcə nəzəri və praktiki təlimlərdə iştirak edəcək. Təlimləri başa vurmuş iştirakçılar arı ailələri və pətəklər, arıçı geyimi, balsüzən aparat və digər zəruri avadanlıqlarla təmin olunacaqlar. Gənc arıçılara istehsalat prosesinin effektiv təşkili üçün zəruri şərait yaradılacaq, eyni zamanda məhsulların sertifikatlaşdırılması, brendləşdirilməsi, dizaynı və satış strategiyalarının hazırlanması sahəsində metodoloji və peşəkar dəstək göstəriləcək.

Qeyd edək ki, 2021-ci ildən etibarən IDEA İctimai Birliyinin təşəbbüsü və Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən "Gənc arıçı" layihəsi çərçivəsində ölkənin müxtəlif regionlarında yaşayan 80-dən çox gənc ailəyə arıçılıq təsərrüfatının qurulmasına dəstək göstərilib.

Layihənin məqsədi biomüxtəlifliyin əsas qoruyucularından biri olan arıların ölkə üzrə yayılma arealının genişləndirilməsi, arıçılığın ekosahibkarlıq forması kimi regionlarda təşviqi, ekoloji cəhətdən təmiz kənd təsərrüfatı fəaliyyətlərinin dəstəklənməsi və keyfiyyətli təbii bal istehsalının artırılmasıdır. Eyni zamanda layihə, gənc ailələrin sosial rifahının yüksəldilməsinə və onların dayanıqlı məşğulluğunun təmin olunmasına töhfə verməyi hədəfləyir.

"Gənc arıçı" layihəsində iştirak etmək istəyən Yevlaxda yaşayan 18-35 yaşarası gənclər mayın 5-dək müraciətlərini IDEA İctimai Birliyinin "1113" qaynar xətti və ya elektron poçt ünvanı (info@ideacampaign.org) vasitəsilə göndərə və ya Dövlət Məşğulluq Agentliyinin Yevlax xidmət şöbəsinə yaxınlaşaraq qeydiyyatdan keçə bilərlər.

# Gədəbəyin Şahdağ kəndində 6500-dən çox ağac əkilib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Yaşıl marafon" kütləvi ağacəkmə kampaniyasının 2026-cı ilin yaz mövsümü çərçivəsində növbəti ağacəkmə aksiyası Gədəbəy rayonunda təşkil edilib.






AZƏRTAC xəbər verir ki, IDEA İctimai Birliyinin könüllülərinin iştirakı ilə Gədəbəy rayonunun Şahdağ kəndində 4600 ədəd fıstıq və 2000 ədəd Şərq çinarı ağacı əkilib.

Qeyd edək ki, IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə həyata keçirilən "Ümumrespublika yaşıllaşdırma marafonu"nun ("Yaşıl marafon") əsas məqsədi yaşıllıq sahələrinin artırılması, ağacəkmə ənənəsinin təşviqi, ətraf mühitin mühafizəsinə, ölkəmizin flora biomüxtəlifliyinin zənginləşdirilməsinə və yaşıllıqların qorunması ilə bağlı maarifləndirməyə töhfə verməkdir.

"Yaşıl marafon" çərçivəsində ötən ilin payız və 2026-cı ilin yaz əkin mövsümlərini əhatə edən ağacəkmə aksiyaları zamanı ölkə üzrə ümumilikdə iki milyona yaxın ağacın əkilməsi nəzərdə tutulur.

# Ağdam şəhərində daha 92 ailəyə mənzillərinin açarları təqdim edilib









Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük qayıdış davam etdirilir. Ağdam şəhərinə köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

AZƏRTAC xəbər verir ki, dünən 92 ailə olmaqla, 332 nəfər keçmiş məcburi köçkün Ağdam şəhərinə - doğma yurda qovuşub.

Köç karvanı respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət olub.

Növbəti köç karvanı ilə Ağdam şəhərinə çatan ailələrə yeni mənzillərinin açarları təqdim olunub.

Mərasimdə Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin nümayəndələri iştirak ediblər.

Doğma yurda qayıdışın sevincini yaşayan Ağdam şəhəri sakinləri açarları təhvil alıb, yeni mənzillərində məskunlaşıblar.

# Növbəti köç karvanı Qırmızı Bazar qəsəbəsinə olub



"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə növbəti köç prosesi gerçəkləşib, səhər saatlarında yola salınan ailələr doğma yurdlarına qovuşublar.

AZƏRTAC xəbər verir ki, Qırmızı Bazar qəsəbəsi dünən 17 ailə olmaqla, 74 nəfərə qucaq açıb. Qəsəbədə sakinlərin məskunlaşmaları üçün lazımi şərait yaradılıb. Yollar abadlaşdırılıb, evlər və infrastruktur bərpa edilib.

Keçmiş məcburi köçkünlər onlar üçün yaradılan şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, torpaqlarımızı işğaldan azad edən şəhidlərimizə rəhmət diləyib, qazilərimizə isə cansağlığı arzulayıblar.



# Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan "Sirli xəritə. Şamaxı macəraları" animasiya filmi təqdim olunub

Aprelin 21-də Nizami Kino Mərkəzində "Sirli xəritə. Şamaxı macəraları" animasiya filminin təqdimatı olub.



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun dəstəyi, "Harmony of Chaos" animasiya və vizualizasiya studiyası və "BBQ Marketing and Events" Agentliyinin əməkdaşlığı ilə hazırlanan animasiya filmi tamaşaçıları Azərbaycanın müxtəlif bölgələrinə maraqlı səyahətə aparır.

"Harmony of Chaos" animasiya və vizualizasiya studiyasının rəhbəri, "Sirli xəritə. Şamaxı macəraları" animasiya filminin prodüseri və rejissoru Ağarəhim İbrahimov çıxışında layihə barədə məlumat verib. O bildirib ki, layihə bir neçə hissədən ibarət olacaq və hər hissədə qəhrəmanlar ölkəmizin tarixini, mədəniyyətini və irsini kəşf edəcəklər. "Hədəfimiz uşaqlara tariximizi rəngarəng macəralar və maraqlı hadisələr vasitəsilə sevdirməkdir",- deyə A.İbrahimov söyləyib.

Sonra animasiya filminin hazırlanma prosesini və maraqlı məqamlarını əks etdirən videoçarx nümayiş olunub. "Şamaxı macəraları" adlanan ilk hissənin süjeti bir ailənin hekayəsi üzərində qurularaq izləyiciləri qədim Şamaxının tarixi ilə yaxından tanış edir. Əsas qəhrəmanlar - nənə, baba və üç nəvə ölkəmizi kəşf edərək Şamaxının tarixini, mədəniyyətini və sirli məqamlarını öyrənirlər. Sehrli hadisələr onları keçmişə aparır və Azərbaycanın zəngin irsini onlara canlı şəkildə göstərir.

Animasiya filminin prodüseri və rejissoru Ağarəhim İbrahimov AZƏRTAC-a açıqlamasında deyib ki, bu cür layihələr uşaqlarda Azərbaycana olan sevgini daha da artıracaq. "Qədim Şamaxının tarixi barədə olan bu 10 dəqiqəlik animasiya filmi üzərində 10 aydır işləyirik. Ekran işi maraqlı vizual həlli ilə uşaqların diqqətini cəlb edəcək", - deyə o əlavə edib.

Animasiya filmində 3D animator kimi çalışan Rüfət İsmayılov isə deyib ki, cizgi filminin ərsəyə gəlməsi həm maraqlı, həm də əyləncəli olub. O qeyd edib ki, "Sirli xəritə" animasiyası serialdır və davamlı olacaq. "Filmin bu hissəsində personajlar Şamaxıya səyahət edərək qədim adət-ənənələrimizə şahid olurlar. Növbəti hissələr isə Azərbaycanın digər mədəniyyət guşələrinə həsr olunacaq", - deyə o diqqətə çatdırıb.

Dinamik şəkildə hazırlanan filmdə personajların səsləndirilməsində, səhnələrin emosional təsirini gücləndirmək məqsədilə xüsusi musiqi və səs effektlərindən istifadə edilib.



**2026 Şəhərsalma və Memarlıq İli**



# Bakı qlobal urbanizasiya gündəminin mərkəzində olacaq

## WUF13 şəhərlərin gələcək inkişafı ilə bağlı mühüm müzakirə platformalarından birinə çevriləcək

**Gələn ay ölkəmiz daha bir möhtəşəm qlobal tədbirə evsahibliyi edəcək. Bakıda BMT-nin Dünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) keçiriləcək. Bu tədbirə evsahibliyini məhz Azərbaycanın etməsi qərarı iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində, innovativ yanaşmaların formalaşmasında etibarlı tərəfdaş kimi tanınan ölkəmizin dayanıqlı şəhərsalma proseslərində getdikcə daha da artan rolunu nümayiş etdirir.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu tarixi hadisəni nəzərə alaraq müvafiq sərəncamla 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan etmişdir.

### XXI əsrin əsas çağırışlarından biri

BMT-nin Məskunlaşma Proqramı (UN-Habitat) tərəfindən təşkil olunan Dünya Şəhərsalma Forumu (World Urban Forum - WUF) urbanizasiya, dayanıqlı şəhər inkişafı və gələcəyin şəhər modelləri üzrə ən nüfuzlu qlobal platformalardandır. Bu forumda dövlətlər, beynəlxalq təşkilatlar, ekspertlər və şəhər idarəçiləri bir araya gələrək XXI əsrin əsas çağırışlarından olan urbanizasiyanın sosial, iqtisadi və ekoloji aspektlərini müzakirə edirlər.

Belə bir forum 2001-ci ildən keçirilir, onun yaradılması isə 1996-cı ildə İstanbulda təşkil edilmiş Habitat II Konfransının nəticələrindən irəli gəlmişdir. Həmin konfransda şəhərsalma və yaşayış mühitinin yaxşılaşdırılması məsələləri qlobal prioritet kimi müəyyənləşdirilmiş və bu sahədə davamlı dialoq üçün platformaya ehtiyac yaranmışdır. Məhz bu ehtiyacdan çıxış edərək BMT çərçivəsində WUF təsis olunmuş, ilk forum 2002-ci ildə Keniyanın paytaxtı Nayrobidə keçirilmişdir. O vaxtdan etibarən forum hər iki ildən bir təşkil edilir. Dünya Şəhərsalma Forumu artıq dünya şəhərlərinin inkişafı ilə bağlı ən mühüm müzakirə platformalarından birinə çevrilib.

### Seçim, yoxsa zərurət?

Artıq üçüncü onilliyini yaşadığımız XXI əsrdə dünya əvvəlki yüzilliklərdən daha sürətlə dəyişir. Texnologiyalar inkişaf edir, iqtisadi modellər transformasiya olunur, geosiyasi reallıqlar yenidən formalaşır. Bütün bu dəyişikliklərin mərkəzində isə bir fundamental həqiqət dayanır: insanlar getdikcə daha çox şəhərlərdə yaşayır və onun gələcəyi məhz bu məkanlarda müəyyən olunur. Bu səbəbdən memarlıq və şəhərsalma artıq dar peşə sahəsi olmaqdan çıxaraq qlobal inkişafın əsas istiqamətlərindən birinə çevrilib.

Ona görə də BMT kimi qurumların bu sahəyə xüsusi diqqət yetirməsi təsadüfi deyil. Şəhərlərin necə planlaşdırılması, idarə olunması və inkişaf etdirilməsi məsələləri bu gün qlobal gündəliyin əsas mövzularındandır.

Məlumdur ki, şəhərlər tarixən iqtisadi inkişafın aparıcı qüvvəsi olub. Bu gün də innovasiya, maliyyə, texnologiya və insan kapitalı əsasən şəhərlərdə cəmləşir. Dünyanın ən böyük iqtisadi gücləri məhz iri şəhər mərkəzləri üzərində qurulub. Lakin urbanizasiya prosesi nəzarətsiz qaldıqda ciddi problemlər yaradır: sürətli və plansız genişlənmə infrastruktur çatışmazlığına, sosial bərabərsizliyin artmasına, həyat keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır. Bu baxımdan, şəhərsalma artıq tikinti məsələsindən də çox strateji planlaşdırma və idarəetmə məsələsidir.

Qlobal iqlim dəyişiklikləri fonunda da şəhərlərin rolu getdikcə artır. Enerji istehlakı, nəqliyyat sistemləri və tikinti sektoru karbon emissiyalarının əsas mənbələrinə çevrilib. Bu isə o deməkdir ki, iqlim böhranının həlli böyük ölçüdə şəhərlərin necə qurulmasından asılıdır. "Yaşıl şəhər", "enerji səmərəliliyinə malik binalar", "dayanıqlı nəqliyyat" və s. kimi anlayışlar artıq seçimdən çox, zərurət kimi nəzərə çarpır. Belə bir zərurət qarşısında düzgün planlaşdırılmış şəhər həm ətraf mühiti qoruyur, həm də uzunmüddətli iqtisadi səmərəlilik yaradır.

### Gələcəyin xəritəsi şəhərlərdə çəkilir

Bəzən şəhər deyəndə, bunu yalnız binalar toplusu kimi təsəvvür edirik, əslində isə hər şəhər insan həyatının təşkil olunduğu mürəkkəb sosial sistemdir. Şəhərin memarlıq və şəhərsalma xüsusiyyətləri insanların gündəlik həyatına birbaşa təsir göstərir: harada yaşayırıq, necə hərəkət edirik, ictimai məkanlardan necə istifadə edirik və s. Plansız şəhərlər sosial parçalanmanı gücləndirir, ictimai əlaqələri zəiflədir və həyat keyfiyyətinə mənfi təsir göstərir. Əksinə, düzgün planlaşdırılmış şəhərlər sosial inklüzivliyi artırır, insanların bir-biri ilə əlaqəsini gücləndirir və daha sağlam cəmiyyət yaradır.

Bu baxımdan, müasir dövrdə şəhərlər arasında rəqabət həm sosial-iqtisadi, həm də mədəni xarakter daşıyır. Qloballaşma prosesində bir çox şəhərlər öz unikallığını itirmək riski ilə üz-üzə qalır. Bu səbəbdən memarlıq və şəhərsalma yalnız yeni binalar inşa etmək deyil, həm də tarixi irsi qorumaq, milli kimliyi yaşatmaq deməkdir. Şəhərlərin siması onların yaddaşıdır. Bu yaddaş qorunmadıqda şəhər sadəcə funksional məkan olaraq qalır, lakin ruhunu itirir.

Rəqəmsal transformasiya da şəhər həyatını köklü şəkildə dəyişir. "Ağıllı şəhər" konsepti artıq praktik reallıqdır. Rəqəmsal idarəetmə sistemləri, böyük məlumatlar bazası və süni intellekt şəhərlərin daha effektiv və çevik idarə olunmasına imkan yaradır. Lakin burada da əsas məsələ texnologiyanın özü deyil, onun məqsədidir. Texnologiya insan mərkəzli inkişafı dəstəkləməli, sosial bərabərsizliyi azaltmalı və həyat keyfiyyətini yüksəltməlidir.




Müasir dünyamızda şəhərlər sadəcə inzibati vahid olmaqdan daha böyük funksiyanı yerinə yetirərək iqtisadiyyatın, innovasiyanın, hətta diplomatiyanın əsas sferasına çevrilir. Bir çox hallarda şəhərlərarası əməkdaşlıq dövlətlərarası münasibətlər qədər əhəmiyyətli olur. İqlim dəyişikliyi, miqrasiya və enerji təhlükəsizliyi kimi qlobal problemlərin həlli də məhz şəhər səviyyəsində daha effektiv şəkildə həyata keçirilir. Bu isə şəhərsalmanı qlobal siyasətin ayrılmaz hissəsinə çevirir.

Bir sözlə, şəhərlər necə qurulursa, insan cəmiyyətləri də elə formalaşır. Düzgün planlaşdırılmış şəhər iqtisadi inkişafı sürətləndirir, sosial ədaləti gücləndirir, ətraf mühiti qoruyur və mədəni kimliyi daimi yaşadır. Əks halda isə şəhərlər saysız-hesabsız problemlərin mərkəzinə çevrilir. Bu reallıq fonunda memarlıq və şəhərsalma məsələlərinin qlobal gündəmin ön sıralarına çıxması tamamilə qanunauyğundur. Çünki artıq hamı anlayır ki, gələcəyin xəritəsi məhz şəhərlərdə çəkilir.

### Azərbaycan nümunəsinin qlobal təqdimatı

Dünya Şəhərsalma Forumunun 13-cü sessiyasının məhz Bakıda keçirilməsi təsadüfi deyil. Bu evsahibliyi Azərbaycanın şəhərsalma sahəsində həm tarixi, həm müasir potensialının qlobal miqyasda təqdimatı deməkdir. Tarixən Şərqlə Qərb arasında körpü rolunu oynamış Azərbaycan bu gün də geosiyasi baxımdan strateji mövqeyini qoruyur. İpək yolu üzərində yerləşən qədim şəhərlərimiz ticarət, mədəniyyət və sənətkarlıq mərkəzləri kimi formalaşaraq urbanistik inkişafın erkən nümunələrini yaratmışdır.

Bu tarixi reallıq müasir Bakının simasında öz əksini tapır. XIX əsrdən başlayaraq, sürətlə sənayeləşən şəhər Şərq və Qərb memarlıq ənənələrinin sintezində formalaşaraq özünəməxsus urban model yaradıb. Azərbaycanın şəhərsalma modeli yalnız müasir inkişaf göstəriciləri ilə deyil, həm də zəngin memarlıq irsi ilə seçilir. Ölkə ərazisində qorunan qalalar, karvansaralar, məscidlər, türbələr və s. milli memarlıq ənənələrinin davamlılığını nümayiş etdirir. Bu irsin ən parlaq nümunələri arasında İçərişəhər, Şirvanşahlar Sarayı Kompleksi, Qız qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı kimi UNESCO-nun irs siyahısına daxil edilmiş abidələr xüsusi yer tutur. Bu nümunələr Azərbaycanın şəhərsalma mədəniyyətinin dünya miqyasında qəbul olunduğunu göstərir. Orta əsr memarlıq məktəbinin zirvələrindən olan Əcəmi Naxçıvaninin yaradıcılığı isə bu ənənələrin intellektual təməlini formalaşdırır.

XX əsrdə Mikayıl Hüseynov və Sadıq Dadaşov kimi memarların fəaliyyəti ilə milli ənənələr müasir memarlıqla sintez olunmuşdur. Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə isə şəhərsalma sahəsi sistemli dövlət siyasətinə çevrilmiş, müstəqillik illərində bu model daha da inkişaf edərək müasir urban transformasiyaya yol açmışdır. Prezident İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü siyasətin uğurları sayəsində bu gün tarixinin ən qüdrətli mərhələsinə yetişmiş Azərbaycanın paytaxtındakı Heydər Əliyev Mərkəzi, Alov Qüllələri, Ağ Şəhər kimi layihələr bu transformasiyanın möhtəşəm simvollarıdır. Eləcə də Vətən müharibəsindəki tarixi zəfərimizdən, torpaqlarımızın işğalçılardan təmizlənməsindən sonra bu gün Qarabağda, Şərqi Zəngəzurda həyata keçirilən "ağıllı şəhər", "ağıllı kənd" konsepti və digər layihələr Azərbaycanın urbanizasiya sahəsində ən innovativ yanaşmalarının, bu sahədə uğurlarının bariz təzahürüdür.

### Qarabağ və Şərqi Zəngəzurda gələcəyin şəhərləri salınır

İşğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa-quruculuq tədbirlərinin tərkib hissəsi kimi reallaşdırılan layihələr faktiki olaraq gələcəyin şəhərlərinin modellərini formalaşdırır. Qısa müddətdə onlarla yaşayış məntəqəsinin planlaşdırılması dünya təcrübəsində nadir dinamika nümayiş etdirir. Qədim mədəniyyət mərkəzlərimizdən olan Şuşa şəhərinin tarixi simasının bərpası isə urbanizasiya ilə mədəni irsin qorunmasının uğurlu sintezidir.

WUF13 kimi qlobal tədbirin paytaxtımızda keçirilməsi ölkəmizə həm birbaşa iqtisadi fayda, həm də uzunmüddətli strateji dividendlər vəd edir. Turizm, xidmət sektoru və beynəlxalq əməkdaşlıq imkanlarının genişlənməsi ilə yanaşı, Azərbaycan qlobal urbanizasiya xəritəsində mövqeyini daha da gücləndirmiş olur. Bu forum eyni zamanda təsirli "yumşaq güc" alətlərindən biri kimi çıxış etməklə Azərbaycanın beynəlxalq imicinə müsbət təsir göstərəcək.

Bu forum Azərbaycanın şəhərsalma sahəsində əldə etdiyi təcrübəni qlobal səviyyədə təqdim etmək üçün unikal platformadır. Bu forum vasitəsilə Bakıdan dünyaya belə bir aydın mesaj veriləcək ki, uğurlu şəhər yalnız infrastruktur layihələri ilə deyil, tarix, mədəniyyət və insan amilinin harmoniyası ilə formalaşır. Azərbaycanın modeli isə məhz bu harmoniyanın praktik nümunəsidir.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# XIX əsr Bakısının şəhərsalma mənzərəsi

## Şəhərin üzünü "qara qızıl" ağardırdı

**XIX əsrin birinci yarısında Bakı sürətlə sənaye mərkəzinə çevrilir və bu inkişafda neft sənayesinin rolu aydın hiss olunurdu. Bakı ətrafında kəşf edilən neft yataqları, xüsusilə Balaxanı və Bibiheybətdə sənaye üsulu ilə çıxarılan neft iqtisadi canlanma yaradaraq, şəhərin sosial həyatını və şəhərsalma strukturlarını kökündən dəyişirdi.**




Neft kapitalı Bakının iqtisadi gücünü artırır və ruhuna toxunaraq onun həyat ritmini dəyişirdi. "Qara qızıl"ın gətirdiyi sərvət küçələrdə, binalarda, insanların gündəlik həyatında "gəzişir"di. Dar və dolaşıq küçələrin yerini tədricən geniş, işıqlı və nizamlı yollar alırdı. Şəhər öz köhnə libasını dəyişərək, Avropa üslublu bir görkəmə bürünürdü. Bu dəyişimlər fonunda Bakı sənaye mərkəzi olaraq canlı, dinamik və cazibədar bir məkan kimi yenidən doğulurdu. Küçələrində həyat qaynayan, memarlığında zənginlik və zəriflik əks olunan bu şəhər getdikcə neftin bəxş etdiyi imkanlarla keçmişin və gələcəyin qovuşduğu yaşayış məntəqəsi kimi diqqət çəkirdi. Beləliklə, XIX əsr Bakısı neftin gücü və Avropa şəhərsalma ənənələrinin harmoniyası ilə formalaşaraq özünəməxsus, unudulmaz simasını yaradırdı.

Neft sənayesinin yüksəlişi Bakının ruhunu və quruluşunu kökündən dəyişdirən bir dönüş nöqtəsi oldu. "Qara qızıl"ın axını ilə şəhərin nəinki mərkəzi, eləcə də ətrafı yenidən formalaşdı. Neft hasilatı və emalı ilə bağlı müəssisələr Bakı ətrafını sənaye ab-havası ilə doldurdu. Balaxanı, Sabunçu və Bibiheybət kimi məkanlar dövrün nişanəsi kimi şəhərin iqtisadi və sosial xəritəsini yenidən çəkirdi. Bu dəyişimin fonunda insan axını artır, kəndlərdən və bölgələrdən gələn işçi qüvvəsi şəhərin damarlarına yeni həyat gətirirdi. Neft kapitalı ilə yüksələn Bakı sənaye mərkəzi olaraq, daşdan, işıqdan və zəhmətdən qurulan yeni bir şəhər kimi formalaşırdı. Həmin sərvətin hesabına inzibati binalar, yaşayış evləri və ictimai tikililər ucalırdı. Bakı tədricən qədim Şərq ənənəsindən uzaqlaşıb müasir şəhər simasına doğru irəliləyirdi.

İnkişafın ən çox görünən izləri isə şəhərin küçələrində idi. Bakının mərkəzindən keçən Torgovaya (indiki Nizami) küçəsi şəhərin ürəyi kimi döyünürdü. Burada böyük ticarət dükanlarının vitrinləri parlaq parçalara, zinət əşyalarına və ekzotik ətirlərə boyanırdı. Bank ofislərinin üzlükləri isə neftdən gələn zənginliyi əks etdirirdi. Küçədə gediş-gəliş heç vaxt dayanmırdı: tacirlər yüklərini daşıyır, qadınlar rəngarəng xalçalar seçir, uşaqlar küçədə şən və şaqraq gülüşlərlə oynayırdılar. Festival və bayram günlərində bura daha da canlanır, küçə ticarəti və şouları insan seli ilə müşayiət olunurdu. Birinci Nikolayevskaya (indiki İstiqlaliyyət) küçəsi isə bir başqa görkəmi ilə çeçilirdi. Burada hökumətin və inzibati idarələrin iri binaları, zəngin ailələrin gözəl villaları, məktəblər və xeyriyyə təşkilatları göz oxşayırdı. Küçədəki insanlar sanki mədəniyyət və sosial həyatın ritmindən ilham alırdılar. Klublarda, teatr və salonlarda, saray tipli evlərdə bal rəqsləri, ziyafətlər, digər mədəni tədbirlər küçənin zərif atmosferini doldururdu.

Hər iki küçə şəhərsalma baxımından Bakı üçün sadəcə yol deyildi. Bir tərəfdə ticarətin, kütlənin və hərəkətin enerjisi, digər tərəfdə elit mədəniyyətin və inzibati nizamın incə ritmi şəhərin memarlıq planını və sosial quruluşunu formalaşdırırdı. Küçələr daş və kərpicdən ibarət olsa da, şəhərin həyatını, ruhunu və insanların gündəlik hekayələrini daşıyan arteriyalar idi. Bakı gündən-günə sənaye və neftin gücü ilə iqtisadi mərkəz rolunu gücləndirir, keçmişlə gələcəyin kəsişdiyi, Şərqlə Qərbin bir-birinə qarışdığı canlı bir şəhər mənzərəsi sərgiləyirdi. Torgovayanın enerjisi, Birinci Nikolayevskayanın zərif ritmi şəhərin sosial və mədəni həyatını formalaşdırır, memarlıqda həm ticarət, həm də elit mədəniyyətin ahəngini əks etdirirdi. Tezliklə neft kapitalının gətirdiyi imkanlar bu küçələrin timsalında şəhərsalma siyasətinə istiqamət verdi və Bakının urbanistik inkişafında keyfiyyətcə yeni mərhələ başlandı. Torgovayanın dükanları və Birinci Nikolayevskayanın zərif villaları şəhərin iqtisadi və mədəni həyatının ritmini birləşdirirdi.

Neftdən əldə olunan gəlirlər hesabına şəhərdə Avropa memarlıq üslubunda tikililər inşa olunurdu ki, bu da Bakının ümumi görünüşünə yeni estetik çalarlar qatırdı. Şəhərin mərkəzi hissəsində inzibati binalar, banklar, ticarət evləri və yaşayış kompleksləri Avropa memarlıq ənənələrinə uyğun şəkildə inşa olunurdu. Şəhər Duması, polis və məhkəmə binaları, eləcə də Hacı Zeynalabdin Tağıyev, Musa Nagiyev və digər neftxudalara məxsus villalar Avropa üslubunda tikilmiş, fasadları dekorativ elementlər və balkonlarla zənginləşdirilmişdi. Bakının mədəni həyatını əks etdirən teatrlar, klublar, məktəblər və xeyriyyə cəmiyyətləri də şəhərin sosial və mədəni ritmini formalaşdırırdı. Bu binalar Bakı neftinin zənginliyindən doğan izləri daşıyır, Avropa memarlığı ilə bəzənərək, şəhərin simasına gözəllik və ritm qatırdı. Və bu proses getgedə sürətlənərək Bakını Qafqazın ən müasir şəhərlərindən birinə çevirirdi. Küçələrin planlı şəkildə salınması, yaşayış evlərinin və inzibati binaların inşa edilməsi, eləcə də ictimai məkanların yaradılması və infrastrukturun inkişafı şəhər mühitinin daha funksional və estetik baxımdan cəlbedici olmasına şərait yaradırdı.

Beləliklə, neft kapitalı və Avropa şəhərsalma təcrübəsinin qarşılıqlı təsiri nəticəsində Bakı artıq XIX əsrin sonlarında klassik Şərq şəhərindən müasir Avropa tipli sənaye paytaxtına çevrilmişdi. Cazibəli küçələr, iri ticarət evləri, zərif villalar və möhtəşəm inzibati binalar neftin gətirdiyi sürətli inkişafın canlı izlərini daşıyırdı. Hər fasad, hər sütun, hər eyvan şəhərin ritmini və yeni həyat tərzini əks etdirir, keçmişlə gələcəyi birləşdirir, Bakını Şərq ilə Qərbin ahəngində parlayan bir mərkəz halına gətirirdi. Bu gün həmin binalar və küçələr şəhərin zəngin tarixini və estetik simasını göz önündə əks etdirən canlı xatirə kimi öz hekayəsini danışır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Müasirləşən qədim Bakı

## Paytaxtdakı yararsız köhnə binaları müasir tikililər əvəz edir

**Ötən əsrin ikinci yarısında Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasəti nəticəsində Azərbaycanda memarlıq və şəhərsalma dövlət siyasətinin mühüm istiqamətinə çevrilmişdir. Tarixi irsin qorunması və milli memarlıq elementlərinin Bakının müasir tikililərində tətbiqi prioritet istiqamət almışdır. Bu siyasət son 20 ildə Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.**

Yeniləşən və müasirləşən Bakıda və onun ətraf qəsəbələrində günün tələbələrinə uyğun yeni yaşayış binaları tikilir, yollar çəkilir, infrastruktur yaradılır. Bu yerdə paytaxtın qədimliyi ilə müasirliyini özündə ehtiva edən, Xəzərin mirvari boyunbağısı adlandırılan Bakı bulvarını qeyd etməmək mümkünsüzdür. 116 ilə yaxın yaşı olan, təxminən 12 il əvvələdək 3,5 hektarlıq ərazini əhatə edən Sahil bağı Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və sərəncamı əsasında genişləndirilərək 16 hektara çatdırılıb. Sahil bağından üzü funikulyora, Şəhidlər xiyabanına, "Alov qüllələri"nə və filormoniyaya tərəf yolu düşənlər möhtəşəmliyə heyran qalmaya bilmirlər. Paytaxtın "Beşmərtəbə", "Kömürçü meydanı", "Sovetski", Təzə Pir məscidi kimi tanınan qədim yaşayış əraziləri başdan-başa yenilənib, müasirləşib. Bakı Dəmir Yolu Vağzalı, bir tərəfi Puşkin küçəsi, Səməd Vurğun bağından Xəzərin sahilinəcən, bir tərəfi də metronun "28 May" stansiyasından üzü Heydər Əliyev Sarayına, "Beşmərtəbə"yə və yeni yaradılan Mərkəzi Parka kimi olan yeniliklər, Şərq-Qərb ornamentlərini özündə birləşdirən bir-birindən yaraşıqlı yüksəkmərtəbəli binalar, istirahət yerləri və yaşıllıqlar göz oxşayır. Müasir yenilənmə zamanı klassik binalar - yerli memarlıq abidəsi hesab edilən mülklərdə bərpa və yenidənqurma işləri aparılıb.

Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası (WUF13) ilə əlaqədar yol infrastrukturunun təkmilləşdirilməsi məqsədilə paytaxtda 42 ünvanda



yüksəkkeyfiyyətli təmir-bərpa işləri aparılıb. Hazırda bu proses bir neçə ünvanda davam edir.

Bakının gözəlliklərini və bu gözəllikləri yaradanları xoş məramla xatırlayaraq bir anlığa ayaq saxlayıb ətrafı seyr edəndə çoxlarının ürəyindən bu hisslər keçir: Bakı bəlkə də ömrünün ən bəxtəvər günlərini yaşayır. Bu ərazilər tamamilə dəyişib, vaxtilə Bakıda dünyaya göz açıb, boya-başa çatmış, indi yaxın-uzaq ölkələrdə yaşayanların, təhsil alanların, işləyənlərin, habelə şəhərimizdə turist qismində qonaq olanların rəy sorğularından məlum olur ki, milliliyi özündə yaşadan arxitektura quruluşuna malik yüksəkmərtəbəli binalar, abadlıq və yenidənqurma işləri onlarda xoş ovqat yaradır.

Amma bu yöndə işlər hələ bitməyib. Hazırda fiziki və mənəvi cəhətdən köhnələn çoxmərtəbəli yaşayış binalarının sökülərək yeniləri ilə əvəzlənməsi davam edir. Nazirlər Kabinetinin 30 dekabr 2024-cü il tarixdə təsdiqlədiyi "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nda köhnə binaların sökülərək yerində yenilərinin tikilməsi qarşıya əsas vəzifələrdən biri kimi qoyulub.

Heç kimə sirr deyil ki, bu gün Bakıda və ölkəmizin digər iri şəhərlərində sovet dövründə tikilən yüzlərlə çoxmərtəbəli bina artıq istismar müddətini başa vurub, təhlükəsizlik standartlarına uyğun gəlmir. Bu binalar həm inşaat texnologiyası, həm də mühəndis-kommunikasiya infrastruktu cəhətdən müasir tələblərdən geri qalır. Mütəxəssislərin fikrincə, hazırda həmin binalarda çoxsaylı problemlər üst-üstə yığılıb - beton və armaturlar korroziyaya uğrayıb, daşıyıcı konstruksiyalar zəifləyib, fasadlar təhlükəsizliyini itirib, su və kanalizasiya xətləri köhnəlib, liftlər yararsız hala düşüb, damların çoxunda sızmanın qarşısını almaq çətinləşib. Məhz buna görə dövlət tərəfindən daha aydın, hüquqi cəhətdən daha mükəmməl zəmin yaradılır ki, insanlar bu problemlərin ağır fəsadlarını yaşamasınlar. İstismar müddətini başa vuran çoxmərtəbəli binaların sökülməsi ilə paytaxtın mühəndis-kommunikasiya şəbəkəsinin yüklənməsi azalır, təhlükəsizlik riski minimuma enir, arxitekturası modernləşir, estetik görünüşü yaxşılaşır, nəqliyyat və dayanacaq məsələləri tənzimlənir. Yeni, daha geniş və rahat mənzillə təminat məqsədilə sakinlərin təhlükəsiz yaşayış mühiti formalaşır. Bu isə birbaşa sosial rifahın yüksəlməsidir.

*Rəhman SALMANLI,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# REGİONLAR

## Gəncənin nümayəndə heyəti Çinin Çindao şəhərinə səfər edib



**Şəhər icra hakimiyyətinin başçısı Niyazi Bayramovun rəhbərliyi ilə Gəncənin nümayəndə heyəti Çin Xalq Respublikasına səfər edib. Nümayəndə heyətinin tərkibində Milli Məclisin deputatı, "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi Müşahidə Şurasının sədri Xanlar Fətiyev, eləcə də Azərbaycanın Çindəki səfirliyinin nümayəndələri olmuşlar.**

Səfər çərçivəsində nümayəndə heyəti Çindao şəhərində merin müavini Qen Tao ilə görüşmüşdür. Görüşdə bildirilmişdir ki, son illər Azərbaycan Prezidenti İlham Əliyev və Çin Xalq Respublikasının Sədri Si Cinpin tərəfindən həyata keçirilən siyasət nəticəsində Azərbaycan-Çin münasibətləri bütün sahələr üzrə inkişaf edərək yeni mərhələyə yüksəlmişdir. Prezident İlham Əliyevin ötən ilin aprelində Çinə dövlət səfəri zamanı hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulması iki ölkə arasında əlaqələrdə yeni səhifə açmışdır.

Qen Tao demişdir ki, Azərbaycan nümayəndə heyətinin bu səfəri 2023-cü ildə Şanxay Əməkdaşlıq Təşkilatı tərəfindən Çindaoda təşkil olunmuş "Xalq diplomatiyası və qardaşlaşmış şəhərlər" forumu çərçivəsində imzalanmış əməkdaşlıq sazişindən sonra ilk səfərdir. O, məlumat vermişdir ki, 10 milyondan artıq əhalisi olan Çindao Çinin iri beynəlxalq liman şəhərlərindən biri və əsas turizm və sənaye mərkəzlərindəndir. Şəhərin 50-yə yaxın ölkənin 90-dan çox şəhəri ilə əlaqələri mövcuddur. Qen Tao həmçinin vurğulamışdır ki, son illər Azərbaycan ilə ticarət əlaqələri genişlənmişdir. Çindaoda artıq 5 ildir "Azərbaycan Ticarət Evi" fəaliyyət göstərir. Azərbaycan tərəfi şəhərdə keçirilən beynəlxalq sərgilərdə də fəal iştirak edir. Bundan əlavə, Çindao ilə Bakı arasında dəmir yolu və avtomobil nəqliyyatı vasitəsilə yükdaşımalar həyata keçirilir. Gəncənin zəngin mədəni və ədəbi irsə malik olduğunu qeyd edən Qen Tao iki şəhər arasında iqtisadi, ticarət, mədəni, humanitar və turizm sahələrində əməkdaşlıq üçün geniş potensialın olduğunu bildirmişdir.

Niyazi Bayramov isə öz növbəsində Gəncənin tarixi-mədəni irsi və sosial-iqtisadi inkişafı barədə ətraflı məlumat vermişdir. Bildirmişdir ki, şəhərdə 3 ali təhsil və 3 orta ixtisas təhsili məktəbləri, iri sənaye müəssisələri, o cümlədən "Gəncə Avtomobil Zavodu" İstehsalat Birliyi, "Azəralüminium" MMC, "Gəncə Şərab-2", "SemSan" və "Parıltı Halı" kimi müəssisələr fəaliyyət göstərir. Diqqətə çatdırılmışdır ki, Gəncə 2016-cı ildə Avropanın Gənclər Paytaxtı, 2017-ci ildə MDB-nin Mədəniyyət Paytaxtı, 2019-cu ildə Avropanın İdman Şəhəri, 2025-ci ildə isə MDB Ölkələrinin İdman Paytaxtı seçilmişdir.

Şəhər rəhbəri həmçinin Çindao ilə ticarət-iqtisadi və mədəni-humanitar əməkdaşlığın daha da genişləndirilməsinin vacibliyini vurğulamışdır. Qeyd etmişdir ki, Gəncənin dünyanın müxtəlif ölkələrinin bir çox şəhəri ilə qardaşlıq və əməkdaşlıq əlaqələri mövcuddur və bu, qarşılıqlı təcrübə mübadiləsi üçün geniş imkanlar açır. Niyazi Bayramov Çindao rəhbərliyini Gəncəyə rəsmi səfərə dəvət etmişdir.

Nümayəndə heyəti səfər çərçivəsində dünyaca məşhur "Hisense" şirkətinin baş ofisinə baş çəkmiş, Çinin ən iri 10 elektrotexnika şirkəti siyahısına daxil olan müəssisənin məişət texnikası, yüksək texnologiyalar sahəsində nailiyyətləri ilə tanış olmuşdur.

*S.YUNİSOĞLU, "Azərbaycan"*

## Havaların yağmurlu keçməsinə baxmayaraq...

### Göygöl fermerləri yaz-tarla işlərini ləngitməməyə çalışırlar

**Göygöl təkcə füsunkar təbiəti ilə deyil, işgüzar insanları ilə də seçilir. Hər ili uğurlu göstəricilərlə yola salan rayonun fermerləri cari ilin təsərrüfat işlərinə də həvəslə başlamışlar.**

Keçən ilin payızında cari ilin məhsulu üçün rayon üzrə 5369,5 hektarda dən və yaşıl yem üçün payızlıq, eləcə də 82 hektarda (aprel ayının 1-nə kimi) dənli bitkilərin səpini aparılmışdır. Ümumiyyətlə, bahar girəndən tarlalarda yazlıq bitkilərin kütləvi əkininə başlanılmışdır. Əldə etdiyimiz son məlumata görə, bu dövr 73,3 hektarda yazlıq arpa, 1,6 hektarda yazlıq buğda, 7,1 hektarda vələmir, 1,5 hektarda yem çuğunduru, 42,5 hektarda yem bitkiləri, 1 hektarda günəbaxan, 82 hektarda kartof, 64 hektarda tərəvəz əkilmişdir. Aprelin 1-nə kimi 5642,5 hektarda payızlıq və yazlıq bitkilərin əkini aparılmışdır ki, bu da aparılacaq əkinin 10,4 faizi qədərdir.

Hazırda 908,2 hektar meyvə və giləmeyvə, 717,7 hektar üzüm bağlarında aqrotexniki tədbirlər həyata keçirilir - ağaclar budanır, torpaq yumşaldılır, gübrələmə və zərərvericilərə qarşı profilaktik tədbirlər görülür.

Kənd təsərrüfatının digər sahələrində də işlər davam edir. Xüsusən heyvandarlığın inkişafına diqqət artırılır. Bu ilin yanvar-mart aylarında quş əti də daxil olmaqla rayon üzrə diri çəkidə 1232,7 ton ət, 6469,8 ton süd, 4 milyon 314 min ədəd yumurta istehsal edilmişdir. Bu, 2025-ci ilin müvafiq dövrünə nisbətən ət istehsalı üzrə 1,1, süd istehsalı üzrə 0,8 faiz artım deməkdir. Onu da qeyd edək ki, aprelin 1-nə olan vəziyyətə görə rayon üzrə 21 min qaramal (onun 10,1 min başı inək və camışdır), 123,4 min baş qoyun və keçi var.

Əkin sahələrinin genişlənməsi, yazlıq səpin işlərinin vaxtında aparılması aqrotexniki tədbirlərin həyata keçirilməsi və heyvandarlıq sahəsində olan artım rayonun aqrar sektorunda işlərin yaxşı getdiyini göstərir. Bu inkişaf tempi ilin növbəti aylarında da məhsuldarlığın artacağına və kənd təsərrüfatında ümumi göstəricilərin daha da yaxşılaşacağına əsaslı zəmin yaradır.

İndi rayonda onlarca fermer təsərrüfatı var ki, onlar hər il nümunə gəstərirlər. Belə fermerlərdən biri Rəfail Mustafayevdir. Uzun illərdir taxılçılıq sahəsində yüksək göstəricilər əldə edən fermer bu mövsüm 203 hektarda "Qırmızı gül-1" buğda sortu yetişdirir. Hər hektardan 45-50 sentner məhsul götürən Rəfail Mustafayev dövlət tərəfindən verilən subsidiyaların hesabına təsərrüfatını daha da genişləndirmişdir. Hazırda fermerin təsərrüfatında xeyli sayda texnika, cümlədən taxılbiçən kombayn, şum traktoru, taxılsəpən və digər avadanlıqlar var.



Rayonda fərqlənən fermerlərdən biri də Mollacəlilli kənd sakini Mübariz Əliyevdir. O, uzun illərdir ki, heyvandarlıq sahəsində fəaliyyət göstərir. Ailə təsərrüfatına başçılıq edən fermer hazırda 50 baş yerli qaramal bəsləyir. O, hər il süni mayalama yolu ilə cins düyələr əldə edir. Dövlətin heyvandarlıq sahəsinə göstərdiyi dəstəkdən yararlanan M.Əliyev daha çox məhsuldarlığa fikir verir.

Fermer Fuad Abbasov isə təsərrüfatında moruq yetişdirməklə məşğuldur. Fəaliyyətə 1 hektar sahədə moruq əkini ilə başlayan təsərrüfat sahibinin indi 7,3 hektarda intensiv moruq bağı var. İl ərzində hər hektardan orta hesabla 8 tona yaxın məhsul götürülən təsərrüfatda hazırda 20-25 nəfər işçi çalışır.

*Sabir ƏLİYEV, "Azərbaycan"*

## Xızı yay turizm mövsümünə hazırlaşır




**Dağlar qoynunda məskən salan Xızı turistlərin yayda ən çox üz tutduqları bölgələrimizdəndir. O səbəbdən hər il aprel ayından turizm mövsümünə start verilir. Çünki Xızıya turistlər əsasən bu ərəfədən təşrif buyurmağa başlayıblar.**

Rayon mərkəzində sututarlar, arxlar təmizlənir, kəndlərə gedən yollar təmir edilir. Altıağac və Qızılqazma istiqamətində yollarda asfaltlanma işləri aparılır, yol kənarlarına ağaclar əkilir və onlara texniki qulluq göstərilir. Həmçinin səkilərin kənarı rənglənir, maşınların rahat hərəkətini təmin etmək üçün nişanlar yenilənir.

Bu işlərin çoxu rayonda keçirilən iməciliklərdə görülür. Rayonda fəaliyyət göstərən təşkilatlar, ictimaiyyət nümayəndələri, təhsil müəssisələrinin kollektivlərinin yaxından iştirak etdikləri iməcilikdə ağaclar əkilir, ətraf ərazilərin sanitariya vəziyyətinin yaxşılaşdırılması istiqamətində müxtəlif işlər görülür, suvarma üçün ayrılan, yağışlar nəticəsində palçıqla dolan kanallar təmizlənir.

Paralel olaraq Xızının iri istirahət mərkəzlərində monitorinqlər aparılır. Bu zaman istirahət mərkəzlərinin yollarının təmirinə, abadlıq işlərinə, təmizliyə ciddi fikir verilir.

*Akif ƏLİYEV, "Azərbaycan"*

## Torpaqlar istifadəsiz qalmayacaq

### Laçının Zabux, Ağdərənin Həsənriz kəndlərinin və Xocavəndin Qırmızı Bazar qəsəbəsinin sakinləri ilə torpaqların əkin məqsədli istifadəyə verilməsinə dair icarə müqavilələri imzalanıb

**Laçın rayonunun Zabux, Ağdərə rayonunun Həsənriz kəndlərinin və Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinin sakinləri ilə torpaqların əkin məqsədli istifadəyə verilməsinə dair icarə müqavilələri imzalanıb.**

Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumatda bildirilir ki, bununla bağlı keçirilən tədbirdə adıçəkilən nazirliyin, Laçın rayonu üzrə Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin əməkdaşları, nazirliyin Aparatı və tabeliyində olan qurumların məsul şəxsləri, Laçın, Tərtər və Xocavənd Dövlət Aqrar İnkişaf mərkəzlərinin əməkdaşları, kənd sakinləri, fermerlər və sahibkarlar iştirak ediblər.

Kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova bildirib ki, Zabux, Həsənriz kəndləri və Qırmızı Bazar qəsəbəsi üzrə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 27 noyabr tarixli fərmanının 4.1-ci bəndi və Nazirlər Kabinetinin 2024-cü il 26 dekabr tarixli, 544 nömrəli qərarı ilə təsdiqlənən "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatı təyinatlı torpaqların kənd və qəsəbə sakinlərinə güzəştli şərtlərlə icarəyə verilməsi Qaydaları"na əsasən həyata keçirilir.



Nazir müavini qeyd edib ki, torpaqların əkin məqsədli istifadəyə verilməsi üçün kənd və qəsəbə sakinlərindən müraciətlərin qəbulu prosesi Zabux kəndi üzrə 2025-ci il 25 sentyabr-25 oktyabr, Həsənriz kəndi üzrə 2025-ci il 30 dekabr-2026-cı il 2 fevral və Qırmızı Bazar qəsəbəsi üzrə isə 2026-cı il 13 fevral-13 mart tarixləri arasında Elektron Kənd Təsərrüfatı İnformasiya Sistemi (EKTİS) vasitəsilə aparılıb. Ümumilikdə kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi ilə bağlı Zabux kəndi sakinlərindən 145, Həsənriz kəndi sakinlərindən 139 və Qırmızı Bazar qəsəbəsi sakinlərindən isə 84 müraciət daxil olub. Torpaqların istifadəyə verilməsi prosesinin nəzərdə tutulan vaxtda yekunlaşdırılması məqsədilə Laçın, Tərtər və Xocavənd Dövlət Aqrar İnkişaf mərkəzlərinin əməkdaşları tərəfindən kənd sakinlərinə hərtərəfli texniki dəstək göstərilib.

Daxil olan müraciətlər təhlil edilib, təqdim edilən parsellərə müraciətlər çox olduğu üçün qaydalara əsasən birləşmə imkanları barədə məlumatlandırma aparılıb. Nəticədə müraciətləri təsdiqlənmiş şəxslərdən Zabux kəndi üzrə 62 nəfər tərəfindən 8 kooperativ, Həsənriz kəndi üzrə 37 nəfər tərəfindən 4 və Qırmızı Bazar qəsəbəsi üzrə isə 8 nəfər tərəfindən 2 ailə kəndli təsərrüfatları formalaşdırılıb. İlkin mərhələdə Kənd Təsərrüfatı Nazirliyi ilə kooperativlər və ailə kəndli təsərrüfatlarında birləşmiş kənd sakinləri arasında icarə müqavilələri imzalanıb.

Qaydalara əsasən, istifadəsinə torpaq sahələri verilmiş kənd sakinləri torpaqlardan təyinatına uyğun istifadə etməli, ərazinin iqlim şəraitinə uyğun və mütəxəssislərin tövsiyə etdikləri bitkiləri yetişdirməli, yalnız sertifikatlı toxum və tinglərdən istifadə etməli, torpaqların mühafizəsi, keyfiyyətinin qorunması, bərpası və yaxşılaşdırılması üçün müvafiq aqrotexniki tədbirlər görməlidirlər. Müəyyən olunmuş qaydalara əməl etməyən sakinlərlə bağlanmış icarə müqavilələrinə xitam veriləcək, torpaq sahələri təyinatına uyğun istifadə üçün digər kənd sakinlərinin istifadəsinə veriləcək.

İcarə müqavilələrinin müddəti birillik bitkilər və yonca üçün 2 il, çoxillik bitkilər üçün isə 5 il təşkil edir. Növbəti illərdə torpaqdan səmərəli istifadənin nəticələrinə uyğun olaraq müqavilələrin müddəti uzadıla bilər.

Tədbir çərçivəsində kənd sakinlərinə aqrar sahədə dövlət dəstəyi tədbirləri, Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində olan qurumların göstərdiyi xidmətlər, aqrar subsidiya mexanizmi, texnika və damazlıq heyvanların alınmasının maliyyələşdirilməsi, kənd təsərrüfatı təyinatlı kreditlərin ayrılması, müasir suvarma sistemlərindən istifadənin əhəmiyyəti və aqrar sığorta mexanizminin tətbiqi ilə bağlı məlumatlandırma sessiyaları təşkil olunub, fermerlərin Laçın şəhərində keçirilən Aqrar Biznes Festivalında iştirakı təmin edilib.

Xatırladaq ki, kənd təsərrüfatı təyinatlı torpaqların əkin məqsədli istifadəyə verilməsi ilə bağlı keçirilən təlimlərdə Zabux, Həsənriz kəndləri və Qırmızı Bazar qəsəbəsi üzrə torpaqların istifadəyə verilməsi üçün EKTİS vasitəsilə müraciətlərin qəbulu qaydaları, şərtlər və tələblər, müasir suvarma sistemlərinin əhəmiyyəti, səmərəli təsərrüfatçılığın təşkili, texnikalardan səmərəli istifadə qaydaları, tərəvəzçilik, bitkiçilik, meyvəçilik, əkinçilik, aqrar sahədə fermerlərə göstərilən dövlət dəstəyi tədbirləri, işğaldan azad olunmuş ərazilərdə davranış qaydaları və iqlim dəyişkənliyinin kənd təsərrüfatına təsirləri mövzularında məlumatlandırma aparılıb.

Təlimləri uğurla başa vuran kənd sakinlərinə sertifikatlar təqdim olunub. Müqavilə imzalayan bütün fermerlər qeyd edilən təlimləri uğurla başa vurublar.

*Lazım QULİYEV, "Azərbaycan"*

## Qusarda yağışlardan 170-dən çox fermer ziyan görüb

**Ölkə ərazisində, o cümlədən Qusar rayonu ərazisində müşahidə olunan intensiv və aramsız yağıntılar ciddi fəsadlara səbəb olmuşdur. Güclü yağışlar nəticəsində rayonun sosial-iqtisadi infrastrukturu zərər görmüşdür. Kənd təsərrüfatı isə ən çox ziyan çəkən sahələrdən olmuşdur.**

Yağıntılar geniş əkin sahələrinin və çoxillik bağların su altında qalması, torpaq örtüyünün yuyulması və sahələrin yararsız vəziyyətə düşməsi ilə nəticələnmişdir. İlkin hesablamalara görə, 170-dən artıq fermerə məxsus təsərrüfat zərər görmüş, 380 hektardan çox əkin sahəsi ciddi ziyana məruz qalmışdır.

Hazırda Qusar Dövlət Aqrar İnkişaf Mərkəzinin mütəxəssisləri tərəfindən zərərçəkmiş ərazilərə baxış keçirilir, dəymiş ziyan qiymətləndirilir, fermerlər və təsərrüfat rəhbərləri ilə söhbətlər aparılır.



Rayonda həmçinin gələcəkdə bu kimi halların təkrarlanacağı zamanı ortaya çıxacaq mümkün fəsadların qarşısının alınması, zərərin aradan qaldırılması istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirilir. Eyni zamanda oxşar təbii hadisələrə qarşı qabaqlayıcı tədbirlərin görülməsi, infrastrukturun dayanıqlılığının artırılması və aidiyyəti qurumların belə hadisələrə hazırlıq səviyyələrinin yüksəldilməsi istiqamətində işlər davam edir.

*A.ƏLİYEV, "Azərbaycan"*

Jurnalist araşdırması

# Sosial mediadan səmərəsiz istifadənin psixoloji təsirləri

Rəqəmsal texnologiyaların sürətlə inkişaf etdiyi XXI əsrdə sosial media artıq, sadəcə, ünsiyyət vasitəsi deyil, insanların düşüncə tərzinə, gündəlik vərdişlərinə və həyat ritminə təsir edən qlobal fenomenə çevrilib. Milyonlarla insan gününü xəbərləri yoxlamaq, paylaşımlara baxmaq, videolar izləmək və bildirişlərə cavab verməklə başlayır və bitirir.

Dünyada təxminən 5,66 milyard insanın sosial media istifadəçisi olması, yəni hər 10 nəfərdən 7-nin bu platformalarda aktiv yer alması onun həyatımızdakı yerini aydın şəkildə göstərir. İnsanların gün ərzində orta hesabla 2 saat 21 dəqiqəni sosial mediada keçirməsi isə ekran qarşısında sərf olunan vaxtın nə qədər böyük həcmdə olduğunu ortaya qoyur. Çin dünyada ən çox sosial media istifadəçisinə malik ölkədir. Burada 1,18 milyard insan sosial mediadan istifadə edir və bu rəqəmin 2030-cu ilə qədər 1,36 milyarda çatacağı gözlənilir. Hindistan, ABŞ və İndoneziya sosial media istifadəçilərinin sayına görə ən yüksək göstəriciyə malik ölkələrdir.

Azərbaycanda da vəziyyət oxşardır. 2025-ci ilin statistikasına görə, ölkədə 9,23 milyon nəfər internet istifadəçisidir və bu, əhalinin 89 faizini təşkil edir. 6,73 milyon aktiv sosial media istifadəçi kimliyi qeydə alınıb. Bu göstərici əhalinin 64,9 faizinə bərabərdir. Xüsusilə 18 yaşdan yuxarı əhali arasında sosial mediadan istifadə səviyyəsinin 87,7 faizə çatması bu platformaların cəmiyyətin gündəlik davranışlarına nə qədər nüfuz etdiyini göstərir. Lakin sosial medianın geniş yayılması ilə yanaşı, onun həddindən artıq istifadəsinin yaratdığı problemlər də getdikcə daha çox müzakirə olunur.

Araşdırmalar göstərir ki, xüsusilə telefon vasitəsilə sosial mediadan istifadə daha impulsiv və şüuraltı xarakter daşıyır. İnsanlar gəzərkən, film izləyərkən, hətta başqaları ilə söhbət edərkən belə fərqinə varmadan ekranlara yönəlirlər. Bu isə diqqət dağınıqlığına, məhsuldarlığın azalmasına, yuxu rejiminin pozulmasına, stres və narahatlıq hissinin artmasına səbəb ola bilər.

### Sosial mediadan həddindən artıq istifadə həm də sağlamlıq üçün risk faktorudur

Bir zamanlar insanları bir-birinə yaxınlaşdırmaq məqsədilə yaradılan sosial media platformaları bu gün həm də zamanımızı idarə edən, diqqətimizi bölən və davranışlarımızı formalaşdıran güclü rəqəmsal məkana çevrilib. Mövzu ilə bağlı qəzetimizə açıqlama verən Psixologiya Elmi-Tədqiqat İnstitutunun sədri, psixoloq Elnur Rüstəmovun sözlərinə görə, son illərdə sosial media insan psixologiyasına təsir baxımından artıq passiv informasiya mənbəyi olmaqdan çıxaraq aktiv davranışı formalaşdıran mühitə çevrilib. Bu dəyişimin əsas səbəbi platformaların istifadəçi davranışını öyrənən və ona uyğunlaşan alqoritmlərlə işləməsidir. Bu alqoritmlər insanın diqqətini maksimum müddətdə saxlamağa yönəlib və bu prosesdə neyropsixoloji mexanizmlərdən istifadə olunur. Xüsusilə dopamin sistemi burada əsas rol oynayır. Hər dəfə istifadəçi gözlənilməz





şəkildə müsbət sosial siqnal, məsələn, bəyənmə və ya müsbət rəy aldıqda beyində mükafat hissi yaranır. Bu isə dəyişkən gücləndirmə mexanizmi ilə eyni prinsipə əsaslanır və qumar asılılığı ilə oxşar davranış modelini formalaşdırır. İnsan növbəti "mükafat"ı almaq üçün platformaya yenidən qayıdır. Bununla yanaşı, sosial identiklik və qəbulolunma ehtiyacı da bu bağlılığı gücləndirir.

"İnsan sosial varlıqdır və başqaları tərəfindən qəbul olunmaq onun psixoloji təhlükəsizlik hissinin bir hissəsidir. Sosial media bu ehtiyacı sürətli və vizual şəkildə təmin etdiyi üçün asılılıq riski artır. "Qaçırmaq qorxusu" kimi tanınan fenomen isə istifadəçini davamlı olaraq yenilənən kontent axınına bağlayır. Asılılığın klinik baxımdan müşahidə olunan əlamətləri arasında istifadə müddətinə nəzarətin itirilməsi, planlaşdırılmamış uzun istifadə, real həyat fəaliyyətlərinə marağın azalması, diqqət və yaddaş problemləri, emosional asılılıq və platformadan uzaq qalanda narahatlıq hissi xüsusi qeyd edilməlidir. Bu, artıq davranış asılılığı kimi qiymətləndirilə bilən bir vəziyyətə çevrilir", - deyə psixoloq qeyd edib.

Sosial mediadan həddindən artıq istifadə yalnız vaxt itkisi deyil, eyni zamanda psixi sağlamlıq üçün sistemli risk faktorudur. Mütəxəssis bildirib ki, davamlı sosial müqayisə mexanizmi insanın özünə münasibətini dəyişir: "İnsanlar başqalarının həyatının idealizə olunmuş versiyası ilə öz real həyatlarını müqayisə etdikcə özünüqiymətləndirmə aşağı düşür və bu, daxili narazılıq yaradır. Bunun nəticəsində depressiv simptomlar, özünü yetərsiz hissetmə, narahatlıq pozuntuları və sosial izolyasiya kimi hallar güclənə bilər. Xüsusilə gecə saatlarında sosial mediadan istifadə yuxu hormonlarının balansını pozur, bu isə həm emosional sabitliyə, həm də kognitiv performansa mənfi təsir edir".

Risk qrupları arasında yeniyetmələrin xüsusi yer tutduğunu deyən E.Rüstəmov qeyd edib ki, bu yaş dövründə şəxsiyyət formalaşması davam edir və xarici təsirlər daha güclü qəbul olunur. Eyni zamanda emosional həssaslıq yüksək olur. Özünə inamı zəif olan, sosial dəstəyi məhdud olan və real həyatda özünü təsdiq etməkdə çətinlik çəkən fərdlər də daha tez bu təsirin altına düşürlər. Qoruyucu tədbirlər kompleks yanaşma tələb edir. Ailə səviyyəsində açıq kommunikasiya, valideyn nəzarəti və nümunəvi davranış mühümdür. Təhsil sistemində rəqəmsal savadlılıq və psixoloji maarifləndirmə vacib rol oynayır. Fərdi səviyyədə isə zaman limitləri, texnologiya ilə məsafəli münasibət və idman, sosial ünsiyyət, yaradıcılıq kimi alternativ fəaliyyətlərin artırılması əsas strategiyalardır.

### Davamlı neqativ xəbər axını insan beynində təhlükə və stres siqnallarını aktiv saxlayır

Sosial mediada yayılan neqativ və aqressiv kontentlər insan psixikasına tədricən, lakin dərin təsir göstərir. Bu təsir birbaşa deyil, yığılmış (kumulativ) xarakter daşıyır. Psixoloq bildirib ki, davamlı neqativ xəbər axını insan beynində təhlükə və stres siqnallarını aktiv saxlayır. Bu isə xroniki gərginlik, emosional yorğunluq və hətta travmatik reaksiyalara səbəb ola bilər. Zorakılıq səhnələrinin, aqressiv davranışların və nifrət nitqinin tez-tez müşahidə edilməsi zamanla desensitizasiya yarada bilər. Yəni insan bu cür hallara qarşı emosional həssaslığını itirə və onları normal qəbul etməyə başlaya bilər. Digər tərəfdən, bəzi fərdlərdə əksinə olaraq qorxu, narahatlıq və güvənsizlik hissi güclənir. Bundan qorunmaq üçün informasiya gigiyenası anlayışı xüsusi əhəmiyyət daşıyır. İnsanlar izlədikləri kontenti filtr etməyi öyrənməli, emosional reaksiyalarını müşahidə etməli və psixoloji yük yaradan mənbələri məhdudlaşdırmalıdırlar. Eyni zamanda "doomscrolling" adlanan, yəni davamlı neqativ xəbər oxuma vərdişindən uzaqlaşmaq üçün şüurlu fasilələr və kontent seçimi tətbiq olunmalıdır.

"Sosial media detoksu müasir dövrdə psixoloji balansı bərpa etmək üçün effektiv metodlardan biri kimi qəbul olunur. Bu, yalnız texnologiyadan uzaqlaşmaq deyil, həm də diqqətin və şüurun yenidən strukturlaşdırılması prosesidir. Detoks müddətində insan beyninin davamlı stimul ehtiyacı azalır və diqqət resursları bərpa olunur. Araşdırmalar göstərir ki, sosial mediadan müvəqqəti uzaqlaşma yuxu keyfiyyətini yaxşılaşdırır, stres hormonlarını azaldır və emosional sabitliyi artırır. Tədqiqatlar nəticəsində məlum olub ki, cəmi bir həftə telefondan daha az istifadə etmək narahatlığı 16,1 faiz, depressiyanı 24,8 faiz və yuxusuzluğu 14,5 faiz azaldır", - deyə mütəxəssis deyib.

Detoksun effektivliyi üçün onun planlı şəkildə həyata keçirilməsinin vacibliyini vurğulayan Elnur Rüstəmov bildirib ki, gündə müəyyən saatların "ekransız zaman" kimi müəyyən edilməsi, yatmazdan əvvəl sosial media istifadəsinin dayandırılması və ya həftədə bir gün tam rəqəmsal fasilə tətbiqi praktik baxımdan effektiv yanaşmalardır. Sosial medianın yalnız risklər üzərindən qiymətləndirilməsi düzgün olmaz. Bu platformalar düzgün istifadə edildikdə ciddi inkişaf və təsir alətinə çevrilə bilər. Xüsusilə elm, təhsil və psixoloji maarifləndirmə sahəsində sosial media geniş auditoriyaya çıxış imkanı yaradır.

Psixologiya sahəsində doğru və elmi əsaslı kontentlərin paylaşılması insanların psixi sağlamlıq haqqında məlumatlılığını artırır. Psixoloqun sözlərinə görə, sosial media platformalarından effektiv istifadə üçün əsas prinsip buna məqsədyönlü yanaşmadır. İstifadəçi öz fəaliyyətini planlamalı, kontent istehlakı və istehsalı arasında balans yaratmalı və texnologiyanı alət kimi istifadə etməlidir. Sosial media üzərində nəzarəti itirməmək üçün fərdi qaydalar - zaman limiti, kontent seçimi və emosional monitorinq tətbiq olunmalıdır. Ona görə də sosial media nə mütləq risk, nə də, tam fayda mənbəyidir. Onun təsiri istifadəçinin psixoloji hazırlığından, davranış strategiyasından və həyat balansından asılıdır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Biz niyə başıaşağı olmuşuq

Bir vaxtlar insanlar yol gedərkən ətrafı seyr edər, düşünər, bəzən də, sadəcə, susub iç dünyasına qulaq asardılar. İndi isə başımız aşağıdır — amma düşüncəyə deyil, əlimizdəki smartfona. Sanki hamımız görünməz bir ip ilə telefonlarımıza bağlanmışıq. Evdə, ictimai nəqliyyatda, küçədə, hətta sükan arxasında belə bu bağlılıqdan qurtula bilmirik.



Telefon artıq, sadəcə, ünsiyyət vasitəsi deyil. O, həm dostdur, həm əyləncə, həm xəbər mənbəyi, həm də sanki istirahət vasitəsi. Yorulduqda onu götürürük, darıxanda ona sığınırıq, hətta bəzən real həyatdan daha maraqlı hesab edirik onu. Bu isə tədricən bizi ətrafımızdan uzaqlaşdırır, sosial münasibətlərimizə təsir edir. Eyni otaqda oturan doğmalar belə bir-biri ilə deyil, smartfonlarla "söhbət edir", bir evin içində sözlərini, fikirlərini onun vasitəsilə çatdırırlar.

Metroda, avtobusda diqqət etsək görərik ki, demək olar, hamının başı aşağıdır. Kimisi sosial şəbəkələrdə gəzir, kimisi videolara baxır, kimisi yazışır, kimisi də oyun oynayır. Kənardan baxanda hamı ətrafından xəbərsiz görünür. Halbuki başının üstündə qoca, uşaq, əlil dayanıb. Lap bu olmasa belə həmin an kimsə qəzet oxuya, pəncərədən baxıb düşünə, ya da, sadəcə, beynini bir az dincəldə bilərdi. Amma biz dəqiqələr çəkən bu boşluqdan səmərəli istifadə etmirik. Çünki telefon bu boşluğu dolduran ən asan vasitəyə çevrilib.

Bu mərəzin daha təhlükəli tərəfi isə sükan arxasında və ya yol keçərkən özünü göstərir. Bir neçə saniyəlik diqqət yayınıqlığı bəzən geri dönüşü olmayan nəticələrə səbəb olur. Amma buna baxmayaraq, "bir mesaj yazım", "tez baxım" düşüncəsi üstün gəlir. Bu, artıq, sadəcə, vərdiş deyil, asılılıqdır. İnsan riskin fərqində olsa belə özünü saxlaya bilmir.

Evdə də vəziyyət eynidir. Ailə üzvləri bir araya gəlsə də, hər kəs öz telefonu ilədir. Belə olanda birlikdə keçirilən vaxtın keyfiyyəti azalır, halbuki ən dəyərli anlar məhz ailə birliyindədir. Amma biz bunu çox vaxt gec anlayırıq.

Boş qalan vaxtı telefondan istifadə ilə doldurmağa çalışmağın əsas səbəbi rahatlıq və əlçatanlıqdır. Telefon bizə hər şeyi asanlıqla verir – məlumatı, əyləncəni, ünsiyyəti. Beyin isə həmişə asan olanı seçir. Üstəlik, sosial şəbəkələr insanın diqqətini saxlamaq üçün hazırlanıb — hər "bildiriş", hər "layk" kiçik bir məmnunluq hissi yaradır və biz bunu təkrar-təkrar yaşamaq istəyirik.

Amma bu zaman biz əlimizdəki cihazın sağlamlığımıza vurduğu zərərlərin fərqinə varmırıq. Telefondan hədsiz istifadə istər fiziki, istərsə də psixoloji səviyyədə özünü göstərir. Bəzən fərqində olmadan saatlarla eyni vəziyyətdə, başıaşağı, hərəkətsiz smartfona baxmaq ciddi problemlərlə nəticələnir. Fiziki baxımdan ilk zərbə gözlərə dəyir. Ekrana uzun müddət fokuslanmaq göz quruluğu, yanma hissi və bulanıq görmə yaradır. Xüsusilə qaranlıq mühitdə telefondan istifadə bu təsiri daha da gücləndirir. Uzun müddətdə bu hal görmə zəifliyinə və göz yorğunluğunun xroniki hala keçməsinə səbəb ola bilər. Bununla yanaşı, davamlı aşağı baxmaq boyun



fəqərələrinə həddindən artıq yük salır. Bu, zamanla bel ağrılarına, duruş pozğunluğuna və onurğa problemlərinə gətirib çıxarır. Telefondan davamlı istifadə diqqətsizliyə, yuxu rejiminin pozulmasına da səbəb olur. Mütəxəssislərin bildirdiyinə görə, yatmazdan əvvəl telefona baxmaq beynin istirahətə keçməsini gecikdirir. Ekrandan gələn işıq melatonin hormonunun ifrazını azaldır və bu da yuxuya getməyi çətinləşdirir. Nəticədə səhərlər yorğun oyanmaq, gün ərzində enerjisizlik və diqqətsizlik yaranır.

Amma bir sual maraqlıdır: biz smartfonlardan istifadə edirik, yoxsa onlar bizdən? Əgər gün ərzində neçə dəfə səbəbsiz telefona baxdığımızı hesablasaq, bəlkə özümüz də təəccüblənərik. Bu, artıq nəzarətdən çıxaraq vərdişə, hətta asılılığa çevrilib.

Texnologiya həyatımızı asanlaşdırmaq üçündür. Amma düzgün istifadə etmədikdə o, bizi idarə etməyə başlayır. Əsas məsələ balansı qorumaq və real həyatı virtual dünyadan üstün tutmağı bacarmaqdır. Bəzən bu cihazı kənara qoymaq, real dünyaya qayıtmaq, boş vaxtları daha faydalı fəaliyyətlərlə – idman, kitab oxuma, açıq havada gəzinti və doğmalarla ünsiyyətə vaxt ayırmaqla doldurmaq lazımdır. Yol gedərkən başımızı qaldırıb ətrafa baxmaq, yaxınlarımızla göz təması qurmaq, sükan arxasında isə yalnız yola fokuslanmaq — bunlar kiçik, amma çox vacib vərdişlərdir.

Çünki həyat smartfonda deyil, o, başımızı qaldırdığımız anda başlayır.

Başınızı dik tutun!

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

# Avropada həyəcan təbili

## Uşaqların sosial şəbəkələrin doğurduğu təhlükələrdən qorunmasına yönəlmiş qaydalar sərtləşdirilir

Həyatımızın ayrılmaz hissəsinə çevrilən rəqəmsal platformalar dünyanı bizim üçün daha əlçatan edir. Lakin burada uşaqlar nəzarətsiz qaldıqda müəyyən risklərlə üzləşirlər. Onlar yaşlarına uyğun olmayan məlumatlarla rastlaşa və ya zərərli vərdişlərə meyil edə bilərlər.

Bu səbəbdən valideynlər övladlarının virtual fəaliyyətinə diqqət yetirməli və onları təhlükələrdən qorumalıdırlar. Məhz bu amili nəzərə alaraq, həm Azərbaycanda, həm də dünyanın bir çox ölkəsində uşaqların rəqəmsal təhlükəsizliyi ilə bağlı qanunvericilik bazası təkmilləşdirilir və tətbiq dairəsi genişləndirilir.

Bu yaxınlarda Prezident İlham Əliyev "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununu təsdiq edib. Yeni qanunun qəbulunda məqsəd mövcud qanunvericiliyin müasir çağırışlar nəzərə alınmaqla təkmilləşdirilməsi, uşaq mənafelərinin daha effektiv qorunması, sosial təminat mexanizmlərinin gücləndirilməsi və beynəlxalq konvensiyaların tələblərinə uyğunlaşdırılmasıdır. "Uşaq hüquqları haqqında" yeni qanun ölkədə uşaqlar barəsində dövlət siyasətinin əsas prinsiplərini, onların hüquq və azadlıqlarını, həmin hüquq və azadlıqların həyata keçirilməsi sahəsində dövlət təminatlarını və dövlət nəzarətinin əsaslarını müəyyən edir.

Avropa üzrə isə bir çox ölkə uşaqların və yeniyetmələrin rəqəmsal platformalarda nəzarətsiz vaxt keçirməsi nəticəsində yaranan riskləri azaltmaq məqsədilə sosial mediadan istifadəyə dair yeni məhdudiyyətlər və qaydalar hazırlayır. Belə ki, uşaqların sosial şəbəkələrdə uyğunsuz məzmuna məruz qalması, asılılıq riski və psixi sağlamlığa mənfi təsirləri Avropada getdikcə daha çox ölkəni bu sahədə tədbirlər görməyə sövq edir.

Böyük Britaniyanın Baş naziri Kir Starmer bildirib ki, valideynlər uşaqlarının internet təhlükəsizliyi ilə bağlı narahatdırlar və buna görə sosial media şirkətlərinin nümayəndələrini daha sürətli addımlar atmağa çağırıblar: "Sosial media uşaqların özlərini necə gördüyünü, dostluqlarını və ətrafdakı dünyanı formalaşdırır. Bu risklərə göz yummaq mümkün deyil. Böyük Britaniyada mövcud qaydalar uşaqları internetin zərərli təsirlərindən qorumaqda kifayət etmir və yaxın vaxtlarda 16 yaşdan aşağı şəxslərin sosial mediadan istifadəsinin qadağan edilməsi və ya məhdudlaşdırılması üçün addım atılacaq".





Avropa Komissiyasının sədri Ursula fon der Lyayen isə uşaqların onlayn təhlükəsizliyini artırmaq üçün hazırlanan "rəqəmsal yaş yoxlama sistemi"nin texniki cəhətdən hazır olduğunu və yaxın zamanda istifadəyə veriləcəyini bildirib. O, sosial media platformalarının yüksək dərəcədə asılılıq yaradan dizaynlara malik olduğunu, xüsusilə "sonsuz sürüşdürmə" funksiyasının bu asılılığı gücləndirdiyini qeyd edib.

Yunanıstanda 15 yaşdan aşağı olan uşaqların sosial mediadan istifadəsinin 2027-ci il yanvarın 1-dən qadağan ediləcəyi açıqlanıb. Baş nazir Kiryakos Mitsotakis bildirib ki, son illərdə valideynlər və mütəxəssislərlə aparılan müzakirələrdə uşaqların stres yaşadığı, yuxu problemləri olduğu və daim telefondan istifadə etdiyi qeyd olunub. Finlandiyada səhiyyə və təhsil qurumları 13 yaşdan kiçik uşaqlara şəxsi smartfon verilməməsini və sosial şəbəkələrdən istifadə etməmələrini tövsiyə edib. Baş nazir Petteri Orpo da 15 yaşdan aşağı uşaqlar üçün sosial media qadağasını dəstəklədiyini bildirib.

İsveç hökuməti ibtidai və orta məktəblərdə dərs zamanı diqqətin artırılması üçün telefonların qadağan edilməsini planlaşdırır. Danimarka isə 15 yaşdan aşağı uşaqlar üçün sosial media qadağası üzərində işləyir və bununla bağlı yaş yoxlama sistemləri tətbiq etməyi planlaşdırır. Norveç hökuməti isə 15 yaşdan aşağı uşaqlar üçün sosial mediaya qadağa nəzərdə tutan qanun layihəsi üzrə ictimai müzakirələrə başlayıb. Fransa Senatı 15 yaşdan aşağı uşaqlar üçün müəyyən şərtlərlə sosial media qadağasını nəzərdə tutan qanun layihəsini qəbul edib. Layihəyə görə platformalar istifadəçi yaşını yoxlamaq məcburiyyətində olacaq. Həmçinin Polşada 16 yaşdan aşağı şagirdlərin məktəblərdə mobil telefondan istifadəsi 1 sentyabrdan qadağan ediləcək. Almaniyada da xüsusi komissiyanın uşaqlar və yeniyetmələrin rəqəmsal mühitdə qorunması ilə bağlı yaş məhdudiyyətləri və məktəblərdə telefon qadağaları barədə tövsiyələr hazırlaması gözlənilir.

İspaniya 16 yaşdan aşağı uşaqların sosial şəbəkələrə girişini qadağan etməyi planlaşdırır və platformaların məsuliyyətini artıran qanunlar hazırlayır. Portuqaliyada isə 13 yaşdan kiçik uşaqlar üçün sosial şəbəkələr qadağan edilir, 13-16 yaş arasında olanlar isə yalnız valideyn və ya müəllimin icazəsi ilə bu platformadan istifadə edə biləcəklər. Avstriyada 14 yaşdan aşağı uşaqlar üçün sosial media qadağası barədə razılıq əldə olunub. Çexiyada 15 yaşdan aşağı uşaqlar üçün sosial media qadağası dəstəklənir. Sloveniyada da 15 yaşdan aşağı uşaqlar üçün məhdudiyyətlər nəzərdə tutulur. Baltik ölkələrində (Estoniya, Latviya və Litva), xüsusilə məktəblərdə telefon və sosial media istifadəsinə məhdudiyyətlər artırılır. İtaliyada da 15 yaşdan aşağı uşaqlar üçün sosial media qadağası üzərində iş aparılır.

Avropa Parlamenti isə Aİ ərazisində sosial media istifadəsi üçün 16 yaş həddi tətbiq edilməsini tövsiyə edib. 13-16 yaşarası uşaqların yalnız valideyn icazəsi ilə platformalara daxil ola bilməsi təklif olunur. Ümumilikdə Avropada uşaqların sosial mediaya çıxışının ya məhdudlaşdırılması, ya da ciddi yaş yoxlama sistemləri ilə tənzimlənməsi istiqamətində ciddi iş aparılır.

Artıq dünya görür ki, rəqəmsal aləmin yaratdığı risklər uşaqların fiziki və psixi sağlamlığı üçün qlobal bir təhdidə çevrilib. Bu səbəbdən bir çox Avropa ölkəsində sərt yaş məhdudiyyətlərinin tətbiqi uşaqların virtual mühitdə təhlükəsizliyini təmin etmək məqsədi daşıyır. Onlar sosial media platformalarının məsuliyyətini artırmaqla və yaş yoxlama sistemlərini tətbiq etməklə böyüyən nəsli rəqəmsal asılılıqdan və zərərli məzmunlardan qorumağı prioritet vəzifə hesab edirlər.

*Təhminə VERDİYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*





# Mədəniyyət





● Musiqi xadimlərimiz

# Atası onu riyaziyyatçı etmək istəyirdi, bəstəkar oldu

**Onun boya-başa çatdığı ailədə nə musiqiçi olub, nə də musiqi aləti. Ancaq musiqiyə sonsuz sevgi ruhunda böyüyüb Oqtay Rəcəbov. Xüsusilə anasının oxuduğu laylalar, onun musiqiyə böyük məhəbbəti gələcəyin bəstəkarının mənəvi aləmində dərin izlər buraxıb...**



Oqtay Rəcəbov 1941-ci il aprelin 5-də Bakıda dünyaya göz açıb. Valideynləri pedaqoq olub. Anası coğrafiya, atası isə riyaziyyat müəllimi idi. 1948-ci ildə Bakıdakı 31 saylı məktəbin 1-ci sinfinə gedən Oqtayı həm də Bakıdakı 1 saylı Uşaq Musiqi Məktəbinin skripka sinfinə qoyublar. Skripka alətində ifa etməyi öyrəndikcə musiqiyə heyranlığı daha da artıb.

Evlərində piano yox idi. 10 yaşı olanda ona köhnə bir piano alıblar. Həmin piano Oqtay Rəcəbovun ən böyük məşğuliyyətinə çevrilib. Vaxtı olan kimi onun arxasına keçib.

Orta məktəbi bitirdikdən sonra daxil olacağı ali təhsil müəssisəsini atasının təkidi ilə seçib. Oqtay Rəcəbovun ixtisasca riyaziyyatçı olan atası istəyirdi ki, oğlu onun yolunu davam etdirsin. Odur ki, gənc Oqtay 1958-ci ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) Fizika və istehsalatın əsasları fakültəsinə daxil olub. 1963-cü ildə həmin institutu bitirib. Azərbaycan EA-nın Fizika İnstitutunda aspirant təhsili almağa başlayıb.

Aspiranturanın ikinci kursunda oxuyanda bir gün Azərbaycan Dövlət Konservatoriyasında görkəmli bəstəkar, Xalq artisti Fikrət Əmirovla qarşılaşıb. Oqtay Rəcəbov illər sonra həmin görüşü belə xatırlayıb: "O, məndən nə işlə məşğul olduğumu soruşdu. Dedim ki, Fizika İnstitutunda aspiranturanın ikinci kursunda oxuyuram. Lazer şüaları ilə əlaqədar dissertasiya yazıram, elmi işimin xeyli hissəsi də artıq hazırdır. Amma laboratoriyada otura bilmirəm. O, mənə belə cavab verdi: "Siz fiziklər atom bombası yaradıb dünyanı məhv etmək istəyirsiniz. Biz liriklər isə insanları gözəlliyə, gözəlliklər yaratmağa cəlb edirik. İndi sən özün fikirləş, hansından olmaq istəyirsən?" Mən həmin gün Fizika İnstitutuna gedib aspiranturadan çıxmaq haqqında ərizə verdim".

Əslində, uzun illər çəkdiyi zəhmətin bəhrəsini görməyə, elmi ad almağa yaxın olduğu vaxtda belə bir qərar vermək asan məsələ deyildi. Ancaq musiqiyə vurğunluğu o qədər böyük idi ki, qəlbi yeni planların, xoş xəyalların həyəcanı ilə sanki köksünə sığmırdı.

Artıq ali məktəblərə sənədlərin qəbuluna başlanılmışdı. O da sənədlərini Azərbaycan Dövlət Konservatoriyasına verib imtahanlardan uğurla keçərək konservatoriyanın Bəstəkarlıq şöbəsinə daxil oldu. Xalq artisti, Dövlət mükafatları laureatı Cövdət Hacıyevin sinfinə düşdü. Sonralar müəllimi haqqında deyib: "Cövdət Hacıyev mənim yaradıcılığımda çox böyük iz qoyub. Bir müəllim, bir bəstəkar kimi mən həmişə ona səcdə etmişəm".

Oqtay Rəcəbov 1969-cu ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirib. 116 saylı axşam məktəbində fizika, 1 saylı musiqi məktəbində isə musiqi fənlərindən dərs deyib. Azərbaycan Elmi Tədqiqat Pedaqoji Elmlər İnstitutunda kiçik elmi işçi, baş elmi işçi və şöbə müdiri vəzifələrində işləyib. Üzeyir Hacıbəyli adına Musiqi Akademiyasının (keçmiş Azərbaycan Dövlət Konservatoriyası) Azərbaycan xalq musiqisi kafedrasının professoru olub.

Onun təklifi və məsləhəti ilə Bakıda Respublika İncəsənət Gimnaziyası adlı tədris ocağı yaradılıb. Oqtay Rəcəbov 10 il həmin təhsil ocağına rəhbərlik edib. 1978-1992-ci illərdə Azərbaycan Dövlət Televiziyasında yayımlanan, geniş tamaşaçı audoriyası toplayan "Məktəblilərin musiqi klubu" verilişinin yaradıcısı və aparıcısı da professor Oqtay Rəcəbov olub.

Bəstəkarın yaradıcılığı müxtəlif janrlarda yazdığı əsərlərlə zəngindir. Oqtay Rəcəbovun "Atatürk" operası, "Göyçək Fatma" cizgi film-operası, "Xeyir və Şər", "Sərçəcik" uşaq operaları, "Əlin cibində olsun", "Şeytanın yubileyi" musiqili komediyaları, 4 saylı simfoniyası, simli orkestr üçün 5 saylı simfoniyası Azərbaycan musiqi sənətində özünəməxsus yer tutur. O, həmçinin bu gün də tamaşaçılar tərəfindən maraqla qarşılanan 20-dək filmə musiqi bəstələyib. Oqtay Rəcəbov pedaqogika və musiqi ilə bağlı 10 monoqrafiyanın, 70 dərslik, dərs vəsaiti və proqramın, 100-dən artıq məqalənin müəllifidir.

Onun Azərbaycan musiqi sənətinin inkişafında göstərdiyi xidmətlər yüksək dəyərləndirilib. Əməkdar müəllim (1987), Əməkdar incəsənət xadimi (2019) adlarına layiq görülüb, "Tərəqqi" medalı (2006) ilə təltif olunub.

Görkəmli bəstəkar, pedaqoji elmlər doktoru, professor Oqtay Rəcəbov 2022-ci il dekabrın 15-də dünyasını dəyişib.

Oqtay Rəcəbovun zəngin yaradıcılığı, pedaqoji fəaliyyəti ilə Azərbaycan mədəniyyətinin inkişafında və təbliğində qoyduğu izlər silinməzdir. Bəstəkarın müxtəlif janrlarda yazdığı əsərləri yalnız ölkəmizdə deyil, xarici ölkələrdə də uğurla səsləndirilir. Onun sevilə-sevilə ifa edilən, özünəməxsus, bənzərsiz əsərləri indi də musiqisevərlər tərəfindən böyük maraqla qarşılanır. Oqtay Rəcəbovun mahnıları bu gün də dillər əzbəridir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● Tarixin izi ilə

# Orta əsr memarlığının şah əsəri - Şirvanşahlar sarayı

**Hər şəhərin özünəməxsus taleyi var. Bəzi şəhərlər hərbi, siyasi hadisələrdən kənarda qalsa da, bir qismi tarixi hadisələrin güclü burulğanında çırpınır, digərləri talan və yanğınlara, feodal çəkişmələrinə, təbii fəlakətlərə tab gətirməyərək məhv olur, bəziləri isə əlverişli təbii-iqlim şəraitinə, güclü iqtisadiyyatına, ticarət və sənətkarlığının inkişafına görə çiçəklənərək şöhrət qazanır. Bakı məhz sonunculardandır.**

İçərişəhərin ən hündür yerində yerləşən Şirvanşahlar sarayı həm dövlətçilik tariximizin rəmzi, həm də Bakı xanlarının iqamətgahı kimi dövrünün dövlətçilik – idarəçilik simvoludur. Bu saraya mülk və ya ev demək düzgün olmaz. Orta əsr memarlığının şah əsərlərindən olan "Şirvanşahlar Saray Ansamblı" bu günə qədər öz tarixi-memarlıq üstünlüyünü saxlamaqdadır. Hələ XII əsrdə Bakıda möhkəm qala divarlarının (1138-1139) tikildiyi məlum idi. Şamaxıda baş verən zəlzələdən sonra paytaxt Bakıya köçürüldükdə şəhərin ən yüksək nöqtəsində Şirvanşahlar Sarayı ucaldılır.

Sarayın ansamblı 9 tikilidən - Saray binasından, Divanxanadan, Dərviş türbəsindən, Şərq darvazasından (portal), saray məscidindən, Keyqubad məscidindən, saray türbəsindən, hamam və ovdandan ibarətdir. Kompleks binaların biri digərindən 5,6 metr hündürlükdə yerləşən 3 həyətdən ibarətdir. Sarayın yerləşdiyi ərazi mürəkkəb relyefli olduğu üçün saray vahid memarlıq planına malik deyildir. Lakin buna baxmayaraq, binalar təzad təşkil etmirlər, əksinə, biri digərini gözəlləşdirir. Ən müxtəlif nöqtələrdən baxarkən tikililərin saray ansamblının tərkib hissələri olduğu aydın görünür.

## Saray binası

Saray 2 mərtəbəli düzbucaqlı formaya malik bir binadır. Onu yaxşı işıqlandırmaq üçün binanın cənub-şərq bucağı girintili-çıxıntılı hazırlanmışdır.

İlk vaxtlar sarayda 52 otaq varmış, onlardan 27-si birinci, 25-ci isə ikinci mərtəbədə yerləşirmiş. Otaqlar simmetrik şəkildədir. İkinci



mərtəbə tağ tavanla örtülmüş şahın özü və ailəsinin otaqları idi. Bu mərtəbənin pəncərələri Bakı buxtasının gözəl mənzərəsinə açılır. Onları daş şəbəkələr daha da gözəlləşdirir. Mərtəbələr arasında əlaqələr 2 ensiz pilləkən və 8 bucaqlı zalın döşəməsində yerləşən pilləkənlər vasitəsilə yaradılır. Təmir nəticəsində hazırda ikinci mərtəbədə cəmi 16 otaq vardır. Girişdəki 8 guşəli zal bu otaqlardan öz ilkin görünüşünə görə seçilir. Qalan 14 otaq da bərpa edilmişdir.

## Divanxana

Divanxana kompleksi yuxarı həyətdə yerləşir və onun şimal tərəfi ilə bir tini yaşayış binasına bitişmişdir. Tədqiqatçıların fikrincə, belə bir ehtimal var ki, Şirvanşah Fərrux Yasər Divanxana kompleksini özü üçün məqbərə olaraq tikdirmişdir.

Lakin tikinti işləri başa çatmamışdır. Sütunlar üzərindəki izlər göstərir ki, onlar nə vaxtsa incə daş barelyeflərlə bəzədilib. Sütunlu yer tanınmış feodalların yığıncağı üçün təyin olunubmuş. Divanxanaya yuxarı həyətdən və küçədən gələn 2 giriş vardır.

Rotondanın (dairəvi sütunlu tikili) da 2 giriş qapısı vardır. Qərb girişi uca və nəfis işlənmiş portal ilə seçilir. Portalın çərçivəsində 2 ədəd 6 guşəli medalyon vardır ki, onların içərisində sol tərəfdə gül şəkilli həndəsi fiqur əmələ gətirən 6 ədəd romb izlənir. Tədqiqatçılar yazırlar ki, romblardan ikisinin üzərində "Allahdan başqa Allah yoxdur", digərində "Məhəmməd Allahın elçisidir", sonuncuda isə "Əli Allaha yaxındır" sözləri yazılıb. Sağ tərəfdəki 6 bucaqlının içərisində isə 12 ədəd romb əks olunub. Onlardan 6 ədədinin üzərində "Allah təkdir", digər 6 ədədinin üzərində isə "Məhəmməd" sözləri yazılmışdır. Portalla yanaşı, rotondaya gedən daxili keçid də gözəl ornamentlərlə işlənmişdir. Bu ornamentlərdən yuxarıda Quranın 10-cu surəsi (Yunus surəsi 25, 26, 27-ci ayələr) yazılmışdır. "Uca və pak olan Allah dedi: Allah xalqı behiştə çağırır və istədiyi şəxsi düz yola hidayət edir, ona düz yol göstərir. Yaxşı və gözəl əməl sahiblərindən ötrü əcr və savab vardır. Onların üzərini günah pərdəsi örtmədiyi kimi, zəlil də olmazlar, onlar əhlidildirlər, həmişəlik orada qalacaqlar. Allah doğru deyir". Burada bədiilik effekti hörgünün xüsusiyyətindən asılı olaraq işıq-kölgə oynaqlığı ilə verilir. Rotonda tağlarının oxları üzərində 6 bucaqlı medalyonlar vardır ki, onların daşları üzərində 3 qabarıq və 3 oyuq formada "Əli" adı həkk olunmuşdur. Ehtimal olunur ki, binanın tikintisi 1500-1501-ci illərdəki müharibələr dövründə dayandırılıb.

Divanxananın memarlıq üslubunun kamilliyi, ornamentlərin yüksək dərəcədə hazırlanma səviyyəsi Azərbaycan xalqının zəngin memarlıq irsinə malik olduğunu göstərir. Bura gözəlliyinə və incəliyinə görə nəinki Azərbaycanın, həm də Yaxın Şərqin uyğun memarlıq abidələrənin şah əsəri sayılır.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

● Sənət dünyası

# Rənglərin BMT-dən sülh çağırışı

**Müharibələrin alovlandığı, silah səslərinin körpə gülüşlərini susdurduğu, insan talelərinin siyasi ambisiyalara qurban verildiyi bir dövrdə dünyanı xilas edən ən böyük mənəvi güclərdən biri incəsənətdir. Çünki silah insan bədənini yaralaya bilər, sənət isə insan ruhunun məlhəmidir. Ölümsaçan raketlər şəhərləri viran qoyduğu məqamda rəssamın fırçası ilə dağılan ümidlərin yerində yeni xoşbəxt sabahlar çəkilir.**



Rəssamlıq sözsüz danışan ən böyük sənətdir. Rənglərin dili sərhəd tanımır, tərcüməçiyə ehtiyac duymur, bir baxışla ürəklərə yol tapır. Ağ rəng ümidin nəfəsi, yaşıl həyatın yenilənməsi, mavi səmanın sonsuzluğu, qırmızı mübarizənin və sevginin rəmzidir. Hər tablo görünən şəkildən daha çox görünməyən hisslərin aynasıdır.

Rəssam kətan üzərində, sadəcə, boya ilə işləmir, o, duyğuları şəkilləndirir, düşüncələri rəngləndirir, insanın iç dünyasına işıq



salır. Bəzən bir rəsm əsəri uzun nitqlərin deyə bilmədiyini bir anda anlatmağa qadirdir. Ona görə də incəsənət təkcə estetik zövq deyil, həm də diplomatiyadır, dialoqdur, insanları bir-birinə yaxınlaşdıran körpüdür.

Bu gün dünyada qarşıdurmaların artdığı, nifrətin sərhədləri aşdığı bir zamanda gənc azərbaycanlı rəssamların BMT-nin baş qərargahında "Mədəni diplomatiya üçün incəsənət – Sülh naminə incəsənət" ideyası ilə çıxış etməsi olduqca təqdirəlayiq hadisədir. Bu təşəbbüs göstərir ki, Azərbaycan gəncliyi dünyaya siyasi mövqeyi ilə yanaşı, həm də mədəni düşüncəsi, humanist baxışı və yaradıcılıq enerjisi ilə mesaj verir. Çünki bəzən bir rəsm əsəri min silahın edə bilmədiyini edir - insanları düşünməyə, duymağa və barışa səsləyir.

Azərbaycan Respublikasının BMT yanında Daimi Nümayəndəliyinin "Dirçəliş" Gənclərin Sosial və Psixoloji Reabilitasiya Mərkəzi ilə əməkdaşlığı çərçivəsində təşkilatın Nyu Yorkda yerləşən baş qərargahında "Mədəni diplomatiya üçün incəsənət, Azərbaycan – Şərq və Qərbin qovuşduğu məkan" adlı gənc azərbaycanlı rəssamların əsərlərindən ibarət sərgi keçirilib. Sərgidə iştirak edən istedadlı rəssamlar və layihənin əsas təşəbbüskarlarından biri - "Dirçəliş" Gənclərin Sosial və Psixoloji Reabilitasiya Mərkəzinin təsisçisi və direktoru İslam Baxşəliyev redaksiyamızın qonağı oldular. Səmimi və yaddaqalan görüş zamanı qonaqlarımız beynəlxalq sərginin yaratdığı təəssüratdan, Azərbaycan mədəniyyətinin dünyada tanıdılması istiqamətində görülən işlərdən, həmçinin incəsənətin sülhə və qarşılıqlı anlaşmaya xidmət edən böyük missiyasından söhbət açdılar. İslam Baxşəliyev bildirdi ki, rəhbərlik etdiyi mərkəz 1999-cu ildən fəaliyyət göstərən qeyri-hökumət, qeyri-kommersiya və qeyri-siyasi təşkilatdır. Mərkəzin bu illər ərzində yerli dövlət qurumları, eləcə də beynəlxalq təşkilatlarla sıx əməkdaşlığı çərçivəsində yüzlərlə layihə həyata keçirilib. 2006-cı ildən etibarən Avropa Şurasının Gənclər Direktoriyasının üzvü olan qurumun əsas tərəfdaşları sırasında ABŞ Dövlət Departamenti, Avropa Şurası, Norveç səfirliyi, Finlandiyanın ABILIS Fondu, ANAMA, Qlobal Fond və digər nüfuzlu donor təşkilatlar yer alır.

İslam Baxşəliyev qeyd etdi ki, 2010-cu ildən etibarən Azərbaycan mədəniyyətini dünyada tanıtmaq məqsədilə "Mədəni diplomatiya üçün incəsənət – Sülh naminə incəsənət" adlı beynəlxalq sərgi layihəsi həyata keçirilir. Bu müddət ərzində dünyanın beş qitəsində - Şimali Amerika, Cənubi Amerika, Avropa, Asiya və Afrikada 28 sərgi təşkil olunub. Həmin sərgilərdə ümumilikdə 505 gənc rəssam iştirak edib, 2180-dən çox rəsm əsəri nümayiş olunub. ABŞ-də keçirilən bu sərginin sayca ikinci olduğunu vurğulayan həmsöhbətimiz onu da dedi ki, ilk tədbir iki ölkə arasında diplomatik münasibətlərin 30 illiyinə həsr olunaraq Mayamidə baş tutub: "Builki sərginin Novruz bayramı münasibətilə BMT-nin baş qərargahında keçirilməsi xüsusi qürur hissi doğurur. Sərgidə 18 rəssamın 34 əsəri nümayiş olunub. Azərbaycan çoxmillətli və çoxmədəniyyətli ölkədir. Məhz buna görə də Azərbaycan incəsənəti zəngin, rəngarəng və sərbəstdir. Ölkənin şimalında başqa nəfəs, cənubunda başqa ovqat, qərbində sazın səsi, şərqində isə muğamın sehri duyulur. Bütün bu fərqli çalarlar birləşərək vahid Azərbaycan mədəniyyətini formalaşdırır".

Qonağımız bildirdi ki, sərgiyə "Azərbaycan – Şərq və Qərbin qovuşduğu məkan" adının verilməsi təsadüfi deyil. Bu ad həm ölkəmizin coğrafi mövqeyini, həm də mədəni missiyasını ifadə edir. Azərbaycan əsrlər boyu müxtəlif sivilizasiyaların kəsişdiyi mə-



kan kimi Şərqlə Qərb arasında körpü rolunu oynayıb. Həmin missiya bu gün də mədəni diplomatiya vasitəsilə davam edir.

İslam Baxşəliyev tədbirə çoxsaylı diplomatların, müxtəlif ölkələrin nümayəndələrinin qatılmasını xüsusi vurğulayaraq dedi ki, qonaqların Azərbaycan və gənc rəssamlarımız haqqında səsləndirdikləri xoş fikirlər öl-



kəmizin mədəni nüfuzunun daha da artdığını göstərir. O, dəstəyə görə Azərbaycanın BMT yanında Daimi Nümayəndəliyinə, eləcə də sərgini ziyarət edən bütün sənətsevərlərə minnətdarlığını bildirdi.

Redaksiyamızın qonağı olan gənc rəssamlar da öz yaradıcılıq dünyaları barədə fikirlərini bölüşdülər. Sakina Cəfərli qeyd etdi ki, onun üçün rəsm, sadəcə, sənət növü deyil, daxili aləmin ifadəsidir. Uşaqlıqdan incəsənətlə məşğul olduğunu deyən sənətçi müxtəlif texnikalarda – akril, yağlı boya və akvareldə işlədiyini bildirdi. Gənc rəssam əsərlərində daha çox hissləri, işığı və atmosferi ön plana çəkir. Müasir fiqurativ rəngkarlıq üslubunda çalışan rəssam realizm, impressionizm və ekspressiv yanaşmaları bir araya gətirir. Onun sözlərinə görə, bəzən əsərlərində fiqurlar görünür, bəzən isə simalar olmur. Sakina deyir: "Məqsədim odur ki, hər tamaşaçı tablolarda öz hisslərini tapa bilsin. Təbiət, yağış, dəniz və sadə həyat anları isə onun əsas ilham mənbələridir".

Cəmilə Hacıyeva isə rəssamlıq sənətini yaddaşın və kimliyin ifadəsi kimi dəyərləndirdi. Bildirdi ki, 2012-ci ildən etibarən yaradıcılığı əsasən köklər, insanın daxili azadlığı və milli yaddaş mövzuları üzərində qurulub. Cəmilənin 2023-cü ildə Bakıdakı Muzey Mərkəzində keçirilən "Septem" adlı ilk fərdi sərgisində 40 əsəri nümayiş olunub. Həmin əsərlərdə kənd həyatının estetikası, sadəlik, sakitlik və zamana bağlı nostalji hisslər əks edilib. Onun sözlərinə görə, BMT-də keçirilən sərgidə iştirak etmək Azərbaycan rəssamının səsinin dünya miqyasında eşidilməsi baxımından mühüm hadisədir.

Gənc rəssam Fidan Həsənova isə dedi ki, uşaqlıqdan rəsmə böyük maraq göstərib və zaman keçdikcə bu sevgini peşəkar sənət yoluna çevirib. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasında təhsil alan rəssam hazırda təhsilini Prezident yanında Dövlət İdarəçilik Akademiyasında davam etdirir. O, bir sıra yerli və beynəlxalq sərgilərdə iştirak etdiyini bildirdi. Nyu Yorkda təşkil olunan sərgidə iştirakını isə həyatının ən önəmli yaradıcılıq hadisələrindən biri adlandırdı. Onun sözlərinə görə, Azərbaycanı incəsənət vasitəsilə xaricdə təmsil etmək böyük qürur və məsuliyyətdir.

Nərmin Hümbətova Azərbaycan Rəssamlar İttifaqının üzvü və Prezident təqaüdçüsü kimi müxtəlif beynəlxalq müsabiqə və sərgilərdə ölkəmizi təmsil edib. Berlin, Litva, Latviya, Estoniya, Finlandiyada, keçən il Seul, Roma və digər şəhərlərdə keçirilən sərgilərdə iştirak etdiyini deyən rəssam builki BMT sərgisində üç əsərlə təmsil olunduğunu bildirdi. O, həmçinin üç tələbəsinin də bu sərgidə iştirak etməsini qürurla söylədi. Gənc rəssamın sözlərinə görə, əsərləri müxtəlif ölkələrin diplomatları tərəfindən böyük maraqla qarşılanıb. Xüsusilə Peru nümayəndəsinin onun "Papaqatdı" adlı əsəri ilə maraqlanması yaddaqalan məqam olub. Bu münasibətlə rəssam qonaqlara Azərbaycanın adət-ənənələri, Novruz mərasimləri və milli dəyərlərimiz haqqında məlumat verib, əsərlərindən birini isə Perunun Amerikadakı səfiri Françesko Grazianiyə hədiyyə edib.



Nərmin Hümbətova sərgidə nümayiş etdirdiyi abstrakt əsərlərindən biri haqqında da söz açdı. Bildirdi ki, tablosunda Flame Towers nar formasında təsvir olunub. Nar Azərbaycanda bolluq, bərəkət və birliyin rəmzidir. Arxa plandakı memarlıq elementləri isə qədim Bakını xatırladır. Beləliklə, əsərdə ənənə ilə müasirliyin vəhdəti yaradılıb. Qırmızı və alov rəngləri Azərbaycanın "Odlar diyarı" obrazını ifadə edir, milli kimliyin davamlılığını və xalqımızın daxili enerjisini göstərir.

Beləliklə, BMT-nin möhtəşəm salonlarında nümayiş olunan bu sərgi bir daha sübut etdi ki, Azərbaycan dünyaya zəngin mədəniyyəti, yaradıcı gəncliyi və humanist düşüncəsi ilə də nümunə göstərir. Silahların danışdığı, qarşıdurmaların artdığı bir zamanda gənc rəssamlarımızın fırçasından doğan rənglər sülhün, dostluğun və qarşılıqlı anlaşmanın səsini dünyaya çatdırdı. Bu tədbir həm də göstərdi ki, incəsənət sərhəd tanımayan ən güclü diplomatiyadır. Azərbaycan gənclərinin BMT tribunasından verdiyi bu mənəvi mesaj ölkəmizin mədəni qüdrətinin, milli ruhunun və gələcəyə inamının parlaq təcəssümünə çevrildi.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# Yardımlıda ödənişsiz tibbi müayinələr təşkil olunub









**"Həmkardan həmkara qayğı ilə" sosial layihəsi çərçivəsində növbəti səyyar tibbi aksiya Yardımlı rayonunda təşkil olunub.**

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşəbbüsü və təşkilatçılığı, Səhiyyə Nazirliyi və Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin dəstəyi ilə həyata keçirilən layihə çərçivəsində sakinlərə ödənişsiz tibbi xidmətlər göstərilib. Yardımlı Rayon Mərkəzi Xəstəxanasında baş tutan müayinələr zamanı 5 müxtəlif istiqamət üzrə peşəkar həkim heyəti tərəfindən tibbi baxışlar həyata keçirilib.

İki gün ərzində ümumilikdə 435 rayon sakini müayinədən keçib. Müayinə nəticəsində səhhətində problem aşkarlanan şəxslərə müvafiq tibbi tövsiyələr verilib və müalicə istiqamətləri müəyyənləşdirilib.

Tədbirin təşkilində AHİK könüllüləri də fəal iştirak ediblər. Qeyd edək ki, "Həmkardan həmkara qayğı ilə" layihəsi ucqar bölgələrdə yaşayan əhalinin tibbi xidmətlərə çıxış imkanlarının artırılması, onların sağlamlığının qorunması və dövlətimizin sosial siyasətinə töhfə vermək məqsədi daşıyır.

2025-ci ilin aprel ayından start götürən layihə çərçivəsində indiyədək ümumilikdə 2685 vətəndaş ödənişsiz tibbi müayinələrdən faydalanıb.

***Bəhmən MİRZƏYEV, "Azərbaycan"***


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Ahıllar üçün günərzi qayğı mərkəzlərinin fəaliyyətinin təşkili" (Respublikanın şəhər və rayonları üzrə) adlı *müsabiqə keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 07 may 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 08 may 2026-cı il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***

## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması və çətin həyat şəraitində olan uşaqların və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi məqsədi ilə günərzi mərkəzlərin xidmətinin göstərilməsi" (Respublikanın şəhər və rayonları üzrə) adlı *müsabiqə keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 06 may 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 07 may 2026-cı il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***

**«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20**

**Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az**


**BEYNƏLXALQ HƏYAT**

# *Si CİNPİN:* "Hörmüz boğazı sərbəst naviqasiya üçün açıq qalmalıdır"

Çin Xalq Respublikasının Sədri Si Cinpin bildirib ki, ABŞ və İsrailin hücumları, İranın cavab zərbələri nəticəsində Yaxın Şərqdə artan münaqişə səbəbindən bağlanmış Hörmüz boğazı normal gəmiçilik üçün açıq qalmalıdır.



Çin Xarici İşlər Nazirliyinin açıqlamasına görə, dövlət başçısının Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salmanla telefon danışığı olub. Hörmüz boğazının açıq qalmasının region ölkələrinin və beynəlxalq ictimaiyyətin ortaq maraqlarına xidmət etdiyini qeyd edən Si Cinpin beynəlxalq gəmiçilik yolunun normal gəmiçilik üçün açıq qalmalı olduğunu qeyd edib. Orta Şərq və Fars körfəzi bölgəsindəki vəziyyətdən danışan Si Cinpin, Çinin dərhal və hərtərəfli atəşkəsin tərəfdarı olduğunu və mübahisələrin siyasi və diplomatik yollarla həllinə sadiq qalaraq bütün sülh səylərini dəstəklədiyini bir daha vurğulayıb. Çin lideri ÇXR-in region ölkələrinin mehriban qonşuluq, inkişaf, təhlükəsizlik və əməkdaşlığa əsaslanan ortaq bir ev qurmaq və regionda davamlı sülh və sabitlik yaratmaq üçün taleyini və gələcəyini öz əllərinə almaq istəklərini dəstəklədiyini bildirib.

Vəliəhd bin Salman isə öz növbəsində Yaxın Şərqdəki müharibənin Körfəz ölkələrinin təhlükəsizliyinə zərər verdiyini və qlobal enerji təchizatına və iqtisadi fəaliyyətə mənfi təsir göstərdiyini qeyd edərək Səudiyyə Ərəbistanının münaqişələrin və fikir ayrılıqlarının dialoq yolu ilə həll edilməsini dəstəklədiyini və gərginliyin artmasının qarşısının alınacağına ümid etdiyini deyib.

Məlum olduğu kimi, Hörmüz boğazında gəmilərin hərəkəti hərbi əməliyyatlara görə faktiki olaraq dayandırılıb. Xatırladaq ki, Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ), Küveyt, Qətər, İraq və İrandan karbohidrogen ehtiyatlarının qlobal bazarlara daxil olduğu Hörmüz boğazı dünya neft ticarətinin təxminən 25, mayeləşdirilmiş təbii qaz ticarətinin təxminən 20 faizi və gübrə ticarətinin təxminən 30 faizi üçün əsas marşrutdur. Çin neftin təxminən 45, mayeləşdirilmiş təbii qazın 30 faizini Fars körfəzi və Hörmüz boğazı üzərindən idxal edir.

Boğazda tankerlərin hərəkətində yaranan fasilələr artıq qlobal neft tədarükündə fasilələrə və neft qiymətlərinin artmasına səbəb olub.

# BMT: təxminən 4 milyon sudanlı məcburi köçkün evinə dönüb

## Lakin onların normal və təhlükəsiz yaşayışları üçün zəmanət yoxdur

Beynəlxalq Miqrasiya Təşkilatının İdarəetmə və İslahatlar üzrə baş direktorunun müavini Sung A Linin dediyinə görə, Sudanda təxminən 4 milyon insan könüllü olaraq evinə qayıdıb. Lakin bu ərazilərə investisiya qoyulmadan geri dönüş təhlükə altındadır.



Li Sudanın paytaxtı Xartumdan Cenevrədə keçirilən həftəlik BMT brifinqində onlayn iştirak edib. O, ordu ilə Sürətli Müdaxilə Qüvvələri (SMQ) arasında 3 ildən çox davam edən münaqişə səbəbindən mülki əhalinin çətin vəziyyətdə olduğunu, ailələrin dözülməz və yorucu səyahətlərdən sonra evlərinə döndüyünü qeyd edib. "Sudanda təxminən 4 milyon insan, xüsusən də Əl-Cəzirə əyalətində könüllü olaraq öz doğma yerinə qayıdıb. Bir çox sudanlı təhlükəsizlik vəziyyətinin yaxşılaşdığına inandıqları üçün Xartuma və Əl-Cəzirəyə dönür. Digərləri isə məcburi köçkün kimi dözülməz yaşayış şəraiti, ailələrin yenidən birləşməsi ilə əlaqəli iqtisadi təzyiq və qonşu ölkələrdə pisləşən şərait səbəbindən geri qayıdırlar", - deyə Li bildirib. Təşkilatın nümayəndəsi həmçinin vurğulayıb ki, bu qayıdışlar həyatlarını yenidən qurmaq istəyən sudanlıların dözümlüyünü və qətiyyətini nümayiş etdirir.

Münaqişənin təsiri ölkə daxilində ciddi olaraq qalır. Li qeyd edib ki, qayıtdıqdan sonra bir çoxunun üzləşdiyi reallıq olduqca çətindir. "Evə qayıtmaq bərpanın başlanğıcıdır, lakin indiki Sudanda bu, çox vaxt yaşamaq uğrunda mübarizənin başlanğıcı deməkdir. Münaqişənin təsiri ölkə daxilində ciddi olaraq qalır". Li əlavə edib ki, insanlar evlərin və vacib infrastrukturun ciddi şəkildə zədələndiyi ərazilərə dönürlər. O, əsas xidmətlərin, infrastrukturun və dolanışıq vasitələrinin bərpasına təcili investisiya qoyulmasa, təhlükəsiz və davamlı qayıdışın ciddi təhlükə altında olacağını vurğulayıb. Linin sözlərinə görə, böhranın pik həddə çatdığı dövrdə təxminən 12 milyon insan ciddi şəkildə zərərçəkmiş əraziləri tərk edib, 4,5 milyondan çox insan qonşu dövlətlərin sərhədlərini keçib və bu gün təxminən 9 milyon insan daxili köçkün olaraq qalır.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Əlilliyi olan uşaqlar üçün sosial reabilitasiya mərkəzlərinin fəaliyyətinin təşkili" (Bakı, Sumqayıt və Abşeron rayonu istisna olmaqla respublikanın şəhər və rayonları üzrə) adlı *müsabiqə keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər. İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 07 may 2026-cı il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır. Müsabiqə 08 may 2026-cı il saat 12:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5032)**

***Müsabiqə komissiyası***


**ALLAH RƏHMƏT ELƏSİN!**

Aslan Aslanov, Hüseynağa Gülüşov, Əşrəf Quliyev, Qurban Əmirov, Rasim Məlikov və Qılman Qazıyev dostları Vaqif Axundova bacısı

**SƏKİNƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"AzerGold" QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Eldəniz Bayramlıya anası

**NAZƏNİ BAYRAMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3721
Sifariş 509

Qiyməti 60 qəpik